**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Sumqayıt Dövlət Universiteti**

**Sumqayıt Dövlət Universitetinin**
**İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında**

# HESABAT

**Hesabat Sumqayıt Dövlət Universiteti Elmi Şurasının 03.03.2023-cü il tarixli iclasının (prot.№07)qərarı ilə təsdiq edilmişdir.**

**Tarix: 03.03.2023**

**Rektor ____________ prof. E.B.Hüseynov**

**M.Y**

**Sumqayıt – 2023**

**Mündəricat**


**I. Giriş** ........ 3
1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar ........ 3
1. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki ........ 4
1. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair ........ 8
**II. Təhsil müəssisəsinin özünütəhlili** ........ 13
4. Özünütəhlil qiymətləndirilməsinin icmalı ........ 13
**1. STRATEJİ İNKIŞAF** ........ 13
1.1. Ali təhsil müəssisəsinin missiyası,strategiyası, strateji istiqamətləri və hədəfləri ..... 13
1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi ........ 18
**2. KEYFİYYƏT TƏMİNATI** ........ 18
2.1. Keyfiyyət təminatı siyasəti ........ 18
2.2. Daxili keyfiyyət təminatı mexanizmləri ........ 20
2.3. Keyfiyyət təminatı mədəniyyəti ........ 21
**3. TƏLİM VƏ TƏDRİS** ........ 22
3.1. Təhsil alanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması ........ 22
3.2. Təhsil proqramları ........ 24
3.3. Tədrisin təşkili ........ 28
3.4. Tədris metodları və üsulları ........ 32
3.5. Təlim və tədris resursları ........ 36
3.6. Təhsil alanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi ........ 39
3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər ........ 41
3.8. Tələbəyönümlü tədris ........ 44
3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi ........ 46
3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi ........ 50
**4. ELMİ TƏDQİQAT** ........ 52
4.1. Elmi-tədqiat strategiyası ........ 52
4.2. Tədqiat resursları ........ 55
4.3. Elmi-tədqiat fəaliyyəti ........ 57
4.4. Elmi-tədqiat fəaliyyətində v ə təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti ........ 57
**5. İDARƏETMƏ SİSTEMİ** ........ 59
5.1. İdarəetmə orqanları ........ .59
5.2. İnsan resurslarının idarə edilməsi ........ 61
5.3. Maliyyə resurslarının idarə edilməsi ........ 64
5.4. İnformasiya idarəetmə sistemi ........ 65
5.5. İctimaiyyətlə əlaqələr ........ 67
**6. İNFRASTRUKTUR** ........ 70
6.1. Tədris infrastrukturu ........ 70
6.2. Elmi-tədqiqat infrastrukturu ........ 74
**7. BEYNƏLMILƏLLƏŞMƏ** ........ 75
7.1.Beynəlmiləlləşmə siyasəti ........ 75
7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu ........ 76
7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar ........ 77
7.4. Beynəlmiləlləşmə performansı ........ 78
**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri** ........ 79
**6. Təşkilat komissiyasının gəldiyi nəticələr və qeydlər** ........ 81
**III Özünütəhlil hesabatına əlavə olunan sənədlər** ........ 82

# I. Giriş

## 1.1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Sumqayıt Dövlət Universiteti (SDU) |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | AR TN-nin 20 may 2016-cı il tarixli 328 nömrəli əmri ilə Dövlət Ali Təhsil Müəssisəsi kimi 5 il müddətinə akkreditə olunmuşdur.<br>(Qeyd:№006; 7iyun 2016-cı il) |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | |
| Təhsil müəssisəsinin rəhbəri | Hüseynov Elxan Bahadur oğlu |
| Fakültələrin sayı | 7 |
| Kafedraların sayı | 29 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 58 |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 32 ixtisas<br>60 ixtisaslaşma |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 24 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 5819<br>Magistratura: 264<br>Doktorantura: 69<br>Doktorluq proqramı üzrə:<br>f.d.43 (33 dok.10 diss.);<br>e.d. 26 (15 dok.,11 diss.) |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 410 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 31 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@sdu.edu.az<br>(018) 642-12-63 |
| Müəssisənin hüquqi ünvanı | AZ1008, Sumqayıt.<br>43-cü məhəllə. SDU |
| Müəssisənin faktiki ünvanı | AZ1008, Sumqayıt.<br>43-cü məhəllə. SDU |

## 1.2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1 | Prof. Məmmədov Ramazan Salam oğlu | Elm və innovasiyalar üzrə prorektor, sədr | ramedov44@gmail.com |
| 2 | Dos. Talıbov Natiq Həsən oğlu | Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor | natiq1965@bk.ru |
| 3 | Dos. Atayev Qafar Nəriman oğlu | Beynəlxalq əlaqələr üzrə prorektor | gafar_atayev@mail.ru |
| 4 | Dos. Xəlilov Elmar Şirinbala oğlu | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə pror | khalilovelmar1965@gmail.com |
| 5 | Hacıyev Naib İsmixan oğlu | İqtisadi məsələlər üzrə prorektor | naib.haciyev.sdu@mail.ru |
| 6 | Məmmədov Əsəd Aqil oğlu | Ümumi işlər üzrə prorektor | asad_asad@yandex.ru |
| 7 | Dos. Hüseynov Zəfər Qafar oğlu | Rektorun müşaviri | huseynov_zq@mail.ru |
| 8 | Şirinov Faiq İmaməli oğlu | Tədris Metodiki Mərkəzin direktoru, sədr müavini | faiq.shirinov.2016@mail.ru |
| 9 | Məmmədova Elnarə Elxan qızı | Ümumi şöbənin müdiri | metodist.az@mail.ru |
| 10 | Prof. Səmədov Muxtar Məmməd oğlu | Elmi katib | samedov-muxtar@mail.ru |
| 11 | Dos. Həsənova Xalidə Sidqəli qızı | Riyaziyyat fakültəsinin dekanı | hesenova_1975@list.ru |
| 12 | Dos. Əhmədova Tamella Əhməd qızı | Fizika və elektroenergetika fakültəsinin dekanı | tamella.ahmedova@mail.ru |
| 13 | Dos. Muradov Mahal Mayıl oğlu | Kimya və biologiya fakültəsinin dekanı | mailoglu@mail.ru |
| 14 | Dos. Ağayev Ulduz Xeyrulla oğlu | Mühəndislik fakültəsinin dekanı | ulduz1969@mail.ru |
| 15 | Dos. Yəhyayeva Aynurə Yusif qızı | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı | yehyayeva1@gmail.com |
| 16 | Prof. Baxşəliyev Adil Baxşəli oğlu | Tarix və coğrafiya fakültəsinin dekanı | sdu.adil@gmail.com |
| 17 | Dos. Həmzəyeva Sevinc Səyyad qızı | Filologiya fakültəsinin dekanı | vevi77@mail.ru |
| 18 | Dos. Xəlilov Sabir Ağakişi oğlu | Doktorantura və magistratura şöbəsinin müdiri | xelilov-55@mail.ru |
| 19 | Dos. Orucov Samir Kamal oğlu | Elmi hissənin müdiri | osamir@mail.ru |
| 20 | Dos. Bünyadova Lalə Novruz qızı | Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri | bunyadova83@inbox.ru |
| 21 | Həsənova Nərmin Rüstəm qızı | Təhsildə keyfiyyət təminatı şöbəsinin müdiri | hasanova_narmin@yahoo.com |

| | | | |
|---|---|---|---|
| 22 | Fətullayeva Sədaqət Abdul qızı | Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöb. müdiri | maskerzade@mail.ru |
| 23 | Dos.İsayev Əmirxan İsmayıl oğlu | Karyera mərkəzinin müdiri | amirxanisayev1965@gmail.com |
| 24 | B/m. Əhmədov Nofəl Şəmşad oğlu | Kadrlar şöbəsinin müdiri | nofelehmedov@mail.ru |
| 25 | Abdullayev Şahmar Həsən oğlu | Baş mühasib | shahmar1947@mail.ru |
| 26 | Dos. Mustafayev Musa Musa oğlu | Tədris Metodiki Şuranın sədri | musa.mustafayev.1962@mail.ru |
| 27 | Dos. Mənsurov Qadir Məmməd oğlu | Redaksiya və nəşriyyat şurasının sədri | dr.ing.mansurov@mail.ru |
| 28 | Dos. İbayev Nemət Alış oğlu | Həmkarlar İttifaqı Komitəsinin sədri | nemetibayev@gmail.com |
| 29 | Hacıyev Tayfun Naib oğlu | Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri | tayfun.hacili@mail.ru |
| 30 | Novruzlu Elmin Əliyar oğlu | Tələbə Gənclər Təşkilatının sədri | novruzluelmin323@gmail.com |
| 31 | Dos. Həsənova Əminə Atamoğlan qızı | Baş hüquqşünas | amina.gasanova5@mail.ru |
| 32 | Əzizova Nazxanım Məmməd qızı | Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətinin rəisi | nazxanim.celilli@mail.ru |
| 33 | İsmayılov Fərmayıl Bəkir oğlu | İnformasiya və texnologiyalar mərkəzinin direktoru | farmayil1965@mail.ru |
| 34 | Əmrahova Nailə Nağı qızı | Elmi kitabxananın müdiri | naile.emrahova@mail.ru |
| 35 | Qurbanov Əsəd Allahverdi oğlu | SDU-nun nəzdində SDTK-nın Tədris işləri üzrə direktor müavini | esed.qurbanov@list.ru |
| 36 | Dos.Babayeva Aytək Ramiz qızı | Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun direktoru. v.i.e., tex.ü.f.d. | aytek.babayeva@azerenerji.gov.az |
| 37 | İsgəndərov Rövşən Mirzəhüseyn oğlu | Azərkimya İstehsalat Birliyinin İstehsal proseslərinin avtomatlaşdırılması, Mexanika və Energetika Şöbəsinin rəis müavini | rovshen.isgenderov@socar.az |

**Təşkilat komissiyasının fəaliyyət qrafiki**

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1 | Prof. Məmmədov Ramazan Salam oğlu | Elmi tədqiqat |
| 2 | Dos. Talıbov Natiq Həsən oğlu | Təlim və tədris |
| 3 | Dos. Atayev Qafar Nəriman oğlu | Beynəlmiləlləşmə |
| 4 | Dos. Xəlilov Elmar Şirinbala oğlu | Ictimaiyyətlə əlaqələr |

| | | |
|---|---|---|
| 5 | Hacıyev Naib İsmixan oğlu | İnfrastruktur |
| 6 | Məmmədov Əsəd Aqil oğlu | İdarəetmə sistemi |
| 7 | Dos. Hüseynov Zəfər Qafar oğlu | Strateji inkişaf |
| 8 | Şirinov Faiq İmaməli oğlu | Təlim və tədris |
| 9 | Məmmədova Elnarə Elxan qızı | İdarəetmə sistemi |
| 10 | Prof. Səmədov Muxtar Məmməd oğlu | İdarəetmə sistemi |
| 11 | Dos. Həsənova Xalidə Sidqəli qızı | Təlim və tədris |
| 12 | Dos. Əhmədova Tamella Əhməd qızı | Təlim və tədris |
| 13 | Dos. Muradov Mahal Mayıl oğlu | Təlim və tədris |
| 14 | Dos. Ağayev Ulduz Xeyrulla oğlu | Təlim və tədris |
| 15 | Dos. Yəhyayeva Aynurə Yusif qızı | Təlim və tədris |
| 16 | Prof. Baxşəliyev Adil Baxşəli oğlu | Təlim və tədris |
| 17 | Dos. Həmzəyeva Sevinc Səyyad qızı | Təlim və tədris |
| 18 | Dos. Xəlilov Sabir Ağakişi oğlu | Kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi |
| 19 | Dos. Orucov Samir Kamal oğlu | Elmi tədqiqat fəaliyyəti |
| 20 | Dos. Bünyadova Lalə Novruz qızı | Tələbələrin elmi-tədqiqat fəaliyyəti |
| 21 | Həsənova Nərmin Rüstəm qızı | Keyfiyyət təminatı |
| 22 | Fətullayeva Sədaqət Abdul qızı | Beynəlmiləlləşmə |
| 23 | Dos.İsayev Əmirxan İsmayıl oğlu | Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi |
| 24 | B/m. Əhmədov Nofəl Şəmşad oğlu | İnsan resurslarının idarə edilməsi |
| 25 | Abdullayev Şahmar Həsən oğlu | Maliyyə resurslarının idarə edilməsi |
| 26 | Dos. Mustafayev Musa Musa oğlu | Təhsil proqramlarının monitorinqi və yenilənməsi |
| 27 | Dos. Mənsurov Qadir Məmməd oğlu | Təhsil proqramlarının monitorinqi və yenilənməsi |
| 28 | Dos. İbayev Nemət Alış oğlu | Sosial-məişət şəraiti |
| 29 | Hacıyev Tayfun Naib oğlu | Tələbəyönümlü tədris |
| 30 | Novruzlu Elmin Əliyar oğlu | Tələbəyönümlü tədris |
| 31 | Dos. Həsənova Əminə Atamoğlan qızı | İdarəetmə sistemi |

| | | |
|---|---|---|
| 32 | Əzizova Nazxanım Məmməd qızı | Ictimaiyyətlə əlaqələr |
| 33 | İsmayılov Fərmayıl Bəkir oğlu | İnformasiya idarəetmə sistemi |
| 34 | Əmrahova Nailə Nağı qızı | Kitabxana fondunun vəziyyəti |
| 35 | Qurbanov Əsəd Allahverdi oğlu | Təhsil proqramlarının monitorinqi və yenilənməsi |
| 36 | Dos.Babayeva Aytək Ramiz qızı | İnfrastruktur |
| 37 | İsgəndərov Rövşən Mirzəhüseyn oğlu | İnfrastruktur |

**1.3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti**

***Qeyd:*** *Təhsil müəssisəsinin əvvəlki akkreditasiya qiymətləndirilməsi nəticələrinə dair ümumi məlumat və Yekun Hesabatda Komissiyanın verdiyi tövsiyələrin ümumi icrasına və çatışmazlıqların aradan qaldırılması vəziyyətinə dair mövcud vəziyyət əks olunur.*

Sumqayıt Dövlət Universitetinin öncəki akkreditasiya qiymətləndirmənin nəticələri bütün struktur rəhbərləri tərəfindən baxılmış və göstərilən iradlar aradan qaldırılmış, tövsiyələr isə həyata keçirilmişdir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş Ali Təhsil Müssisəsinin Dövlət Standartı ilə bakalavriat səviyyəsinin ixtisas üzrə proqarmına əsasən tərtib edilmiş tədris planlarında, həmçinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci il tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramı əsasında tərtib edilmiş tədris planlarında əvvəllər yol verilmiş uyğunsuzluqlar aradan qaldırılmışdır.

Birinci iradla əlaqədar qeyd etmək lazımdır ki, öncəki akkreditasiyadan keçən dövr ərzində nəinki uyğun olmayan ixtisaslardan köçürmələr ümumiyyətlə, tələbələrin bir ixtisasdan digərinə köçürülməsi tamamilə aradan qaldırılmışdır. Ötən dövr ərzində tələbələrin bərpa olunmasında bir ixtisasdan digər ixtisasa köçürülməsi ilə bağlı qaydalara zidd olan heç bir fəaliyyət həyata keçirilməyib. 2016-cı ildən tələbə köçürmələri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən aparılır.

Hazırda SDU-da fəaliyyət göstərən bütün kafedralarda proqram təminatı ciddi nəzarətdə saxlanılır. Tədris planına Elm və Təhsil Nazirliyi tərəfindən daxil edilən fənlər üzrə proqramlar Nazirliyin qrifi ilə, universitet tərəfindən daxil edilən fənlərin proqramları isə SDU-nun Elmi Şurasının qərarı ilə nəşr olunmuşdur. Qeyd etmək lazımdır ki, 2015-2016-cı tədris ilindən 2022-ci ilin sonunadək olan dövr ərzində SDU-da ümumilikdə 912 fənn proqramı, onlardan 454-ü Nazirliyin qrifi ilə, 458 -i isə SDU-nun Elmi Şurasının qərarı ilə nəşr olunmuşdur.

İstehsalat və pedaqoji təcrübələrin proqramları ilə əlaqədar əvvəllər irəli sürülmüş iradlar tam aradan qaldırılmışdır. Bütün növ təcrübələrin proqram təminatı həll edilmişdir.

Sillabusların tərtibatında olan qüsurlar tam aradan qaldırılmış, sillabuslar yenidən işlənmiş və tələbata uyğun hazırlanmışdır. Sillabusda fənnin xarakteristikası, məqsədi, vəzifələri, fənni mənimsəyən tələbənin əldə etdiyi kompetensiyalar (bilik, bacarıq, vərdişlər), qabaqlayıcı və sonrakı fənlərin ardıcıllığı, fənnin tematik planı, tələbəyə təqdim olunan sərbəst işlərin nümunəvi mövzuları, fənnin metodik təminatı, yoxlama sualları və digər zəruri məsələlər öz əksini tapmışdır.

Öncəki akkreditasiya qiymətləndirməsində kitabxana fondunun artırılması ilə əlaqədar tövsiyəsi olmuşdur. Ötən dövr ərzində universitetin Elmi kitabxanasının fondu xeyli zənginləşdirilmiş, SDU-nun mətbəəsində nəşr olunan bütün kitablardan, jurnallardan, beynəlxalq və respublika səviyyəli elmi konfrans materiallarından zəruri nüsxələr Elmi kitabxanaya təqdim olunur. Kitabxana fondunda ümumilikdə 159250 kitab mövcuddur, onlardan Azərbaycan dilində olan ədəbiyyat 80000 nüsxə, rus dilində - 79250 nüsxə. İngilis dilində dərslik və dərs vəsaiti 1760 nüsxədir. Elektron kitabxananın bazasında 300 dərslik və dərs vəsaiti sistemə yerləşdirilmişdir. Ümumilkdə Elmi kitabxanaya son 5 ildə 10965 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunlardan 6238 nüsxə dəsrlik və dərs vəsaitidir.

SDU-da tələbələrin fəallığı kifayət qədər yüksəkdir, tələbələrin tədris prosesindəki fəaliyyətləri daim diqqət mərkəzindədir, fənn müəllimləri tərəfindən tələbələrin fəallığı daim artırılır və qiymətləndirmə prosesində nəzərə alınır. Eyni zamanda tələbələr elmi-tədqiqat işlərinə cəlb edilir, tələbələrin bir çoxu intellektual yarışlarda, idman yarışlarında, bədii özfəaliyyət dərnəyində, ictimai-kütləvi tədbirlərdə, bədii yaradıcılıq tədbirlərində fəal iştirak

edir. Bu sahədə xüsusi fərqlənən tələbələr universitet rəhbərliyi tərəfindən fəxri fərmanla təltif olunur və mükafatlandırılır.

SDU-da tələbələr geniş miqyasda elmi-tədqiqat işlərinə cəlb olunurlar, hazırda Tələbə Elmi Cəmiyyətinin (TEC) 400 üzvü vardır. Onlar elmi-tədqiqat işlərində fəal iştirak edirlər. TEC-in elmi konfransları əvvəlcə fakültələrdə, sonra isə ümumi universitet üzrə keçirilir. Ən yaxşı məruzələrin müəllifləri universitet rəhbərliyi tərəfindən mükafatlandırılır. TEC-in materialları nəfis formada nəşr olunmuş və Elm və Təhsil Nazirliyinə Ümumrespublika üzrə nümunəvi konfrans materialı kimi təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının Tədbirlər planı"na əsasən Təhsil Nazirinin 27 iyun 2014-cü il 752 nömrəli əmrinə uyğun olaraq Sumqayıt Dövlət Universiteti (SDU) Tələbə Elmi Cəmiyyətinin 05 dekabr 2014-cü ildə 400 üzvünün iştirakı ilə təsis konfransı keçirildi. SDU TEC-in nizamnaməsini, TEC-in 19 nəfərdən ibarət şura üzvlərini, şura sədrini, katibini seçərək təsdiq etdi. Nizamnamədə göstərildiyi kimi, fakültələr üzrə TEC-in elmi rəhbəri, hər il şura üzvləri və şura sədrləri seçilir.

İndiyədək TEC-in yeddi elmi konfransı (2015, 2016, 2017, 2018, 2019, 2021, 2022-ci illərdə) keçirilmişdir. Bu konfranslarda Azərbaycanın ali təhsil müəssisələri ilə yanaşı, xarici ölkə universitetlərinin (M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Pskov Dövlət Universiteti (Rusiya), Zaporojye Dövlət Mühəndislik Akademiyası (Ukrayna), Ufa Dövlət Neft Texniki Universiteti (Başqırdıstan) və digər ölkələrin ali məktəb tələbələri də məqalə və tezislərlə iştirak etmiş, fəal tələbələr müxtəlif dərəcəli diplomlara layiq görülmüşlər.

2015-ci ildə Rusiya Federasiyasının Voronej şəhərində Voronej Dövlət Meşə Texniki Universitetinin keçirdiyi "Texniki və riyaziyyat" elmləri üzrə Beynəlxalq Gənclər Forumunda SDU-dan 29 nəfər tələbənin elmi məqaləsi çap olunmuşdur. Professor C.F.Məmmədovun rəhbərliyi ilə 3 nəfər tələbə həmin konfransda uğurla iştirak edərək mükafatlandırılmışlar.

2016-cı ildə Respublikanın digər ali məktəblərində və xarici ölkələrdə keçirilmiş konfranslarda TEC üzvlərinin 75, 2017-ci ildə 37, 2018-ci ildə 84, 2019-cu ildə 109 elmi məruzəsi çap edilmişdir.

2016-cı ildə isə Rusiya Elmlər Akademiyasının vitse-prezidenti, Sankt-Peterburq Akademik Universitetinin rektoru, Nobel mükafatı laureatı, akademik Jores İvanoviç Alfyorovun rəhbərliyi ilə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən "A 3 rd International School and Conference on Optoelectronics, Photonics, Engineering and Nanostructures – Saint Petersburg OPEN 2016" adlı beynəlxalq konfransda SDU-nun 3 nəfər tələbəsi müvəffəqiyyətlə iştirak etmiş, diplomlarla təltif olunmuşlar. TEC-in 14 nəfər üzvünün respublikada keçirilən beynəlxalq konfranslarda çıxışları maraqla qarşılanmışdır.

2017-ci il 02-09 aprel tarixlərində Rusiyanın Pskov Dövlət Universitetində keçirilən "Gənclik – Elm 2017" gənclərin beynəlxalq elmi-təcrübi konfransında SDU-nun 3 nəfər tələbəsindən ibarət heyət iştirak etmiş, sertifikat və hədiyyələrlə mükafatlandırılmışlar.

2017-ci ilin 17-19 oktyabr tarixlərində 3 nəfər tələbədən ibarət heyət Ufa Dövlət Neft Texniki Universitetində keçirilən "Təhsil, elm və mədəniyyət sferasında Rusiya-Azərbaycan əlaqələrinin vəziyyəti və perspektivləri" mövzusunda festivalda uğurla iştirak etmişlər.

30 sentyabr 2018-ci ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşkil etdiyi "I2B - İdeyadan Biznesə" regionlararası müsabiqəsində 3 nəfər tələbədən ibarət komanda heyəti "Smart reaktor" layihəsi ilə I yerə, 5 nəfərlik komanda "Zoolab" layihəsi ilə II yerə layiq görülmüşdür. 23 oktyabr 2018-ci ildə həmin müsabiqənin final mərhələsində "Smart reaktor" layihəsi ilə 3 nəfərlik komanda II yerə, 6 mart 2019-cu ildə bu müsabiqədə TEC üzvlərindən ibarət komandalar I, II və III yerlərə layiq görülmüşlər.

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin "Azərkosmos" ilə birgə keçirdiyi "CanSat Azərbaycan 2019" milli tələbə model peyk müsabiqəsində 5 nəfər tələbə II yerə layiq görülmüşlər.

TEC-in üzvləri respublika və xarici ölkə universitetləri ilə sıx əlaqələr saxlayır, keçirilən olimpiadalarda, festival və bilik yarışlarında müxtəlif nominasiyalar üzrə qabaqcıl yerlər tutur, beynəlxalq və respublika yarışlarında fəal iştirak edirlər. Bu baxımdan UDNTU-da “Texniki sistemlərdə avtomatlaşdırılmış idarəetmənin əsasları” mövzusunda keçirilən IV Beynəlxalq Olimpiada (2021), “Gənc tədqiqatçıların IV Respublika elmi-praktik konfransında (Azərbaycan Universiteti-2021), Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi konfranslarında və digər ümumrespublika tədbirlərində doğma universiteti layiqincə təmsil edirlər.

2021-ci ildə Rusiyanın Tolyatti Dövlət Universitetində təşkil olunan gənc alimlərin VII “Tətbiqi riyaziyyat və informatika: təbiət və texniki elmlər sahəsində müasir tədqiqatlar” adlı elmi praktiki konfransda SDU üzrə TEC-in bir nəfər üzvünün məruzəsi dərc edilmişdir.

25-31 İyul 2021-ci il tarixlərində Azərbaycan Gənclər, Naxçıvan Gənclər Fondu və Türkiyə Gənclik Vakfının təşkilatçılığı ilə Naxçıvan MR-da həyata keçirilən Zəfər düşərgəsində, eləcə də “Yayfest-2021” festivalının “Tələbəlik”, “Sahibkarlıq və İnnovasiyalar” düşərgələrində tələbələrimizin fəal iştirakı və layihələrlə çıxış etmələri rəğbətlə qarşılanmışdır.

SDU-nun 2014-cü ildən üzvü olduğu beynəlxalq “ENACTUS” proqramına dünya üzrə 50-yə yaxın ölkə, 1600-dan çox ali təhsil müəssisəsi və 67000-dən çox tələbə qoşulmuşdur.

30-31 may 2015-ci il tarixlərdə Bakı şəhərində “ENACTUS” proqramı üzrə keçirilən X Milli Yarışda SDU üzrə TEC-in komandası “Panda school”- məktəbəqədər hazırlıq mərkəzi” layihəsi ilə üçüncü yerə, 26-27 may 2016-cı ildə keçirilən XI Milli Yarışda isə “Ölkənin ərzaq təhlükəsizliyinin həlli istiqamətində təbii yem-qoza” layihəsi ilə “Ən yaxşı sahibkarlıq layihəsi” nominasiyasında diploma və ikinci yerə layiq görülmüşdür. 2018-ci il aprelin 19-da Azərbaycan Diplomatik Akademiyasında “Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı çərçivəsində ali təhsil müəssisələri arasında “Tələbələr Azad Sahibkarlıq fəaliyyətində” (Enactus) proqramı üzrə Respublika müsabiqəsinə SDU-nun 10 nəfər tələbədən ibarət ENACTUS komandası 12 universitet arasında final mərhələsinə yüksələrək, “Healthy sheep and happy people” adlı layihə ilə III yerə, 25-26 avqust tarixlərində keçirilən “2021 Enactus Azərbaycan Milli yarışı” çərçivəsində komanda respublika üzrə 17 ali təhsil müəssisəsi arasında II yerə layiq görülmüş və sertifikatlarla təltif olunmuşdur.

SDU-da fəaliyyət göstərən bütün kafedralarda elmi-tədqiqat işlərinin 5-illik perspektiv planı və hər il üzrə illik planı mövcuddur. Hər il universitetdə aparılan elmi-tədqiqat işlərinin hesabatı Elmi Şuranın iclasında dinlənilir və Hesabat Elm və Təhsil Nazirliyinə və Elmlər akademiyasına təqdim olunur.

SDU-da aparılan elmi-tədqiqat işlərinin nəticələri istehsal müəssisələrinə təqdim olunur. SDU-da 2018-ci ildə Qrant layihəsi üzrə elmi-tədqiqat işinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasın Prezidenti yanında Elmin İnkişafı Fondunun “Elm-Təhsil İnteqrasiyası” məqsədli Qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1 (26)) qalibi olmuş layihənin yerinə yetirilməsi haqqında Elmin İnkişafı Fondu ilə layihə rəhbəri arasında müqavilə bağlanmışdır **(Müqavilə №EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/14/5-M-20)**. Müqavilənin yerinə yetirilməsinin başlanma tarixi 01 fevral 2019-cu il, bitmə tarixi isə 01 fevral 2020-ci il, yəni 12 ay təşkil etmişdir. Qrant layihəsi müqavilə üzrə 60000 AZN məbləğində qiymətləndirilmişdir. Layihənin rəhbəri Proseslərin avtomatlaşdırılması kafedrasının müdiri prof.C.F.Məmmədov olmuşdur. Onun rəhbərliyi ilə tədqiqat işi yerinə yetirilmiş və Elmin İnkişafı Fonduna təqdim edilmişdir.

2017-ci ildən başlayaraq SDU-ya elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul aparılır. 2015-2022-ci illərdə SDU-ya fəlsəfə doktorluğu üzrə 117 nəfər (76 doktorant, 42 dissertant). Elmlər doktorluğu proqramı üzrə 34 nəfər qəbul olunmuşdur (19-doktorant, 15 dissertant).

Hazırda SDU-da 6 ixtisas üzrə 3 dissertasiya şurası fəaliyyət göstərir. Kimya elm sahəsinin Dissertasiya Şurasında 2306.01-"Üzvi kimya", 2314.01-"Neft kimyası" ixtisasları üzrə; Filologiya elm sahəsinin 5706.01-"Azərbaycan dili", 5716.01-"Azərbaycan ədəbiyyatı" ixtisasları üzrə və Texnika elm sahəsinin 3337.01- "İnformasiya ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)", 3338.01-"Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə)" ixtisasları üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi həyata keçirilir.

SDU rəhbərliyinin apardığı məqsədyönlü işlər sayəsində impakt-faktorlu jurnallarda dərc olunan məqalələrin sayı xeyli artmışdır. Beynəlxalq indeksləmə və xülasələndirmə bazalarına (SCOPUS, Web of Science, Springer və s.) daxil olan jurnallarda dərc olunan məqalələrə görə müəlliflər mükafatlandırılır.

2014-cü ildən başlayaraq, SDU-da Beynəlxalq və Respublika səviyyəli konfranslar yüksək səviyyədə təşkil olunur və keçirilir. Hər il 10 və daha çox Beynəlxalq və Respublika səviyyəli elmi konfranslar keçirilir. Bir qayda olaraq, konfrans materialları konfrans gününə qədər nəfis formada nəşr olunur və konfrans iştirakçılarına təqdim edilir. SDU-da keçirilən beynəlxalq konfranslarda dünyanın bir çox universitetlərindən nümayəndələr iştirak edirlər. Konfrans materialları Rusiya Elmi İstinad İndeksi (РИНЦ) bazasına daxil edilir. SDU-nun Elmi xəbərlər jurnalının texniki və təbiət bölməsi və sosial və humanitar elmlər bölməsi РИНЦ-ə daxildir. Bu jurnallarda dərc olunan hər bir məqaləyə DOİ- nömrəsi verilir. Hazırda nəşr olunan dərslik və dərs vəsaitlərinin miqdarı kifayət qədər yüksəkdir, belə ki, 2017-ci ildən SDU-da 15 dərslik və 87 dərs vəsaiti nəşr olunmuşdur. Doktoranturanı bitirmiş və dissertasiya işini müdafiə etmiş və dissertasiya işini müdafiəyə təqdim etmiş doktorantların sayı kifayət qədər çoxdur. 2015-2022-ci illər ərzində 77 doktorant dissertasiya işini müdafiə etmişdir, 14 nəfər dissertasiya işini müdafiə etmək üçün müvafiq Dissertasiya Şurasına təqdim etmişdir.

Elmi-tədqiqat işləri perspektiv planla, yəni 5 illik dövr üçün hazırlanır və bu 5 illik planın hər ili üçün aparılan elmi-tədqiqat işinin istiqamətinə uyğun 1 illik plan tərtib edilir.

SDU-nun Nizamnaməsinə 2016-cı ildə dəyişiklik edilmişdir. Dəyişiklik Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeyri-Kommersiya Qurumlarının və Təhsil Müssəsisələrinin Dövlət Reyestrindən Çıxarışda 10.02.2016-cı il tarixində qeydiyyata alınmışdır. Dəyişikliyin qeydiyyata alınması Azərbaycan Respublikası Prezidentinin 06.03.2014-cü il tarixli Cərəncamı və digər sənədlər əsasında həyata keçirilmişdir. Hazırda Nizamnamə qüvvədə olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2011-ci il tarixli "Ali Təhsil Müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin müddəalarını özündə əks etdirir.

SDU-da fəaliyyət göstərən 7 fakültə və 29 kafedranın hər birində onların fəaliyyətini hüquqi cəhətdən tənzimləyən əsasnamələri mövcuddur. Əvvəllər mövcud olan 44 kafedranın yenidən formalaşdırılması üçün optimallaşdırma aparılmış və ixtisasca yaxın kafedralar birləşdirilərək 44 kafedradan 29 kafedra formalaşdırılmışdır. Bu kafedraların hər birində əsasnaməyə uyğun olaraq elmi dərəcəsi və elmi adı olan mütəxəssislər mövcuddur.

SDU Rektorunun 07 iyul 2015-ci il tarixli K-115/3 nömrəli əmri ilə universitetdə fəaliyyət göstərən "Bədən tərbiyəsi və idman" kafedrası ləğv edilmiş və onun bazasında, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin ixtisasları üzrə Təhsil proqramına uyğun olaraq İdman klubu yaradılmışdır.

Əvvəllər kadr çatışmazlığı ilə əlaqədar bir müəllimə normadan artıq fənlər üzrə dərs yükü ayrılması zərurəti yaranırdı. Sonralar bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilib və müəllimlərə ayrılan dərs yüklərində fənlərin sayı normaya uyğunlaşdırılmışdır.

Əvvəllər professor-müəllim heyətinə dərs yükünün bölünməsində bəzi müəllimlərin dərs yükü normadan artıq olmuşdur. Aparılan müvafiq tədbirlər əsasında dərs yükləri "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi

haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 noyabr 2010-cu il tarixli 215 nömrəli qərarının tələblərinə uyğun olaraq bölünmüşdür.

SDU-da istifadə edilən əmək müqavilələri Əmək Məcəlləsinə Əlavə edilmiş nümunəvi formaya uyğun hazırlanmışdır.

Əmək Məcəlləsinin 10-1.6. maddəsinə uyğun olaraq yaşı 65-dən yuxarı olan əməkdaşlardan onlarla bağlanmış müqavilələrin müddətinin növbəti il üçün uzadılması barədə onların hər birindən razılıq ərizələri kadrlar şöbəsi tərəfindən alınır, ərizəyə rektorun dərkənarı qoyulduqdan sonra əmrləşdirilir.

Universitetin professor-müəllim heyətinin hər bir üzvü ixtisasartırma kurslarında iştirak edir. Yalnız əsaslandırılmış müstəsna hallarda (kafedra müdirləri və dekan müavinləri) stajkeçmə kurslarında iştirakı həyata keçirilir.

## II. Təhsil müəssisəsinin özünütəhlili
## Özünütəhlil qiymətləndirməsinin icmalı

Sumqayıt Dövlət Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra-Agentlik) F-181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili Elmi Şuranın 30.11.2022-ci il tarixli iclasının (protokol №03) qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

### 1. STRATEJİ İNKİŞAF

### 1.1. Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

**ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti -** 2015-ci ildə Sumqayıt Dövlət Universitetinin İnkişaf Strategiyası qəbul olunmuş, 10 illik dövrü əhatə edən bu sənəddə göstərilmiş əsas hədəflər və bu hədəflərə uyğun tədbirlərin müəyyən hissəsi yerinə yetirilmişdir. Azərbaycan Ali təhsil sisteminin Avropa ali təhsil məkanına daha da uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinə dəstək göstərilməsi layihəsi olan TWİNNİNG layihəsi çərçivəsində müəyyən addımlar atılmışdır. Pilot universitet olaraq seçilmiş 7 universitetdən biri də Sumqayıt Dövlət Universiteti olmuşdur və universitet üzrə 5 təhsil proqramının beynəlxalq akkreditasiyası müvəffəqiyyətlə həyata keçirilmişdir. Twinning layihəsinin əsas hədəflərindən biri də Azərbaycan ali təhsilində Keyfiyyət təminatı üzrə Standartlar və Təlimatlar, eləcə də digər sənədlər üzrə tövsiyələr hazırlamaqla, ali təhsil müəssisəsinin Avropa ali təhsil məkanına inteqrasiya olunmasıdır. Hazırda başlıca vəzifə bütün fəaliyyətimizi nəzərdə tutulmuş tədbirlərin məqsədyönlü şəkildə həyata keçirilməsinə yönəltməkdən ibarətdir. Qeyd olunan strateji məqsədləri nəzərə alaraq Sumqayıt Dövlət Universiteti özünün yaxın 5 il üçün (2020 - 2025) strateji inkişaf planını hazırlamışdır. Təqdim olunan strateji inkişaf planında Sumqayıt Dövlət Universitetinin mövcud vəziyyətinin strateji təhlili, missiya, strateji istiqamətlər, universitetin inkişafının başlıca məqsədləri, habelə strateji inkişafın göstəriciləri və strategiyanın həyata keçirilməsi mexanizminin ümumi təsviri verilir. Strategiyanı hazırlayarkən aşağıdakı sənədlərə istinad olunmuşdur: Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı, Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası, 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Sumqayıt Dövlət Universitetinin İnkişaf Strategiyası (2015-2025), BMT-nin 2030-cu ilə qədərki dövr üçün "Davamlı İnkişaf Məqsədləri haqqında hesabat"ı. SİP SDU-nun Elmi Şurasının 24.01.2020-ci il tarixli (protokol №06) qərarı ilə təsdiq edilmişdir.
(https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf)

Universitetin Strateji İnkişaf Planı - 2020/2025 əsasında hər il fəaliyyət planı hazırlanır ki, burada illik strateji hədəflər və onların prioritet istiqamətləri öz əksini tapır.

**ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu -** Universitetin missiyası – məsuliyyətli, zəngin mənəvi dəyərlərə, humanizm prinsiplərinə, fundamental, universal biliklərə, sərbəst fəaliyyət göstərmək qabiliyyətinə, bacarıq və təcrübəyə, şəxsi məsuliyyətə, peşəkar özünürefleksiya və özünü təsdiq etmək və ömürboyu təhsil şəraitində daim təhsil alma bacarığına malik olan mütəxəssis hazırlanmasını təmin edən sürətli mənimsəmə və elm-tədris innovasiyalarının tətbiqi əsasında yüksək keyfiyyətli təhsil və elmi xidmətlər təqdim etməkdir ki, bu istiqamətdə də xeyli işlər görülməkdədir.

**SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu -** Universitet öz missiyasını layiqli şəkildə yerinə yetirmək üçün aşağıdakı dəyərlərə sadiqdir.

Yeniliklərə açıq olmaq;

Müəllim və tələbələrə dəstək;

Akademik azadlıq-Universitet əməkdaşları tədqiqat, tədris və sosial xidmət fəaliyyətində elmi prinsiplərə sadiqdirlər;

Akademik etika-Universitet bütün fəaliyyətində akademik etikanı qoruyur və müəlliflik hüquqlarına hörmətlə yanaşır;

Layiqlilik-Universitet akademik və inzibati vəzifələrin tutulmasında hər kəs üçün bərabər imkanlar yaradır və daha layiq olana üstünlük verir;

Şəffaflıq-Universitet fəaliyyətini bütün maraqlı tərəflərinin müşahidəsinə açıq şəkildə həyata keçirir;

Mükəmməllik-Universitet üzvləri bütün fəaliyyətində daim mükəmməl olanı əldə etməyə çalışır;

Keyfiyyətlilik-Universitet bütün fəaliyyətində yüksək keyfiyyət prinsipinə sadiq qalır;

İştirakçılıq-Universitet səmərəli idarəetmə naminə üzvlərinin idarəetmənin bütün mərhələlərində aktiv iştirakını təmin edir;

Fərqliliklərə hörmət-Universitet bütün maraqlı tərəflərinin fərqli fikirlərinə hörmətlə yanaşır;

Cəmiyyət mənafeyini düşünmək-Universitet bütün fəaliyyətini ilk növbədə cəmiyyət mənafeyini düşünərək həyata keçirir.

Universitetin gələcək inkişafı yeddi əsas hədəf üzərində qurulmuşdur ki, onları müəyyənləşdirən zaman ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu nəzərə alınmışdır.
(https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf)

**SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu -** SİP-də nəzərdə tutulmuş prioritet istiqamətlər Sumqayıt Dövlət Universitetinin qarşısına qoyduğu məqsəd və hədəflərə tamamilə uyğundur. Fəaliyyət planlarında hədəflər və prioritet istiqamətlər, onların icrası üçün müəyyən olunmuş strateji fəaliyyətlər aydın şəkildə öz əksini tapmışdır.

**SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi -** Universitetin inkişaf modeli hazırlanarkən bir neçə əsas strateji hədəf qarşıya qoyulmuşdur ki, onlar aşağıdakılardır:

1. Yüksək keyfiyyətli təhsil xidmətləri təklif edən ali təhsil ocağına çevrilmək;
2. Elmi tədqiqat və innovasiya universitetinə çevrilmək;
3. Sahibkar universitetə çevrilmək;
4. Sosial layihələr icra edən universitetlərdən birinə çevrilmək;
5. Beynəlmiləl universitetə çevrilmək;
6. Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq;
7. Yüksək reytinqli universitetə çevrilmək;

Bu strateji istiqamətlərə çatmaq üçün qarşıya qoyulan hədəflərin müəyyənləşməsində universitetin real vəziyyəti, cəmiyyətin, iqtisadiyyatın, əmək bazarının tələbatına uyğun inkişaf meylləri, sosial sifarişləri nəzərə alınır.

Yuxarıda qeyd olunan strateji hədəflər üzrə fəaliyyət planlarında müəyyən məqsədlər qarşıya qoyulmuşdur. Onlar aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Mövcud İKT sisteminin daha da müasirləşdirilməsi və istifadəsinin səmərəliliyinin yüksəldilməsi;
2. SDU-nun təhsil, elm və innovasiyalar universitetinə çevrilməsi istiqamətində tədbirlərin genişləndirilməsi və bu sahədə xarici universitetlərlə əlaqələrin genişləndirilməsi;
3. SDU-nun "Elmi xəbərlər" jurnalının COPE (NEK – Nəşr Etikası Komitəsinə) üzv olması üçün tədbirlərin həyata keçirilməsi;
4. Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi;
5. Təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi istiqamətində işlərin davam etdirilməsi;
6. Akademik heyət və tələbələr arasında müxtəlif mövzularda sorğuların davam etdirilməsi. Professor-müəllim və tədris-köməkçi heyətin fəaliyyətini qiymətləndirərək təhlillərin aparılması;
7. Ən yaxşı dərslik, dərs vəsaiti və monoqrafiya müsabiqəsinin keçirilməsi;
8. SDU-da beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi;
9. Əlavə Təhsil Mərkəzinin (ƏTM) fəaliyyətinin gücləndirilməsi;
10. Karyera Mərkəzinin fəaliyyətinin genişləndirilməsi və təkmilləşdirilməsi;
11. Elmi Tədqiqatların Tətbiqi İnnovasiya Mərkəzinin (ETTİM) fəaliyyətinin genişləndirilməsi;
12. Universitetin "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi ilə əməkdaşlıq istiqamətində işlərin davam etdirilməsi;
13. Tədris, elm və kargüzarlıq sənədlərinin nümunələrinin normativ tələblərə uyğun hazırlanması, sistemləşdirilməsi və toplu formasında nəşr edilməsi;
14. SDU-nun loqosunun yenidən işlənməsi;
15. SDU-da tələbə evinin ən müasir standartlara uyğun formada əsaslı təmirinin başa çatdırılması və istifadəyə verilməsi;

**SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması –** Hər bir strateji hədəfin əsasını təşkil edən prioritet istiqamətlər və onların həyata keçirilməsi üçün görüləcək işlər SİP-də aydın şəkildə göstərilmişdir. Bundan əlavə, qarşıya qoyulan strateji məsələləri (vəzifələri) həll etmək üçün tədbirlər planı da hazırlanmışdır ki, bu plan müxtəlif istiqamətləri özündə ehtiva edir və SİP – də öz əksini tapmışdır.
https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf

**SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi -** SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri qarşıya qoyulan məqsədə və yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrə görə müəyyənləşdirilir:

a) təhsil fəaliyyəti sahəsində: akademik mobillik proqramında iştirak edən müəllimlərin sayını artırmaq; 2025-ci ilə qədər bütün təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçməsini təmin etmək; Beynəlxalq akkreditasiya qurumları ilə əlaqələri gücləndirmək; İxtisasların siyahısını tədris standartları, tədris planları və tədris proqramlarını dünya təcrübəsi və əmək bazarının tələblərinə uyğunlaşdırmaq; Distant təhsilin təşkil edilməsi istiqamətində fəaliyyəti genişləndirmək və s.

b) elmi-tədqiqat və innovasiya fəaliyyəti sahəsində: 2025-ci ilə qədər magistratura və doktorantura təhsilini qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırmaq; 2025-ci ilə qədər milli və beynəlxalq səviyyədə yüksək reytinq qazanmış ən azı bir "beyin mərkəzi" yaratmaq; 2025-ci ilə qədər Web of Science, Scopus və Springer elmi məlumat bazalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin elmi-nəzəri səviyyəsini yüksəltmək; 2025-ci ilə qədər Web of Science və Scopus elmi məlumat bazalarına daxil olan ən azı 1 elmi jurnalın təsisçisi olmaq və s.

c) beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi sahəsində: Beynəlxalq mübadilə proqramlarında iştirak edəcək tələbə, müəllim və inzibati işçilərin, beynəlxalq ikili diplom proqramlarının, beynəlxalq layihələrin və mübadilə proqramlarının, universitetdə əcnəbi tələbələrin, ingilis dilində təhsil proqramlarının sayını artırmaq və s.

**SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti -** 23 dekabr 2022-ci ildə SDU-nun Strateji İnkişaf Planının (SİP) həyata keçirilməsi ilə bağlı 2022-ci il üçün fəaliyyət planının icrası məqsədilə işçi qrupu yaradılmışdır və bu qrupun qarşısında duran vəzifələr müzakirə olunmuş və müvafiq qaydada protokollaşdırılmışdır. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün infrastruktur resursları haqqında qeyd etmək olar ki, universitetin bütün binaları geniş zolaqlı internetlə təmin edilmişdir. SDU-da tətbiq edilən “e-universitet” və “e-sənəd dövriyyəsi” sistemləri tədris prosesini və sənəd dövriyyəsini elektronlaşdırmağa imkan vermişdir. Universitet əməkdaşlarının “Web of Science”, “Ebsco” kimi elmi bazalara çıxış imkanı təmin edilmişdir. SDU-da müasir kitabxana sistemi fəaliyyət göstərir. ERASMUS+PETRA layihəsi çərçivəsində elektron laboratoriya yaradılmış, proqram nəticəsində Moodle sistemi qurulmuşdur. Universitetin istifadəçiləri 3 dildə informasiya ilə təmin edən www.sdu.edu.az internet saytı və “Sumqayıt Universiteti” qəzeti fəaliyyət göstərir. Universitetin saytında elm və təhsil xəbərləri, respublika və beynəlxalq elmi konfransların materialları, “Elmi xəbərlər” jurnalının bütün nömrələri yerləşdirilir. Müəllimlərin mühazirələri, fənn proqramları, kitabları tələbələr üçün əlçatandır.

**SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti**
SDU-nun inkişaf strategiyası universitetin öz vəsaiti, əldə etdiyi qrantlar və sponsorların maliyyə dəstəyi ilə həyata keçirilir. Burada vəsaitlərin əldə edilməsi mənbələri bir neçə istiqamətdə formalaşır.

Dövlət sifarişli tələbələr üçün dövlətin ödədiyi təhsil haqları;
Ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqları;
Beynəlxalq və milli layihələrdən qazanılan qrantlar (Avropa Birliyi, Elmin İnkişafı Fondu, Gənclər Fondu, Maarifçi Tələbə Kredit Fondu və s.);
Qanunla nəzərdə tutulmuş digər gəlirlər.
Təqaüdlərin verilməsində Sumqayıt şəhər Bələdiyyəsinin “Bələdiyyə” təqaüdü, ayrı-ayrı şirkətlərin (“Qartal” tikinti şirkəti və s.) tələbələrə ayırdığı təqaüd motivasiyaedici amillər kimi maliyyə resurslarına daxil edilir.

**SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti** - Universitetdə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələri mütəmadi olaraq Azərbaycanda, MDB ölkələrində və xaricdə nəşr olunan jurnallarda çap olunmuş, elmi konfranslarda və simpoziumlarda məruzə olunmuşdur. Sumqayıt Dövlət Universitetində iki bölmə: sosial və humanitar elmlər, təbiət və texniki elmlər bölmələri üzrə Elmi Xəbərlər jurnalı nəşr olunur. Elmi xəbərlər jurnalına qəbul olunan məqalələrə qoyulan şərt mövzuların mütləq aktual olmasıdır. Jurnalın redaksiya heyəti SDU – nun, respublika və xarci ölkələrin elm və ali təhsil müəssisələrinin alimlərindən ibarətdir. Rusiya Elmi İstinad İndeksi (РИНЦ) məlumat bazasına daxil olmaq üçün Elmi elektron kitabxanası ilə Sumqayıt Dövlət Universiteti arasında jurnalların yerləşdirilməsinə dair müqavilə imzalanıb. “Elmi xəbərlər” jurnalının nəşrləri eLibrary.ru məlumat bazasında mütəmadi olaraq yerləşdirilir. Bundan başqa Elsever şirkətinə məxsus olan Scopus beynəlxalq məlumat bazasına “Elmi xəbərlər” jurnalının daxil edilməsi barəsində müraciət olunub. Scopus beynəlxalq elmi məlumat bazasına daxil olmaq məqsədilə eyni zamanda COPE – Nəşr Etikası Komitəsinə (NEK) üzvlük barəsində və Beynəlxalq DOI Fondu tərəfindən prefiksi almaq məqsədi ilə Crossref rəqəmsal sənədləşdirmə agentliyinə müraciət olunmuşdur.

SDU-nun Beynəlxalq DOI Fondunun Crossref rəqəmsal sənədləşdirmə agentliyi ilə DOI № DOIİD315 saylı müqaviləyə əasən Universitetdə nəşr olunan bütün elmi əsərlərə 10.54759/ DOI prefiksi alınmışdır. Elektron elmi nəşrlərə verilən Beynəlxalq Standart

Seriya Nömrəsi – ISSN (Online) kodunun alınması üçün ISSN Beynəlxalq Mərkəzinə (Paris, Fransa) müraciət olunmuşdur. ISSN Beynəlxalq Mərkəzi tərəfindən SDU-nun "Elmi xəbərlər" jurnalının elektron versiyasına ISSN 2706-719X (Online) Beynəlxalq Standart Seriya Nömrəsi verilmişdir.Sumqayıt Dövlət Universitetində əməkdaşların "ORCİD İnc. şirkətinin Open Researcher and Contributor İD sistemində qeydiyyatdan keçməsi və fərdi İD kodlarının alınması" mövzusunda təlim keçirilmişdir.
Sumqayıt Dövlət Universitetində əqli mülkiyyətin qorunması üçün Elmi xəbərlər jurnalının bazasına daxil olan və ümumiyyətlə, tələb olunan bütün elmi işlər Strike Plagirism proqramından keçirilir və oxşarlıq əmsalı müəyyən edilir. Qeyd edilən məsələlərin hər biri bu və ya digər dərəcədə SİP-da öz əksini tapmışdır.

**Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması -** 2020–2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının işlənib hazırlanması zamanı daxili və xarici çağrışlara cavab olaraq universitetin bütün fəaliyyət istiqamətləri (təhsil proqramları, maraqlı tərəflərin - tələbələrin, valideynlərin, işə götürülənlərin, məzunların, professor-müəllim heyətinin, elmi-tədqiqat işlərinin, maliyyə - iqtisadi idarəetmənin, tədris metodiki işlərin, infrastrukturun və informasiya-texniki bazanın keyfiyyətinin yaxşılaşdırılması, kommunikasiya və sosial-iqtisadi siyasəti) üzrə innovasiya yönümlü dayanıqlı sistemin formalaşmasına xidmət göstərən mövcud vəziyyət nəzərə alınmışdır. SDU – nun Strateji İnkişaf Planı 2020-2025 – ci illər üçün hazırlanmışdır. Lakin hər il SİP – də qeyd olunan əsas hədəfləri özündə əks etdirən və müxtəlif prioritet istiqamətlərin icrasını nəzərdə tutan fəaliyyət planı hazırlanır. Bəzi hallarda müəyyən obyektiv səbəblərə görə fəaliyyət planında nəzərdə tutulan tədbirlər tam olaraq icra olunmur: məsələn, ikili diplom proqramı üzrə kadr hazırlığı, xarici ali təhsil müəssisələri üzrə müəllim və tələbə mübadiləsi və s. Bu kimi məsələlər növbəti il üçün fəaliyyət planına daxil edilir və icrası istiqamətində zəruri işlər görülür.

**SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması –** Aidiyyatı strukturlar tərəfindən mütəmadi olaraq universitetin GZİT təhlili aparılır ki, bu da SİP 2020-2025 – də öz əksini tapmışdır. Burada universitetin güclü, zəif tərəfləri, eyni zamanda, imkanlar və təhdidləri haqqında ətraflı məlumat verilmişdir. https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf
**SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti –** Universitetin Strateji İnkişaf Planının hazırlanması üçün Universitetin rektorunun 28.12.2019 – cu il R – 60/1 saylı əmrinə əsasən Komissiya yaradılmışdır. Komissiyanın üzvləri sırasına Universitetin əməkdaşları və 1 tələbə daxildir. Bundan əlavə, Sumqayıt Dövlət Universitetinin Strateji İnkişaf Planının hazırlanmasında avropalı ekspertlər professor Jean-Jacques Paul cənabları (Fransa) və Kaunas Texnologiya Universitetinin (Litva) professoru Jurgita Šiugždinienė xanım da öz dəyərli məsləhətlərini vermişlər. Avropalı ekspertlər tərəfindən Strateji plan haqqındakı rəydən: "...Sumqayıt Dövlət Universiteti əhatəli və xüsusi zövqlə tərtib olunmuş "İnkişaf Strategiyası" sənədini hazırlamışdır. Bu sənəddə Universitetin missiyası və dəyərləri, məqsədi və vəzifələri ilə yanaşı fəaliyyət planı da müəyyənləşdirilmişdir. Təhsil ocağının hər bir sahəsinin fəaliyyətini qiymətləndirən indikatorlar da burada öz əksini tapmışdır. "İnkişaf Strategiyası" gözəl foto şəkillərlə, universitetin tarixi və həyatı haqqında maraqlı məlumatlarla zəngindir. Universitetin tərəfdaşları haqqında məlumat da sənəddə öz yerini almışdır"
https://www.sdu.edu.az/az/news/1439
https://www.sdu.edu.az/az/news/1395

**SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi –** SİP-in icrası üçün fəaliyyət sahəsinə uyğun olaraq tədbirlər üzrə struktur bölmələrin iş bölgüsü müəyyən edilmişdir. Bu bölgü illər üzrə hazırlanmış fəaliyyət planlarında öz əksini tapır. Bölgüyə əsasən strateji fəaliyyətlərin icrası, icra mexanizmi və s. məsələlər Komissiya tərəfindən müzakirə edilir,müəyyən edilən çatızmazlıqlar aradan qaldırılır. Planda nəzərdə tutulan

proqram xarakterli tədbirlərin həyata keçirilməsinin qiymətləndirilməsi və ona nəzarətin təşkili universitetin Elmi Şurası tərəfindən aparılır.

### 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi

**SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövri (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti –** SİP-in icrası üçün SDU – nun struktur bölmələrinin dövri hesabatları dinlənilir, qarşıya qoyulmuş məsələlərin icra mexanizmi, nəticələri haqqında müzakirə aparılır. Struktur bölmələrin gördükləri işlər barədə hesabatlar SİM-in elektron ünvanında toplanaraq təhlil edilir yekun hesabat hazırlanaraq rektora təqdim olunur. Hesabat ilin sonunda SDU Elmi Şurasında müzakirə olunaraq təsdiq edilir və struktur bölmələrə çatdırılır.

**SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövri (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti** - SİP-in icrası üzrə SDU – nun struktur bölmələrinin yarımillik hesabatları İşçi qrupun iclaslarında, illik hesabatı isə SDU – nun Elmi Şurasında müzakirə olunur və protokollaşdırılır. Müzakirə zamanı ortaya çıxan çatışmazlıqların həlli üçün lazımi addımlar atılır.

**SİP-in icrasının dövri (illik) monitorinqinin aparılması vəziyyəti** – SİP-in icrasının dövri (illik) monitorinqi rektorun 15.02.2023 – cü il R-17/1 saylı əmrinə əsasən yaradılmış İşçi qrupu tərfindən aparılır, qarşıya çıxan çətinliklərin həlli üçün müəyyən tövsiyə və təkliflər verilir. İşçi qrup mütəmadi olaraq monitorinqin nəticələri barədə müvafiq qərarların qəbul edilməsi üçün SİM direktoruna məlumat verir.

**SİP-in icrasının dövri ( illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti –** SİP-in icrasının dövri ( illik) monitorinqinin nəticələrinə əvvəlcə İşçi qrupu tərəfindən baxılır, təşkil olunmuş iclaslarda müzakirə olunur və qarşıya qoyulan tələblərin struktur bölmələr üzrə hansı şəkildə həyata keçirilməsi yoxlanılır, SİP – in icrasının son hesabatı universitetin Elmi Şurasında müzakirə edilir, strateji fəaliyyətlərin icra vəziyyəti barədə şura üzvlərinə geniş məlumatlar verilir.
https://www.sdu.edu.az/az/news/2402

**SİP-in icrasının dövri (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti –** SİP-in icrasının dövri (illik) monitorinqi universitetin gələcək inkişafı üçün mühüm əhəmiyyətə malikdir və bu səbəbdən monitorinqin nəticələri daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan, SİP-in icrasının dövri (illik) monitorinqinin nəticələrinə görə müəyyən tədbirlər görülür, strateji fəaliyyətlərin icrası zamanı qarşıya çıxan çətinliklərin həll yolları araşdırılır. Strateji inkişaf planının illər üzrə fəaliyyət planının hesabatı hazırlanır və strukturlara göndərilir. Həmçinin, məlumatlar Mətbuat xidməti tərəfindən açıq media resurslarında, o cümlədən Universitetin rəsmi saytı və sosial media hesablarında təqdim olunur. Bununla da maraqlı tərəflər üçün əlçatanlıq təmin olunur.

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. Keyfiyyət təminatı siyasəti

"Avropa ali təhsil məkanında daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a (ESG) əsasən ali təhsil, tədqiqatlar və innovasiyalar sosial həmrəyliyin, iqtisadi yüksəlişin və beynəlxalq rəqabətədavamlılığın artırılmasında əhəmiyyətli rol oynayır. Bacarıq və qabiliyyətlərə dair tələblər artdığı üçün ali təhsil həmin tələblərə yalnız innovativ metodlardan istifadə etməklə cavab verə bilər. ESG standartlarına əsasən hər bir ali təhsil müəssisəsi öz daxili keyfiyyət təminatını formalaşdırmalıdır.

Əsası 2015-ci ildə qoyulan Keyfiyyət təminatı şöbəsi Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi adı ilə fəaliyyətə başlamışdır. Rektorun 02.10.2015-ci il tarixli R-25/1

nömrəli əmri ilə Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi Tədris Metodiki Mərkəzin daxilində yaradılmışdır. Azərbaycan dövləti təhsili daim inkişaf etdirmək, müasir və qabaqcıl metodları tətbiq etməyə təşəbbüs göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2019-cu il tarixli sərəncamı ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyininin (TKTA) yaradılmasını, Dövlət Təhsil Strategiyası ilə təhsilin keyfiyyətinə və əhatəliliyinə qoyulan yeni tələbləri, eləcə də müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışının təmin olunmasını əsas tutaraq SDU-da Əsası 2015-ci ildə qoyulan Keyfiyyət təminatı şöbəsi Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi adı ilə fəaliyyətə başlamışdır. Rektorun 02.10.2015-ci il tarixli R-25/1 nömrəli əmri ilə Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi Tədris Metodiki Mərkəzin daxilində yaradılmışdır. (https://www.sdu.edu.az/az/81)

Təhsildə Keyfiyyət təminatı şöbəsi (TKTŞ) Sumqayıt Dövlət Universitetində tədrisin və dəstək xidmətlərinin keyfiyyətinin planlaşdırılması, nəzarəti və davamlı inkişaf funksiyalarını icra edən tələbəyönümlü tədris mühitinin dəstəklənməsi, tədris-metodiki işin məzmun, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələrin işlənməsi və tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə, dövlət standartlarının tətbiqinə, eləcə də, digər proseslərə nəzarət və s. kimi funksiyaları yerinə yetirən funksional şöbədir.

TKTŞ dayanıqlı keyfiyyət təminatını təşkil etməkdən ötrü keyfiyyət təminatı siyasətini əks etdirən sənəd hazırlamış və bu sənəd SDU-nun 21 dekabr 2022-ci il tarixli Elmi Şurasının (protokol № 04) qərarı ilə təsdiq edilmişdir(https://www.sdu.edu.az/az/81). KTS SDU daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərində idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm və davamlı mövcudluğunu ehtiva edir. Müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq və koordinasiyanı dəstəkləyir və gücləndirir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir.

SDU-nun keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilib.

SDU-nun əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlıdır və bu sənəd universitetin bütün strukturlarına elektron və kağız formatında təqdim edilmişdir. SDU-nun əsas fəaliyyət sahəsinə aid olan təhsil, tədqiqat, xidmətlər və bu xidmətlərin icrası haqqında ən müasir, qərəzsiz, obyektiv kəmiyyət və keyfiyyət məlumatları Sumqayıt Universiteti qəzetində dərc edilir. Bununla yanaşı, universitetin rəsmi saytında bu məlumatlar mütəmadi olaraq yerləşdirilir. Eyni zamanda Təhsil haqqında qanunun müvafiq müddəalarına əsasən maraqlı tərəflərin aşağıda qeyd olunan sənədlərlə tanış olması üçün şərait yaradılır:

1. SDU-nun Nizamnaməsi;
2. Təhsil müəssisəsinin strategiyası;
3. Keyfiyyət Təminatı Siyasəti.
4. TKTŞ-nın Əsasnaməsi
5. Keyfiyyət təminatı üzrə Komissiyanın Əsasnaməsi

**KTS aşağıdakı məsələləri özündə ehtiva edir:**

- Tələbələrin inkişafı və müvəffəqiyyəti;
- Məzunların məşğulluğu;
- Proqramların qiymətləndirilməsi;
- Tədqiqatın keyfiyyəti;

- Nəşrlərin keyfiyyəti;
- Xidmətlərin keyfiyyəti;
- Maliyyə menecmenti;
- Resurslardan səmərəli istifadə;
- Tələbə məmnuniyyəti;
- Təlim ehtiyaclarının müəyyən olunması
- İşçi məmnuniyyəti;

### 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

ATM-in daxili keyfiyyət təminatı mexanizmi mövcuddur. Keyfiyyət təminatı üzrə Komissiya (bundan sonra Komissiya) SDU-nun Elmi Şurasının 18.01.2023-cü il tarixli iclasının (prot. № 05) qərarı ilə təsdiq edilmişdir. Komissiyanın əsasnaməsi, fəaliyyət planı və iş bölgüsü SDU-nun Elmi Şurasının 09.02.2023-cü il tarixli iclasının (prot. № 06) qərarı ilə təsdiq edilmişdir.

ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissının 15 üzvü var və buraya təhsilalanlar, işəgötürənlər və digər maraqlı tərəflər cəlb olunmuşdur. Belə ki, Tədris işlər üzrə prorektor N.Talıbov, universitetdə mövcud olan 7 fakültənin hər birindən səriştəli müəllimlər, 2 fəal tələbə, universitet ilə daimi əməkdaşlıq edən “Azərişıq ASC” Tədris və İnnovasiya Mərkəzinin direktoru Məmmədzadə Araz Komissiyanın tərkibində yer almışdır.

Komissiyanın fəaliyyət planı Strateji Inkişaf Planındakı hədəflərə tamamilə uyğundur. Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Yüksək keyfiyyətli təhsil xidmətləri təklif edən ali təhsil ocağına çevrilmək (Komissiya Fəaliyyət Planının 1, 2, 3, 4, 5, 11-ci bəndləri);
2. Elmi tədqiqat və innovasiya universitetinə çevrilmək (Komissiya Fəaliyyət Planının 8, 9,10, 11-ci bəndləri);
3. Sahibkar universitetə çevrilmək (Komissiya Fəaliyyət Planının 13 və 14-cü bəndləri);
4. Sosial layihələr icra edən universitetlərdən birinə çevrilmək (Komissiya Fəaliyyət Planının 11 və 12-ci bəndləri);
5. Beynəlmiləl Universitetə çevrilmək (Komissiya Fəaliyyət Planının 7 və 10-cu bəndləri);
6. Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq (Komissiya Fəaliyyət Planının 4, 8, 9,10, 13-cü bəndləri);

Yüksək reytinqli universitetə çevrilmək (Fəaliyyət Planında nəzərdə tutulan bütün işlər bu hədəfdən doğan strateji fəaliyyətləri özündə əks etdirir). https://www.sdu.edu.az/az/81 , https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf

SDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş Fəaliyyət Planı PDCA (planlaşdırma, icra, nəzarət, düzəliş et) mexanizmi işləkdir. Komissiya üzvləri arasında mütəmadi iclaslar təşkil edilir. Qarşıya qoyulmuş hədəflərin icrasına nəzarət edilir. Aşkarlanan çatışmazlıqlar Komissiya üzvlərinin görüşlərində müzakirəyə çıxarılır, aradan qaldırılması üçün tövsiyələr verilir və çatışmazlıqlar müvafiq qaydada aradan qaldırılır.

SDU-nun daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılmışdır. Belə ki, fəaliyyət planında nəzərdə tutulmuş işlər üzrə müəyyən olunmuş qaydada iş bölgüsü aparılmış və komissiyanın fəaliyyət planında öz əksini tapmışdır.

SDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planında əks olunmuş məsələlər təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət və təhsilalanları əhatə edir. Belə ki, görüləcək işlər siyahısı çoxşaxəli və əhatəlidir. Burada maraqlı tərəflər nəzərə alınmışdır.

Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması ilə bağlı. SDU-nun daxili keyfiyyət təminatı sahəsində mütəmadi olaraq keyfiyyət müşahidə olunur, keyfiyyət mədəniyyətinin inkişafına mane olan məsələlər araşdırılır və aradan qaldırılır. Keyfiyyət təminatı sahəsində qoyulmuş tələblərə fakültələr və strukturlar tərəfindən geridönüşləri məqbul hesab etmək olar.

SDU-nun fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti ilə sorğuların keçirilməsi. TKTŞ təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə hər tədris ilində mütəmadi olaraq təhsilalanlar, professor/müəllim heyəti, universitet əməkdaşları arasında məmnuniyyət sorğuları təşkil edir. 2021/2022-ci tədris ilində 2561 təhsilalanlar (https://www.sdu.edu.az/az/news/2057), 367 nəfər akademik heyət (https://www.sdu.edu.az/az/news/1998), 2022/2023-cü tədris ilində isə 3355 təhsilalanlar (https://www.sdu.edu.az/az/news/2380), 248 nəfər akademik heyət arasında sorğular keçirilmişdir. Sorğunun nəticələri TKTŞ tərəfindən təhlil edilir və SDU-nun Elmi Şurasında müzakirəyə çıxarılır. Bundan əlavə, TKTŞ SDU-nun fakültələrinin, Karyera Mərkəzinin, Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluğun da sorğular keçirməsi üçün təşəbbüs göstərib (https://www.sdu.edu.az/az/news/1998, https://www.sdu.edu.az/az/news/2399).

SDU-nun daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan qaydalar toplusu mövcuddur. Qaydalar toplusu Elmi Şuranın 3 mart 2023-cü il tarixli iclasının (prot.№07) qərarı ilə təsdiq olunmuş, fakültə və strukturlara göndərilmişdir.

SDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi özündə bir neçə istiqaməti əhatə edir. Məsələn: Tələbələrin, məzunların inkişafı və müvəffəqiyyəti, proqramların qiymətləndirilməsi; Resurslardan səmərəli istifadə, tələbə məmnuniyyəti, təlim ehtiyaclarının müəyyən olunması, akademik heyətin məmnuniyyəti.

SDU-nun KTŞ-nin Əsasnaməsinə uyğun olaraq hazırlanmış İllik Fəaliyyət Planı üzrə Keyfiyyət təminatı üzrə Komissiyanın İşçi qrupu monitorinqlər aparır və monitorinqin nəticəsini KTŞ-ya təqdim edir. Təqdim olunan nəticələr əsasında İllik Özünütəhlil hesabatı hazırlanır.

Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat və fəaliyyət planı hazırdır. Bu hesabatda əvvəlki akkreditasiyada tutulan iradlar və tövsiyyələr nəzərə alınmış, icrası haqqında aydınlaşdırma verilmişdir.

Mütəmadı olaraq akademik heyət, tələbə və məzunlar arasında müxtəlif məzmunlu sorğular təşkil edilir. Bu sorğular şifahi və elektron şəkildə aparılır. Sorğuda qoyulan suallar akademik heyət və tələbə/məzunların məmnunluq səviyyəsini tələb və təkliflərini öyrənməyə istiqamətləndirilmişdir. TKTŞ tərəfindən keçirilən sorğularda2021/2022-ci tədris ilində 2561 təhsilalan, 367 nəfər akademik heyət, 2022/2023-cü tədris ilində isə 3355 təhsilalan, akademik heyət iştirak etmişdir. Sorğulara əsasən məmnunluq səviyyəsi yüksəkdir. Bundan əlavə TKTA tərəfindən təqdim edilən müxtəlif məzmunlu sorğuların da icrası TKTŞ tərəfindən təşkil olunur.

## 2.3. Keyfiyyət təminatı mədəniyyəti

SDU-nun bütün fakültə, şöbə və mərkəzlərində keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarəedilməsi zamanı Azərbaycan dövlətinin təhsil siyasəti və müasir keyfiyyətin idarəedilməsi anlayışına əsaslanır və bütün əməkdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edərək keyfiyyət mədəniyyəti formalaşdırılır. SDU daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərində idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edlir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur

bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm olaraq davam etdirilir. Müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq və koordinasiyanı dəstəkləyir və gücləndirir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir.

Keyfiyyət siyasəti əsasında hazırlanmış fəaliyyət planının icrasına nəzarət edir, digər struktur bölmələrin fəaliyyətinin keyfiyyət baxımından qiymətləndirilməsi metodologiyasını, meyarlarını müəyyənləşdirir və müəyyən olunmuş metodologiya və meyarlar əsasında qiymətləndirilməsini müzakirə edir və hesabatlar hazırlayır.

Tədrisin keyfiyyətini qiymətləndirmək üçün tədris ili ərzində təhsilalanlar və məzunlar arasında müxtəlif mövzularda keçirilmiş sorğuların nəticələrini analiz edərək aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr verir və onların icrasına nəzarət edir.

SDU rəhbərliyi TKTA-nın bütün tədbirlərində Keyfiyyət təminatı şöbəsinin iştirakını təmin edir, vəzifə və funksiyaların yerinə yetirilməsi üçün zəruri olan informasiya və sənədləri müvafiq strukturlardan toplamağa, struktur bölmələrininin fəaliyyəti ilə əlaqədar məsələlərin müzakirəsində iştirak etməyə şərait yaradır, zəruri infrastrukturla təmin edir. Keyfiyyət təminatı sistemini təkmilləşdirmək və beynəlxalq təcrübəni mənimsəmək üçün universitet əməkdaşları mütəmadi olaraq ölkə xarici ezamiyyətlərə göndərilir.

Sorğuların keçirilməsidə SDU-nun İKT sisteminin, həmçinin fakültə dekanlarının strukturlararası fəaliyyəti koordinasiya edilir və birgə işlərin görülməsinə köməklik göstərilir. Komissiya öz vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini SDU-nun digər struktur bölmələri qarşılıqlı əlaqə şəklində qurur.

Qarşıda duran məsələlər birgə görüşlər nəticəsində müzakirə edilir. Çatışmazlıqların aradan qaldırılması üçün təklif və tövsiyələr verilir.

## 3.TƏLİM VƏ TƏDRİS

### 3.1.Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

SDU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı tədris planlarında olan fənlərin və onların proqramlarının AR NK-nin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramlar"ının tələblərinə uyğun olduğu müəyyənləşdirilmişdir.

Fənn proqramlarında ixtisaslar üzrə fənnə ayrılan saatların miqdarı, mühazirə və seminar saatlarının bölgüsü, sərbəst iş mövzuları işçi tədris planlarında (Sillabuslar) əks olunmuşdur.

Ümumilikdə SDU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblər tam ödənilmişdir.

SDU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında əmək bazarının tələbləri daim nəzərə alınmışdır. Bu məqsədlə universitetdə vaxtaşırı əmək yarmarkaları keçirilmiş, müvafiq ixtisaslara uyğun olaraq təlabatlar müəyyənləşdirilmiş və zərurət yarandıqca yeni ixtisasların açılması həyata keçirilmişdir. Yeni ixtisaslar açılarkən, ixtisasın müasir tələblərə uyğunluğu, perspektivliyi, həmin ixtisasa Sumqayıt şəhərində, ətraf regionlarda olan müəssisə rəhbərlərinin iştirakı ilə birgə dəyirmi masa, tələbələrlə görüşlər, universitet nümayəndələrinin sənaye müəssisələrində mövcud olan şəraitlə tanişlığı və digər tədbirlər keçirilmişdir. Eyni zamanda sənaye müəssisələrinin rəhbərlərinə SDU tərəfindən rəsmi məktublar göndərilir, onların rəy və təklifləri öyrənilir.

Son illər Sumqayıt şəhərində fəaliyyət göstərən müəssisələrlə bu istiqamətdə görüşlər keçirilib. Onların tələb etdikləri ixtisaslar üzrə kadrların hazırlığı və hal-hazırda hazırlanan mütəxəssislər üzrə maraqlarında olduqları fənlərin tədris edilməsi ilə də bağlı müzakirələr aparılmşdır. Bundan əlavə kafedra müdirləri daxil olmaqla ixtisas müəllim-

lərindən ibarət heyət mütəmadi olaraq Sumqayıt şəhər orta məktələrində abituriyentlərlə görüşlər keçirmiş və gələcyin tələbələrinin ixtisas seçimləri barədə fikirləri dinlənilmişdir.

Hər növbəti tədris ili üçün tələbə qəbulu üzrə sifarişlər Fakültələrin Elmi Şuralarında geniş şəkildə müzakirə olunur. Məsələn, İqtisadiyyat və idarəetmə fakültəsi üzrə: (prot.№2 13.10.2015, prot.№2 24.10.2016, prot.№2 25.10.2017, prot.№2 12.10.2018, prot.№2 14.10.2019, prot.№2 15.10.2020; Müzakirələr zamanı əmək bazarının cari vəziyyəti, tələb olunan ixtisaslar, onlarla bağlı təhlillər aparlır. Fakültələrin professor-müəllim heyəti, tədris köməkçi heyəti və otaqların tələbə tutumu da nəzərə alnaraq qəbul planı təsdiqlənərək Rektorluğa müzakirəyə təqdim olunur. Hər tədris ili üzrə fakütələrə qəbul olan tələbələrin göstəriciləri də (sayı, qəbul balı) ixtisaslar üzrə qəbul planın yerinə yetirilməsi, boş qalan yerlər geniş müzakirə olunur tələbə qəbulunun nəticələri qiymətləndirilir və qarşıda duran vəzifələr müəyyənləşdirilir.

Mühəndislik fakültəsi üzrə: (prot.№01,23.09.2015, prot.№01, 23.09.2016, prot.№01, 26.09.2017, prot.№01 13.09.2018, prot.№01, 11.09.2019, prot.№02, 22.10.2020, prot.№02, 27.09.2021, prot.№ 01 13.09.2022).

Son illər Sumqayıt şəhərində fəaliyyət göstərən müəssisələrlə bu istiqamətdə görüşlər keçirilib. Onların tələb etdikləri üzrə kadrların hazırlığı və hal-hazırda hazırlanan ixtisaslar üzrə maraqlarında olduqları fənlərin tədris edilməsi ilə də bağlı müzakirələr aparılmşdır. Bundan əlavə fakültənin kafedra müdirləri daxil olmaqla ixtisas müəllimlərindən ibarət heyət mütəmadi olaraq Sumqayıt şəhər orta məktəblərində abituriyentlərlə görüşlər keçirmiş və gələcyin tələbələrinin ixtisas seçimləri barədə fikirləri dinlənilmişdir.

Əmək bazarının tələblərini nəzərə alaraq tələbə qəbulu sifarişlərini müəyyənləşdirmək üçün Sumqayıt şəhərində yerləşən sənaye müəssisələrinin iştirakı ilə görüşlər keçirilmişdir. (STP nümayəndələrinin SDU-nun tələbələri ilə görüşü: https://www.sdu.edu.az/az/news/2147 Sumqayıt Dövlət Universiteti ilə Sumqayıt Texnologiyalar Parkı arasında əməkdaşlıq memorandumu imzalandı https://www.sdu.edu.az/az/news/1824 Tələbələrimiz STP-də təcrübə keçirlər https://www.sdu.edu.az/az/news/207

SDU-nun bir qrup müəllim və tələbəsi Sumqayıt Kimya Sənaye Parkında oldular https://www.sdu.edu.az/az/news/2113 .SOCAR ilə Sumqayıt Dövlət Universitetinin nümayəndələri arasında görüş keçirilib https://www.sdu.edu.az/az/news/2404

2015-2022-ci illərdə yeni ixtisaslar 050621- Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi, 050628- Mexanika mühəndisliyi,050629- Mexatronika və robototexnika mühəndisliyi, 050623- Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi ixtisası üzrə ixtisasları üzrə kadr hazırlığına başlanılmışdır. 2019-2020-ci tədris ilindən subbakalavrların universitetə daxil olması prosesi zamanı əvvəlki kreditləri nəzərə alınmış və onlar uyğun fənlərdən T-261/5 saylı 03.10.2019 –cu il tarixli, T-289\5 saylı 23.10.2019-cu il tarixli tarixli əmrlərə əsasən imtahanlardan azad olunmuşlar.

Eyni zamanda Əmək bazarının tələblərini nəzərə almaq üçün və tələbəqəbulu sifarişlərini dəqiqləşdirmək üçün Sumqayıt şəhərində yerləşən sənaye müəssisələrinin iştirakı ilə görüşlər keçirilmişdir.

Sumqayıt Texnologiyalar Parkının (STP) nümayəndələrinin SDU-nun tələbələri ilə keçirilmiş görüşdə Sənaye müəssisəsi rəhbərlərinin kadrlara olan tələbləri dinlənilmiş, həmçinin tələbələri maraqlandıran suallar cavablandırılmışdır (https://www.sdu.edu.az/az/news/2147)

Sumqayıt Dövlət Universiteti ilə Sumqayıt Texnologiyalar Parkı arasında əməkdaşlığı ikitərəfli və çoxtərəfli formatda genişləndırmək məqsədilə SDU ilə STP arasında Memorandum imzalanmışdır. (https://www.sdu.edu.az/az/news/1824)

Memoranduma əsasən SDU ilə STP-nin müvafiq müəssisələri arasında müqavilələr imzalanmış və universitetin tələbələri STP-nin müəssisələrində istehsalat təcrübəri keçirlər (https://www.sdu.edu.az/az/news/207) Həmçinin SDU-nun bir qrup müəllim və

tələbəsi Sumqayıt Kimya Sənaye Parkında olmuşlar və orada fəaliyyətdə olan müasir texnoloji qurğular, avadanlıqlar və iş şəraiti ilə tanış olmuşlar.
(https://www.sdu.edu.az/az/news/2113)

SDU-da SOCAR-ın nümayəndələri ilə görüş keçirilib, təhsilin inkişafına dair birgə əməkdaşlığın qarşılıqlı faydaları və perspektivləri haqqında fikir mübadiləsi aparılıb, SOCAR ilə SDU arasında əməkdaşlığın daha da genişləndirilməsi, "Universitet−sənaye əməkdaşlığı" çərçivəsində SDU tələbələrinin SOCAR-ın təcrübə proqramlarında iştirakı və məzunların işə qəbul olunduqları qeyd edilib (https://www.sdu.edu.az/az/news/2404)

## 3.2. Təhsil proqramları

SDU-da kadr hazırlığı bakalavriat, magistratura və doktorantura olmaqla bütün ali təhsil səviyyələrini əhatə edir və bu səviyyələrdə tədris prosesi müvafiq struktur qurumları tərəfindən təşkil edilir, tənzimlənir və nəzarət olunur. Bakalvariat səviyyəsində tədris prosesi Tədris Metodiki Mərkəz tərəfindən, magistratura və doktorantura səviyyəsində isə Doktorantura və magistratura şöbəsi tərəfindən həyata keçirilir. Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli 129 saylı qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları"na uyğun olaraq həyata keçirilir. Doktoranturaya illik qəbul və dissertantların təhkim olunması SDU-nun sifarişi və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin rəyi əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi plan üzrə aparılır. Sumqayıt Dövlət Universitetində 2015-2022-ci illər üzrə doktorantura və dissertantlıq yolu ilə elmi-pedaqoji kadr hazırlanmasının inkişaf dinamikası aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1. Fəlsəfə doktorluğu və elmlər doktorluğu proqramları üzrə doktoranturaya qəbul olanların dinamikası (2015-2022-ci illər)

| № | Fəaliyyət göstəriciləri | İllər üzrə fəaliyyət göstəriciləri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| 1 | Doktorantura üzrə elmi ixtisasların sayı | 12 | 15 | 19 | 17 | 6 | 6 | 7 | 3 |
| 2 | Qəbul olunanların sayı | 25 | 31 | 33 | 34 | 9 | 8 | 8 | 4 |
| | o cümlədən Fəlsəfə doktorluğu proqramı üzrə | 25 | 24 | 26 | 24 | 5 | 6 | 5 | 3 |
| | a) Doktorantlar | 14 | 12 | 17 | 14 | 5 | 6 | 5 | 3 |
| | b) Dissertantlar | 11 | 12 | 9 | 10 | - | - | - | - |
| | Elmlər doktoru proqramı üzrə | - | 7 | 7 | 10 | 4 | 2 | 3 | 1 |
| | c) Doktorantlar | - | 3 | 4 | 5 | 2 | 1 | 3 | 1 |
| | d) Dissertantlar | - | 4 | 3 | 5 | 2 | 1 | - | - |

2015-2022-ci illərdə fəlsəfə doktoru proqramı üzrə doktoranturaya 76 nəfər, dissertanturaya 42 nəfər qəbul olunmuşdur. 2015-2022-ci illərdə fəlsəfə doktoru proqramı üzrə doktoranturanı 95 nəfər və dissertanturanı 68 nəfər bitirmişdir. Doktorantlıq və dissertantlıq yolu ilə təhsilini başa çatdırmış 163 məzundan 77 nəfəri dissertasiya işini

müdafiə etmişdir, 14 nəfəri dissertasiya işini müdafiə etmək üçün müvafiq dissertasiya şuralarına təqdim etmişdir.

SDU-nun tarixində ilk dəfə olaraq 2016-ci ildən başlayaraq elmlər doktoru proqramı üzrə doktoranturaya və dissertanturaya qəbul həyata keçirilir. 2016-2022-ci illərdə elmlər doktoru proqramı üzrə 34 nəfər, o cümlədən doktoranturaya 19 nəfər, dissertanturaya 15 nəfər qəbul olunmuşdur.

Universitetin tarixində yenə də ilk dəfə olaraq 2018-ci ildə FD.02.193 şifrəli Dissertasiya Şurası yaradılmışdır. Bu Dissertasiya Şurasında 3337.01- "İnformasiya ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)" və 3303.01- "Kimya texnologiyası və mühəndisliyi" ixtisasları üzrə fəlsəfə doktorluğu dissertasiyalarının müdafiəsi həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 27.12.2019-cu il tarixli (protokol 14-R) qərarı ilə Sumqayıt Dövlət Universiteti nəzdində fəlsəfə doktorluğu dissertasiyalarının müdafiəsi üçün 6 ixtisas üzrə 3 Dissertasiya Şurası yaradılmışdır. Bu Dissertasiya Şuraları aşağıdakılardır:

FD-2.23 Dissertasiya Şurası (2306.01-"Üzvi kimya", 2314.01-"Neft kimyası" ixtisasları üzrə);

FD-2.24 Dissertasiya Şurası (5706.01- "Azərbaycan dili", 5716.01- "Azərbaycan ədəbiyyatı" ixtisasları üzrə);

FD-2.25 Dissertasiya Şurası (3337.01- "İnformasiya ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)", 3338.01- "Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə)" ixtisasları üzrə).

SDU-da təhsil proqramları üzrə hazırlığın məzmunu və strukturu "Ali təhsilin dövlət standartı və proqramı"nın (AR NK-nin 23.04.2010-cu il tarixli 75 nömrəli Qərarı) tələblərinə, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları", AR TN tərəfindən 22 avqust 2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş "Ali Təhsil Pilləsinin Dövlət Standartları"na (hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələbləri) və "Ali təhsil müəssisələrinin bakalavriat, magistratura və AMEA-nın magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın (AR NK-nın 24.12.2013-cü il tarixli 348 nömrəli Qərarı, edilmiş dəyişikliklərlə) tələblərinə uyğun olaraq həyata keçirilir.

Əsas tədris sənədlərindən biri olan ixtisaslar (proqramlar) üzrə tədris planları AR TN-in 22 avqust 2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş "Ali Təhsil Pilləsinin Dövlət Standarları"na (Bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı) uyğun hazırlanmışdır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar tədris planları və fənn proqramları tərtib edilərkən dövlət standartlarının tələblərinə uyğun olaraq ixtisasların xüsusiyyətinə, proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblərə - Ümumi kompetensiyalarına (səriştələr) (ÜK), peşə kompetensiyalarına (PK) xüsusi diqqət yetirilir.

Sumqayıt Dövlət Universitetində kredit sistemi ilə tədrisin təşkilində Boloniya bəyannaməsinin müddəalarına müvafiq olaraq, tələbələrin akademik mobilliyi, onların SDU-da, eləcə də digər ali təhsil müəssisələrində ayrı-ayrı fənlər üzrə kredit qazana bilmələri ilə əlaqədar olaraq tələbələr arasında geniş təlimatlandırma işi aparılır. "Ali təhsil müəssisələrinin bakalavriat, magistratura və AMEA-nın magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın (AR NK-nın 24.12.2013-cü il tarixli 348 nömrəli Qərarı, edilmiş dəyişikliklərlə) 6-cı bəndi "Tələbə və müəllim mobilliyi" mütəmadi olaraq tələbələrin nəzərinə çatdırılır və bu sahədə mövcud qaydaların tələblərinin gözlənilməsi təmin edilir. Tələbənin digər ali təhsil müəssisələrində kreditləri qazanması SDU rəhbərliyinin razılığı ilə həyata keçirilir.

Tələbələrin mobilliyinin təmin edilməsi üçün AR TN tərəfindən müəyyənləşdirilən sənədlərin (məsələn, akademik transkript, tələbənin ərizə forması, tədris razılığı, məlumat paketi və s.) onlara vaxtında və normativ tələblərə uyğun şəkildə təqdim edilməsi prosedurlarına Universitet tərəfindən tam əməl edilir.

Universitetin professor-müəllim heyəti və digər ali təhsil müəssisələrində fəaliyyət göstərən professor-müəllim heyəti ilə əməkdaşlıq edir, elmi-metodik təcrübə mübadiləsində fəal iştirak edir. Həm professor-müəllim heyəti, həm də tələbələr SDU-da, eləcə də digər ali təhsil müəssisələrində keçirilən elmi konfranslarda; o cümlədən xarici ölkə universitetlərində keçirilən elmi konfranslarda fəal iştirak edirlər və xarici ölkələrin ali məktəb əməkdaşları SDU-da keçirilən tədbirlərə dəvət olunurlar.

SDU-da kadr hazırlığı aparılan ixtisaslar üzrə fənlərin və onların proqramlarının məzmunu dövlət təhsil standartlarının tələblərinə uyğundur.

Tədris planlarında fənlər və onların proqramlarının məzmunu AR NK-nın 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramları”nın tələblərinə uyğundur.

Fənn proqramlarında ixtisaslar üzrə fənnə ayrılan saatların miqdarı, mühazirə və seminar saatlarının bölgüsü, sərbəst iş mövzuları işçi tədris planlarında əks olunmuşdur.

Fənn proqramları Ali İxtisas Təhsilinin Dövlət Standartlarının tələblərinə uyğun tərtib edilir. AR TN-nın 22 avqust 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin Dövlət Standartına” uyğun olaraq tərtib edilən fənn proqramlarında fənnin xarakteristikası, məqsədi, vəzifələri və məzmunu aydın şərh edilmişdir.

Hazırda universitetdə istifadə olunan fənn proqramları Təhsil Nazirliyinin qrifi və ya Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə nəşr olunmuşdur.

Tədris fənlərinə ayrılan saatların miqdarı tədris planlarında fənlər üçün nəzərdə tutulan saatların miqdarına uyğundur. Bakalavriat və magistratura səviyyəsində tədris planlarında fənn blokları üzrə saatların həcminin rasional nisbəti gözlənilmişdir.

AR NK-nın 11 fevral 2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisaslarının (proqramlarının) Təsnifatı”na uyğun olaraq SDU-da aşağıdakı ixtisas qrupları üzrə mütəxəssis hazırlığı həyata keçirilir:

1 Təhsil ixtisasları qrupu
2. Humanitar və sosial ixtisaslar qrupu
3. İqtisadiyyat və idarəetmə qrupları
4. Təbiət ixtisasları qrupu
5. Texniki və texnoloji ixtisaslar qrupu

Humanitar fənlər bölümü sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı təmin edir.

Bütün fənlər üzrə auditoriya dərsləri universitetin professor-müəllim heyəti tərəfindən həyata keçirilir, zərurət yarandıqda digər ali təhsil müəssisələrindən kifayət qədər iş təcrübəsi və biliyi, elmi dərəcəsi olan müəllimlər də dəvət olunur.

SDU-da mühazirələr elmi dərəcəli professor-müəllim heyəti, seminar və praktik məşğələlər isə baş müəllim, müəllim və assistentlər tərəfindən aparılır. Lakin ehtiyac yarandıqda kifayət qədər iş təcrübəsi, səriştəsi olan baş müəllimlər də mühazirə saatlarının aparılmasına cəlb olunur.

SDU-da Təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğundur və tələbələrin SDU-dan digər universitetlərə və ya digər universitetlərdən SDU-ya transferi çətinlik törətmir. Bu sistemin əsas üstünlüyü ondan ibarətdir ki, bu sistemə uyğun fəaliyyət göstərən universitetlərdə kredit miqdarı ilə bağlı tələblər gözlənilir. Ona görə də, bu sistemə uyğun fəaliyyət göstərən universitetlərin verdiyi diplom və digər təhsil sənədlərinin beynəlxalq miqyasda tanınması mümkün olur.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli F-370 N:-li qərarı ilə təsdiq edilmiş Bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı Dövlət standartına əsasən kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə tədris planları tərtib edilərək müvafiq fakültənin Elmi Şurasında baxılır və təsdiq üçün universitet Elmi Şurasına tövsiyə edilir. Məsələn, Mühəndislik fakültəsi üzrə: Fakültə EŞ: pr.09, 12.05.2022, SDU

EŞ: pr.10, 06.07.2022; Fakültə EŞ: pr.07, 27.05.2021, SDU EŞ: pr.09, 16.06.2021; Fakültə EŞ: pr.01, 11.09.2019, SDU EŞ: pr.01, 20.09.2019; Fakültə EŞ: pr.09, 11.06.2019, SDU EŞ: pr.10, 14.06.2019; Fakültə EŞ: pr.05, 06.02.2020, SDU EŞ: pr.07, 07.02.2020. Həftəlik auditoriya (40%) və auditoriyadan kənar (60%) saatların miqdarının təhsil proqramlarına uyğunluğu təmin edilib (Fakültə EŞ: pr.07, 23.04.2019, SDU EŞ: pr.09, 17.05.2019).

Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı təmin edilir və onların təklifləri tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında nəzərə alınır.

Tarix və coğrafiya fakültəsində bakalavr pilləsində həm əyani, həm qiyabi şöbələrdə 7 ixtisas üzrə kadr hazırlanır. Magistr pilləsində isə 4 ixtisas,7 ixtisaslaşma üzrə kadr hazırlanır. Fakültədə bakalavr pilləsi üzrə tədris planları Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bakalavriat səviyyəsinin ixtisas üzrə Təhsil Proqram"ları əsasında hazırlanmışdır. Belə ki, tədris planları Tarix müəllimliyi ixtisasında (əyani) Azərbaycan Respublikası Təhsil Nazirliyinin T-354 saylı 30.07.2020-ci il tarixli, Tarix (əyani və qiyabi), Politologiya (əyani), Sosiologiya (əyani) ixtisaslarında T-363 saylı 07.08.2020-ci il tarixli, Tarix və coğrafiya müəllimliyi (əyani) və Coğrafiya müəllimliyi (əyani) ixtisaslarında T-381 saylı 21.08.2020-ci il tarixli, Sosial iş (əyani və qiyabi) ixtisasında isə T-386 saylı 28.08.2020-ci il tarixli qərarları ilə təsdiq edilmiş Dövlət Təhsil Proqramları əsasında tərtib edilmişdir. Tarix müəllimliyi, Tarix və coğrafiya müəllimliyi, Coğrafiya müəllimliyi, Politologiya, Sosiologiya ixtisasları üzrə yalnız əyani, Tarix ixtisası üzrə isə həm əyani, həm də qiyabi təhsil formasının tədris planları Fak. EŞ-nın 12. 09.2020 –ci il tarixli iclasının (pr.№1), Universitet Elmi Şurasının isə 14.09.2020-ci il tarixli (pr. №1) qərarı ilə təsdiq edilmişdir. Sosial iş ixtisasının əyani və qiyabi tədris planları isə Fak. EŞ.-nın 31.05.2022-ci il tarixli iclasının (pr.№11), Universitet Elmi Şurasının isə 06.07.2022-ci il tarixli (pr.№10) qərarı ilə təsdiq edilmişdir. Təhsil proqramlarında qeyd olunan həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarı tədris planları hazırlanarkən nəzərə alınmışdır. Magistratura pilləsi üzrə tədris planları isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1463 saylı 31 avqust 2012-ci il tarixli əmri ilə təsdiqlənmiş dövlət standartlarına əsasən hazırlanmış və Fak. EŞ.-nın 27.05.2016 cı il tarixli iclası (pr. №09) və Universitet Elmi Şurasının 31.05.2016-cı il tarixli iclasının (pr.№07) qərarı ilə təsdiqlənmişdir. Fakültədə bakalavr, magistratura pillələrində tədris planları, tədris edilən fənlərin məzmunu, fənn proqramları və sillabuslar təhsil proqramlarına uyğun hazırlanmışdır.

Universitetdə həm bakalavriat, həm də magistratura pilləsində tədris planları, tədris edilən fənlərin məzmunu, fənn proqramları və sillabuslar təhsil proqramlarına uyğun hazırlanmışdır. SDU-da kadr hazırlığı aparılan ixtisaslar üzrə fənlərin və onların proqramlarının məzmunu dövlət təhsil standartlarının tələblərinə uyğundur .

Tədris planlarında fənlər və onların proqramlarının məzmunu AR NK-nın 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramları"nın tələblərinə uyğundur.

Fənn proqramlarında ixtisaslar üzrə fənnə ayrılan saatların miqdarı, mühazirə və seminar saatlarının bölgüsü, sərbəst iş mövzuları işçi tədris planlarında əks olunmuşdur.

Tədris planlarına baza fənləri ilə yanaşı, seçmə fənlər də daxil edilmişdir. Seçmə fənlər müəyyənləşdirilərkən müəssisənin profili, ixtisasın istiqaməti, mahiyyəti, müasirliyi, əmək bazarının gözləntiləri, regionun əmək bazarının xüsusiyyətləri, eləcə də tələbələrin maraqları və fikirləri nəzərə alınmışdır. Bu meyarlar kafedralar tərəfindən tələbələr arasında keçirilən fərdi sorğular nəticəsində müəyyənləşdirilmişdir. Sorğularda tələbələrin daha çox maraq və həvəs göstərdiyi sahələr qruplaşdırılmış, ən çox qeyd olunan sahələrə uyğun fənlər müəyyənləşdirilmişdir.

Fənn proqramları Ali İxtisas Təhsilinin Dövlət Standartlarının tələblərinə uyğun tərtib edilir. AR TN-nın 22 avqust 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin Dövlət Standartına" uyğun olaraq tərtib edilən fənn proqramlarında fənnin

xarakteristikası, məqsədi, vəzifələri və məzmunu aydın şərh edilmişdir.

Hazırda universitetdə istifadə olunan fənn proqramları Elm və Təhsil Nazirliyinin qrifi və ya Sumqayıt Dövlət Universitetinin Elnmi Şurasının qərarı ilə nəşr olunmuş fənn proqramlarıdır. Son 7 ildə nəşr olunan fənn proqramlarının statistik göstəriciləri aşağıdakı kimidir:

1.2015/2016-cı tədris ilində TN-nin qrifi ilə 11, SDU-nun Elmi Şurasının qərarı ilə 15 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 26

2.2016/2017-ci tədris ilində TN-nin qrifi ilə 3, SDU-nun Elmi Şurasının qərarı ilə 3 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 6

3.2017/2018-ci tədris ilində TN-nin qrifi ilə 12, SDU-nun Elmi Şurasının qərarı ilə 31 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 43

4.2018/2019-cu tədris ilində TN-nin qrifi ilə 187, SDU-nun Elmi Şurasının qərarı ilə 104 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 291

5.2019/2020-ci tədris ilində TN-nin qrifi ilə 147, SDU-nun Elmi Şurasının qərarı ilə 203 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 350

6. 2020/2021-ci tədris ilində TN-nin qrifi ilə 14, SDU-nun Elmi Şurasının qərarı ilə 29 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 43

7. 2021/2022-ci tədris ilində TN-nin qrifi ilə 51, SDU-nun Elmi Şurasının qərarı ilə 45 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 96

8. 2022/2023-cü tədris ilinin 1-ci semestri üzrə TN-nin qrifi ilə 29, SDU-nun Elmi Şurasının qərarı ilə 28 fənn proqramı nəşr olunmuşdur. Cəmi: 57

Son 7 ildə TN-nin qrifi ilə 454, SDU-nun Elmi Şurasının qərarı ilə 458. Cəmi: 912 fənn proqramı nəşr olunmuşdur.

Özünütəhlil komissiyası tərəfindən tədris fənlərinə ayrılan saatların miqdarı ilə tədris planlarında fənlər üçün nəzərdə tutulan saatların uyğun olduğu müəyyən edilmişdir. Bakalavriat və magistratura səviyyəsində tədris planlarında fənn blokları üzrə saatların həcminin rasional nisbəti gözlənilmişdir.

### 3.3. Tədrisin təşkili

SDU-da tədrisin təşkili Azərbaycan Respublikasının Təhsil Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq normativ sənədlərinə, əmr və sərəncamlarına və Sumqayıt Dövlət Universitetinin Nizamnaməsinin (Qeydiyyat №1105-A1-422. 10.02.2016) tələblərinə uyğun həyata keçirilir.

İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsü aydın göstərilmiş baza fənlərinin və ya seçmə fənlərin hansı semestrdə tədris olunmasına dair qeydlər mövcuddur.

Tədris fənlərinə ayrılan saatların miqdarı ilə tədris planlarında fənlər üçün nəzərdə tutulan saatların miqdarı uyğundur. Tədris planlarında fənn blokları üzrə saatların həcminin rasional nisbəti gözlənilmişdir.

Humanitar fənlər bölümü sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı təmin edir.

Professor-müəllim heyətinin bir ştat üzrə dərs yükü 500-550 saat təşkil edir. Mühazirə, seminar və praktiki məşğələlərə ayrılan vaxtın həcmi bir qayda olaraq illik dərs yükünün 60 faizini təşkil edir.

Tədris planlarında ümumi və ixtisas fənləri arasında balans tələbata uyğun formada tənzimlənir. Fənnin təlim nəticələri ixtisasın tələbatı ilə əlaqələndirilir, uyğun olmayan təlim nəticələri müəyyənləşdirilir, daim nəzarətdə saxlanılır və qiymətləndirilir. Fənnin tədrisinə dair materiallar fənn sillabuslarında öz əksini tapmışdır. Tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü normativ sənədlərə uyğun formada tənzimlənir və tələbələrlə dərsdən kənar məşğələlər, o cümlədən sərbəst işlərin yerinə yetirilməsi üçün əlavə məsləhət saatları keçirilir.

Hər bir müəllimin tədris etdiyi fənlər, mühazirə və məşğələlərə, o cümlədən laboratoriya işlərinə ayrılan saatların miqdarını, həmin fənlərin semestr üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planı mövcuddur. Müəllimlər akademik qruplarda cari və imtahanqabağı məsləhət saatları təşkil edir. İmtahanqabağı məsləhət saatlarının kafedra üzrə qrafiki tutulur və kafedra müdiri təsdiq etdikdən sonra məlumat lövhəsinə vurulur. Cari məsləhətin günü və saatı tələbələrin iştirakı ilə müəllim tərəfindən sərbəst müəyyənləşdirilir. Dərsdən kənar vaxtlarda müəllimin rəhbərliyi ilə tələbələrin sərbəst işlərinin hazırlanması təşkil olunur. Sərbəst işin mövzusuna dair ədəbiyyatın müəyyənləşdirilməsi, kitabxanadan müvafiq ədəbiyyatların seçilməsi, tədris, tədris-metodiki vəsaitlərdən istifadə edərək sərbəst işin məzmununu dərindən mənimsəmək və şərh etmək bacarığının tələbələrə aşılanması həyata keçirilir. Ümumiyyətlə, sərbəst işin hazırlanması tələbələrin fənni daha yaxşı mənimsəməsinə xidmət edir.

Tələbələrin pedaqoji və istehsalat təcrübələri tədris planında nəzərdə tutulan normaya uyğun həyata keçirilir. Pedaqoji təcrübələr bir qayda olaraq Sumqayıt şəhərində olan orta məktəblərdə, istehsalat təcrübələri sənaye müəssisələrində, həmçinin Türkiyənin Petkim şirkətində, bir neçə tələbə diplomqabağı təcrübəni Rusiya Federasiyasının Kazan Dövlət Energetika Universitetində keçmişlər. Ümumilikdə təcrübə yüksək səviyyədə təşkil olunur və mükəmməl formada keçirilir. Tələbələrin fərdi tədris planları mövcuddur. Həmçinin hər bir ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlər, dərsin növləri, fənlərin kreditlərini və tələblərin sayını özündə əks etdirən ixtisaslar və ixtisaslaşmalar üzrə işçi tədris planları mövcuddur. Mühazirə, seminar, laboratoriya işi və praktiki məşğələlər təlimata uyğun formada təşkil edilir. Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti fənlərin tədrisinin təşkilinə tam uyğundur.

SDU-da Əlavə Təhsil Mərkəzinin mövcud olması professor-müəllim heyətinin ixtisasartırma təhsilinin səmərəliliyinin daha da artırılmasını şərtləndirir. Ali məktəb müəlliminin 3 aylıq ixtisasartırma təhsilində iştirak edəcək əməkdaşların siyahısı tədris ilinin əvvəlindən dekanların təqdimatı ilə Tədris Metodik Mərkəzə verilir və rektorun əmri ilə onlar ixtisasaartırma təhsilinə cəlb olunur və həmin semestrdə 3 aylıq ixtisasaartırma təhsilində iştirak edən müəllimlərə dərs yükü ayrılmır. İxtisasartırma təhsilində proqramın saat miqdarı 400-450 saat təşkil edir. ixtisasartırma təhsilinin yekununda dinləyicilərə rəsmi sertifikat verilir.

Magistr dissertasiyası bir qayda olaraq, bütün magistrantlar tərəfindən hazırlanır. Magistraturaya qəbul olunan hər bir magistrantın magistr dissertasiyasının mövzusu, elmi rəhbəri və 2 illik Fərdi iş planı kafedrada müəyyənləşdirilir və fakültə Elmi Şurasında təsdiq eidlir. Hər bir magistrant fərdi iş planına uyğun olaraq elmi rəhbərin rəhbərliyi ilə 2 il ərzində magistr dissertasiyasının hazırlanmasını təmin edir. Magistr dissertasiyasının müdafiəsi üçün yaradılan ixtisaslaşdırılmış Şura Elm və Təhsil Nazirliyinin əmri əsasında rektorun əmri ilə təsdiq edilir. Eyni zamanda magistr dissertasiyalarının müdafiəsi qrafiki və rəsmi rəyçilər rektorun əmri ilə təsdiq olunur. Magistr dissertasiyasının müdafiəsi 45 dəqiqə ərzində keçirilir. 15 dəqiqəyə qədər magistrantın çıxışı, sonra sual-cavab, sonra rəsmi rəyçinin və elmi rəhbərin rəyi dinlənilir. Sonra digər rəy bildirənlərin rəyi dinlənilir və yekun qiymətləndirmə aparılır. İmtahan sessiyası rektorun əmrinə əsasən təşkil edilir. İmtahan sessiyasının keçirilmə müddəti əmrlə təsbit edilir. Tədris planına uyğun olaraq keçiriləcək imtahanların siyahısı müəyyənləşdirilir, imtahan cədvəlləri təsdiq olunmuş siyahıya əsasən tərtib edilir. İmtahan sessiyası Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə əsasnaməyə müvafiq olaraq keçirilir. Tədris planında nəzərədə tutulumuş fənlər üzrə saatlar akademik jurnalda fənn müəlliminin imzası ilə yekunlaşdıqdan və fakültə dekanı tərəfindən təsdiqləndikdən sonra imtahan vərəqləri verilir. Sessiyanın nəticələrinə görə ayrı-ayrı fənlər üzrə aşağı göstəricilər fakültə Elmi Şuralarında müzakirə olunur və nəticəsi həmin fənləri tədris edən müəllimlərin nəzərinə

çatdırılır, müvafiq tədbirlər görülür. Sessiyanın sonunadək imtahanlara gəlməyən tələbələr 3 gün müddətində onun səbəbi haqqında dekanlığa rəsmi məlumat verirlər. Semestr ərzində tədris olunan bütün fənlərə ayrılmış ümumi saatların 25%-dən çoxunda iştirak etməyən tələbələr keçirilən proqramlara tam yiyələnmədikləri üçün, mövcud əsasnaməyə müvafiq olaraq imtahan sessiyasına buraxılmırlar. Eyni zamanda, ayrı-ayrı fənlər üzrə ümumi saatların 25%-dən çoxunu buraxan tələblər həmin fəndən imtahana buraxılmırlar. Tələbələr imtahanlara yalnız tələbə bileti və ya qiymət kitabçası ilə buraxılırlar. Tədris planlarına uyğun sessiyanı müvəffəqiyyətlə vermiş tələbələrə mövcud qaydada təqaüd verilməsi haqqında fakültə dekanlarının qərarı mühasibatlığa və Tədris Metodik Mərkəzə təqdim olunur. İmtahanların gedişinə müəllim-koordinatorlar nəzarət edirlər. İmtahan sessiyasının gedişində yarana biləcək şikayətlərin yerində və operativ şəkildə həll edilməsini təmin etmək məqsədilə universitetdə Apellyasiya komissiyası yaradılmışdır. Həmçinin SDU-da imtahan sessiyasının gedişinə nəzarət və tələbələr arasında yarana biləcək şikayətlərin operativ şəkildə araşdırılaraq aradan qaldırılması məqsədilə imtahan qərargahı yaradılmışdır.

İmtahan sessiyası müddətində Elmi kitabxana gücləndirilmiş rejimində fəaliyyət göstərir. Həmçinin, imtahan sessiyasının gedişinə ümumi nəzarət məqsədilə rektorluğun nümayəndələri müvafiq fakültələrə təhkim edilir. İmtahan sessiyasının təşkili, keçirilməsi və nəticələri barədə hesabat sessiya bitdikdən sonra Elm və Təhsil Nazirliyinə təqdim olunur.

İqtisadiyyat və idarəetmə fakültəsi üzrə tədrisin təşkili: İqtisadiyyat və idarəetmə fakültəsində tədris planları hazırlanarkən kredit sisteminin tələblərinə uyğun əyani təhsildə hər semestr 30 kredit olmaqla 8 semestrə 240 kredit, qiyabi təhsildə isə hər semestr 24 kredit olmaqla 10 semestrə 240 kredit nəzərdə tutularaq hazırlanır.2015-2023-cü illər arası ixtisasların və ya ixtisaslaşmanın tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikləri (forma 2) mövcuddur. Tədris planları hazırlanarkən həm məcburi və seçmə fənnlər, həm də ümumi və ixtisas fənnlərinin bölgüsündə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş təhsil proqramı əsas götürülmüşdür. Seçmə fənnlər isə təhsil proqramında seçmə fənnlər üçün ayrılmış kredit sayına uyğun olaraq ixtisas kafedraları ilə müzakirə olunaraq tədris planına əlavə olunur. Bu müzakirələr Dünya iqtisadiyyatı və marketinq kafedrasında Dünya iqtisadiyyatı (əyani, qiyabi) 29.01.2016 pr.09, Beynəlxalq ticarət və logistika (əyani), Marketinq (əyani) 11.09.2021 pr.01, Beynəlxalq ticarət və logistika(qyabi) 24.05.2020 pr.12, Marketinq (qiyabi) 26.05.2022 pr.15, magistr pilləsi üçün 28.04.2017 pr.08,, Maliyyə və mühasibat uçotu kafedrasında İstehsal sferasında mühasibat uçotu və audit ixtisaslaşması 05.05.2017 pr 11, Mühasibat uçotu və audit(əyani, qyabi) və Maliyyə (qiyabi) 30.01.2016 pr.06,, Mühasibat və Maliyyə (əyani,qiyabi) 11.09.2020 pr.01,, İqtisadiyyat kafedrasında İqtisadiyyat (əyani) 03.02.2016 pr.09, 11.09.2020 pr.01, Turizm işinin təşkili (əyani, qiyabi) 16.06.2022 pr.14,, magistratura pilləsində İqtisadiyyatın tənzimlənməsi ixtisaslaşması 27.03.2018 pr.10, Turizmin iqtisadiyyatı ixtisaslaşması 25.05.2017 pr.11,, Biznesin təşkili və menecment kafedrası Biznesin idarə edilməsi, Menecment 03.02.2016 pr.05, 11.09.2020 pr.01, magistratura üçün 02.05.2017 pr.09 müzakirə edilmişdir. Fakültə Elmi Şurasında (FEŞ) isə bakalavr ixtisasları, 04.02.2016 pr.06, 11.09.2020 pr.01, magistratura pilləsi üçün isə 25.05.2017 pr.10 müzakirə edilərək təsdiqlənmişdir.

Tədris planlarında ümumi fənnlər və ümumi seçmə fənnlər blokunda (24+6) 30 kredit, məcburi ixtisas bölümündə 120, universitet tərəfindən müəyyən edilən seçmə fənnlər isə 60 kredit, 30 kredit isə təcrübə üçün nəzərdə tutulub. Tədris planlarında həftəlik dərs yükü 21-23 saat arası dəyişir. 2015-2023-cü illərdə tələbələrin fərdi tədris planları mövcuddur. Hər bir fənnin təlim nəticələri təhsil proqramında qeyd edilən təlim nəticələrinə uyğunlaşdırılır. Sillabusların hazırlanmasında müəllimlərə sərbəstlik verilmişdir. Belə ki, müəllimlər məcburi fənnlərin sillabuslarını fənnin təlim nəticələrinə, universitet tərəfindən müəyyən olunan fənnlərin sillabuslarını isə peşə təlim nətcələrinə əsaslanaraq sərbəst şəkildə hazırlayırlar. 2015-2023-cü illərdə ixtisasın və ya ixtisas-

laşmanın tədris planına uyğun hazırlanmış cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növünü fənlərin kreditlərini və tələbənin sayını əks etdirən ixtsas və ixtisaslaşmalar üzrə illik işçi tədris planı (forma 3) vardır. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı (forma 5) 2015-2023-cü illər üçün bütün kafedralarda vardır. Tədris növləri üzrə tədrisin təşkili mühazirə və seminarlar təqdimat, müzakirə, innovativ qiymətləndirmə üsulları,sorğular, açıq müzakirələr, frontal sorğu, qrup və fərdi işin qurulması və qiymətləndirilməsi əsasında təşkil olunur. Tədrisin təşkilinə, onun keyfiyyətinə Universitetin Keyfiyyət Təminat Şöbəsi və Tədris Metodiki Şura, həmçinin Fakültə Tədris Metodiki Şurası daim nəzarət edir. Məsləhət saatları tədris planlarında qeyd edildiyi kimi bir qrup üçün 1 saat olmaqla, birləşmə qrup üçün isə qrupların sayından asılı olaraq 2-3 saat nəzərdə tutulur. Fakültədə akademik məsləhətçi kimi 2 nəfər fəaliyyət göstərir. Sərbəst işlər semestrin əvvəlində tələbələrə təqdim olunur və semestr ərzində müəllim tələbələrlə dərsdənkənar məsləhət saatları keçirir, tələbələrin sərbəst iş hazırlamaları istiqamətində iş aparır və onların sərbəst iş mövzularını mənimsəmək səviyyəsini müəyyənləşdirir. İmtahan sessiyasının başlanmasına 10 gün qalmış qiymətləndirməni yekunlaşdıraraq dekanlığa təhvil verir. Semestrin sonunda tələbə verilən mövzularla bağlı hazırladığı sərbəst işləri müəllimə təqdim edir. Hazırladığı mövzulara əsasən tələbəylə sual cavab edilərək müvafiq qiymətlə qiymətləndirilərək təhvil götürülür.

2021-2022-ci tədris ilində 16.02.2022-ci il T-29/5 əmrinə əsasən tələbələr Azərbaycan Məişət Malları Açıq Səhmdar Cəmiyyətində, Fuad Kimya Servis MMC-də, Sumqayıt Texnologiyalar Parkı MMC-də, Azərsu ASC Sumqayıt filialında istehsalat təcrübəsində iştirak etmişlər.Ümumilikdə 244 tələbədən 243 tələbə istehsalat təcrübəsində iştirak etmiş, müvafiq ballarla qiymətləndirilmişlər, 1 tələbə iştirak etməmiş, 6 tələbə qeyri-kafi balla qiymətləndirilmişdir. İstehsalat təcrübələrinin keçirilməsi və nəticələri kafedra iclaslarında, FEŞ müzakirə olunmuşdur.

İmtahan sessiyasının təşkili və keçirlməsi hər il həm əyani, həm də qiyabi təhsil üçün hər semestr olmaqla ildə 2 dəfə verilmiş (R-37\1 27.11.2015, R-21\1 14.04.2016,, R-36\1 07.12.2016, R-20\1 31.03.2017, R-38\1 29.09.2017(qiyabi), R-47\1 13.12.2017, R-26\1 02.05.2018, R-43\1 18.09.2018 (qiyabi), R-52\1 03.12.2018, R-20\1 03.04.2019, R-47\1 16.09.2019 (qiyabi), R-55\1 25.11.2019, R-33\1 03.06.2020, R-52\1 15.12.2020-ci il, R-19\1 18.05.2021, R-40\1 04.10.2021(qiyabi), R-52\1 saylı 13.12.2021, R-24\1 saylı 19.05.2022,,R-44\1 19.09.2022(qiyabi) R-55\1 22.12.2022) rəhbər əmrlərinə əsasən müəyyən edilmiş qaydalar əsasında aparılır. İmtahan sessiyasının təşkili kafedralarda müəllimlər tərəfindən tədris etdikləri fənnin imtahan suallarının hazırlanması, yenilənməsi ilə başlayır. İmtahan sualları məlumat lövhələrində yerləşdirilməklə bərabər qruplarda da paylanılır. Hazırlanmış suallar əsasında imtahan biletləri tərtib olunur və Tədris metodiki mərkəzə təhvil verilir. İmtahan cədvəli hazırlanır təsdiqlənir. İmtahanlarda nəzarətçi qruplarının yaradılması üçün əmr verilir ( T-394\5 14.12.2016, T-254\5 08.11.2017, T-329\5 26.11. 2018, T-330\5 27.11.2019, T-201\5 20.10.2021, T-249\5 29.11.2022). İmtahanlar 5 sualdan ibarət olmaqla yazılı şəkildə saat 9-12 aralığında nəzarətçilərin iştirakı ilə keçiriir. İmtahan bitdikdən sonra yazılı vərəqlər yoxlama zalına göndərilir. Cavablar saat 3-də elan olunur və həmin gün də imtahan vərəqələri yazılaraq Tədris metodiki mərkəzə təhvil verilir.

2015-2023-cü illər arası fakültədə 2015-2016 cı ildə T-222\5 12.07.2016-cı il tarixli əmrə əsasən 75 fənn üzrə 53 tələbə, 2016-2017-ci tədris ilində T-155\5 12.07.2017-ci il tarixli əmrlə 36 fənndən 25 tələbə, 2018-2019-cu tədris ilində T-156\5 15.07.2019-cu il tarixli əmrlə 3 fənndən 3 tələbə, 2019-2020-ci tədris ilində T-97\5 04.08.2020-ci il tarixli əmrə əsasən 4 fəndən 3 tələbə və 2021-2022-ci tədris ilin də isə T-133\5 13.07.2022-ci il tarixli əmrə əsasən 3 fəndən 2 tələbə yay semestrində iştiak etmişdir. 86 tələbədən 84

tələbə imtahanlarda iştirak etmiş və müvvəffəq qiymət almışlar 2 tələbə isə (rəhmətə getdikləri üçün) imtahanlarda iştirak etməmişlər.

Fakültədə kredit borcu qalan tələbələrin tədris illəri üzrə dinamikası 2015-2016-cı tədris ilində 451 tələbə, 2016-2017-ci il 291 tələbə, 2017-2018-ci il 403 tələbə, 2018-1019-cu il 420 tələbə, 2019-2020 ci il 351 tələbə, 2020-2021 ci il 795 tələbə, 2021-2022-ci il üçün isə 416 tələbə üzrə kredit borcu yaranmışdır.

Fakültədə 2015-2016-cı tədris ilində 97 fənn, 2016-2017-ci il 84 fənn, 2017-2018-ci il 89 fənn, 2018-1019-cu il 90 fənn, 2019-2020 ci il 51 fənn, 2020-2021- ci il 97 fənn, 2021-2022-ci il üçün isə 104 fənn, 2022-2023-cü tədris ilinin payız semestrində isə 62 fənn üzrə kredit borcu yaranmışdır.

### 3.4. Tədris metodları və üsulları

SDU-da tədris prosesində müasir innovativ, yaradıcı və interaktiv təlim metodlarından istifadə olunur. İnteraktiv təlimdə tələbələrin fəal idrak fəaliyyətinə əsaslanan və tədris prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçiriir. İnteraktiv təlimdə tələbənin imkan və bacarığı aşkar olur, yəni yaradılmış şərait tələbənin apardığı təcrübəyə əsaslanaraq problemin nəticəsinin alınmasına özü nail olur və dərk edir. İnteraktiv təlim metodunun tətbiqi tədris prosesini intensivləşdirir, onu hər bir tələbə üçün əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir. Xüsusən məşğələ dərslərində fəallığın maksimum artmasına zəmin yaradır, bununla təlimin inkişaf etdirici aspektini nəzərə çarpacaq dərəcədə gücləndirir. İnteraktiv təlim metodu tələbələrdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, digər fərqli nöqteyi-nəzəri təsdiq yaxud inkar etmək, çoxluğun qərarını qəbul etmək, yaxud öz qərarının üstündə durmaq xüsusiyyətlərinin formalaşmasını şərtləndirməklə təfəkkürün müstəqilliyinə, tənqidiliyinə və çevikliyinə zəmin yaradır.

Yeni yanaşmanın tətbiqi tələbələrin yaddaşının elmi biliklərlə zənginləşməsinə, təfəkkürün müntəzəm inkişaf etdirilməsinə və daha çox biliklərin müstəqil əldə edilməsinə şərait yaranır.Tədris metodlarında tələbəyönümlü, problemyönümlü, səriştə əsaslı nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə olunur. Yəni müəllim məqsədli şəkildə idrakı problem situasiyası yaradır və problemin həlli prosesində tələblərin fəal tədqiqatçı mövqeyini stimullaşdırır. Nəticədə, tələbələr üçün yeni və zəruri olan biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi üçün münbit şərait yaradır.

Qeyd etmək lazımdır ki, tələbələr müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan ən vacib materialların öyrənilməsində fakt və hadisə, səbəb və nəticə əlaqələrinin qanunauyğunluqlarını müəyyən etməyi, nəticə çıxarmağı və ümumiləşdirmələr aparmağı öyrənirlər. Ümumiyyətlə, tədris metodlarının bütün təhlil formalarının SDU-da tətbiqi mümkündür. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi tədrisin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir.

Tədris prosesinə müəllimin yaradıcı yanaşması zamanı tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq, uyğunlaşdırılmış tədris metodlarının tətbiqi təlimin səmərəliliyini yüksəldir. Tədris prosesinin aktiv öyrənməni təsdiq edən texnoloji imkanları və yanaşmaları kifayət qədər yüksəkdir. SDU-da təlim və tədris metodlarını və interaktiv öyrənməni təsdiq etmək üçün mütəmadi olaraq təlimlər, seminarlar və digər tədbirlər keçirilir.

İxtisaslaşdırılmış auditoriya və laboratoriyaların əksəriyyəti proyektorlarla və ağıllı lövhələrlə, sürətli internetlə təchiz olunub. İnteraktiv tədris vasitələrindən geniş istifadə edilir.Laboratoriya işləri uyğun təlimatlar - metodik göstərişlər əsasında icra olunur. Mühəndislik fakültəsinin tələbələri üçün “Gənclərin rəqəmsal texnologiyalardan səmərəli istifadəsi yolları" layihəsinə dair seminar keçirilir.

(https://www.sdu.edu.az/az/news/1454) Bu da tələbələrin bilik səviyyəsinə müsbət təsir göstərmiş və onların imtahan nəticələrində öz əksini tapmışdır.
Xarici universitetlərin alimləri SDU-nun magistrantlarının dissertasiya işlərinin müdafiəsində iştirak etdilər (https://www.sdu.edu.az/az/news/2215)
Məsələn:Mühəndislik fakültəsində Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan magistrant Tural Həsənlinin “Polimerləşmə prosesində keyfiyyətin avtomatik nəzarət sisteminin işlənməsi” mövzusunda dissertasiya müdafiəsində Bolqarıstanın Varna Texniki Universitetinin Avtomatika və idarəetmə kafedrasının müdiri,prof.Nikola Nikolov, həmin fakültənin dekanı və əməkdaşları, Ufa Dövlət Aviasiya Texniki Universitetinin rektor müşaviri,prof. Nafisa Yusupova və universitetin bir qrup professor-müəllim heyəti iştirak etdilər.

2020-2021-ci tədris ilində Fizika və elektroenergetika fakültəsində 060626-Elektrik mühəndisliyi ixtisası,-Sənaye qurğuları və texnoloji komplekslərin avtomatikası və elektrik intiqalı ixtisaslaşması üzrə təhsil alan magistrant Əhmədov Niyazi Musa oğlunun magistr dissertasiya işinin müdafiəsində Ufa şəhərindəki Universitetin bir qrup professor-müəllim heyəti iştirak etdilər.

Aprelin 5-də Ufa Dövlət Neft Texniki Universitetinin Avtomatlaşdırma, telekommunikasiya və metrologiya kafedrasının təşkil etdiyi “Texniki sistemlərin avtomatlaşdırılması” adlı V Beynəlxalq olimpiadada Elektroenergetika mühəndisliyi ixtisası üzrə təhsil alan tələbəsi (Əli-zadə Ceyhun) iştirak etmişdir. *(*https://www.sdu.edu.az/az/news/2086)

- SDU-da “İnsan-kompüter qarşılıqlı münasibətlərin psixoloji aspektləri” mövzusunda təqdimat keçirilib (https://www.sdu.edu.az/az/news/2389)
  Mühəndislik fakültəsinin dekan müavini, İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının baş müəllimi Svetlana Əhmədova “İnsan-kompüter qarşılıqlı münasibətlərin psixoloji aspektləri" mövzusunda təqdimatla çıxış etdi.
- SDU-nun əməkdaşı Türkiyənin Orta Doğu Teknik Universitetində yerləşən “İnsan-kompüter qarşılıqlı əlaqələri” laboratoriyasında ezamiyyətdə oldu (https://www.sdu.edu.az/az/news/2063)
  Ezamiyyət ali və orta ixtisas təhsilinin prioritet istiqamətləri üzrə inkişafa xidmət edən təşəbbüslərin dəstəklənməsi məqsədilə Təhsil Nazirliyinin “Ali və orta ixtisas təhsilinin 2021–2022-ci illər üzrə inkişafı” mövzusunda qrant müsabiqəsi çərçivəsində baş tutdu.
- SDU-nun əməkdaşları “İnsan-kompüter interfeysləri” sahəsində təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi” layihəsində iştirak etdilər (https://www.sdu.edu.az/az/news/2028)
  Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki universitetlərdə, paytaxt Bakı ilə yanaşı, Lənkəran, Mingəçevir və Naxçıvandan təyin olunmuş prioritet üç istiqamət: Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin beynəlxalq akademik mobilliyinin (xaricdən Azərbaycana və əksinə) təmin edilməsi; Təhsil müəssisələrinin elmi potensialının artırılması və elmi tədqiqat platformalarının istifadəsinin təmin edilməsi; İxtisaslar üzrə yeni və müasir tədris məzmununun hazırlanması və tətbiqi kateqoriyaları üzrə 9 layihə həyata keçirilir.
  "İnsan-kompüter interfeysləri" – erqonomika, psixologiya, kompüter elmləri, informasiya texnologiyaları, informatika, avtomatlaşdırılmış idarəetmə nəzəriyyəsi və s. bu kimi elmlərin nailiyyətlərini özündə birləşdirərək aktiv inkişaf edən bir tədqiqat sahəsidir. Kafedranın baş müəllimi Svetlana Əhmədovanın rəhbərliyi ilə əməkdaşlar tərəfindən “İnsan-kompüter interfeysləri” sahəsində dərs vəsaiti və assistenti Mehriban Səlimova tərəfindən laboratoriya işlərinin yerinə yetirilməsi üçün metodik vəsait hazırlanaraq tələbələrin istifadəsinə verilmişdir.
  İxtisas kafedralarının professor-müəllim heyətinin tədris ilinin payız və yaz semestrl üçün açıq dərs qrafikləri tərtib edilir, uyğun kafedra müdirləri və fakültə dekanı tərəfindən təsdiq

edilir. Qrafikdən kənar açıq dərslər də təşkil edilir. SDU-nun və fakültənin Tədris-metodik şurasının sədrlərinin, dekanlığın, kafedraların aparıcı müəllimlərinin iştirakı ilə müəllimin dərsi dinlənilir və prtokollaşdırılır. Fakültə Elmi Şurasının və kafedra iclaslarında müzakirə edilir.

Tədris olunan fənlər üzrə dərs vəsaitləri, metodik göstərişlər, laboratoriya təlimatları, mühazirə materiallarının vəziyyəti Fakültə Elmi Şurasının iclaslarında müzakirə edilir. Tədris metod və üsullarının təkmilləşdirilməsi üçün tövsiyələr verilir.

---

Kimya və biologiya fakültəsinin tələbələri üçün bir çox layıhələrə dair seminarlar keçirilmişdir:

“Sənaye istehsalat və məişət tullantılarının idarə olunması” mövzusunda Elmi-praktik seminar layihəsinə dair təlimlər keçirilb. https://sdu.edu.az/az/news/981

“Tullantıların idarə olunması”na dair silsilə maarifləndirmə tədbirlərinin aparılmaşdır. http://philosophy.edu.az/index.php?newsid=400

Ənənəvi olaraq hər il “Beynəlxalq Yer Kürəsi Günü” mövzusuna həsr olunmuş Elmi-praktik seminarın keçirilməsi. https://sdu.edu.az/az/news/1138

Azərbaycan Respublikası Prezidentinin 13 may 2007-ci il sərəncamı ilə 23.05.2007-ci il tarixi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının “Peşə Bayramı”günü kimi qəbul edilmiş və Prezidentin bu sərəncamını əsas tutaraq hər il ənənəvi olaraq bu günü yəni, 23 may tarixini Ekologiya kafedrası “Ekologiya günü”nə həsr olunmuş Elmi-praktik seminar keçirir https://sdu.edu.az/az/news/1187

“Təhlükəli tullantılar” poliqonuna mühəndis ekoloq tələbələrin (İstehsalat -təcrübi yönümlü ekskursiya) aparılması https://sdu.edu.az/az/news/1321

SDU-da Ekologiya gününə həsr olunmuş onlayn elmi-praktik seminar keçirildi. https://www.sdu.edu.az/az/news/1545

“Ekologiya və həyat fəaliyyətinin mühafizəsi: nailiyyətlər, problemlər” mövzusunda videokonfrans formatında Respublika elmi konfransın keçirildi.
https://www.sdu.edu.az/az/news/1555

“Azərbaycanda ekoloji terror” mövzusunda elmi-praktiki vebinar keçirildi.
https://www.sdu.edu.az/az/news/1644

Ekologiya Gününə həsr olunmuş onlayn formatda elmi-praktik vebinar keçirildi. https://www.sdu.edu.az/az/news/1782

“Nizami Gəncəvi yaradıcılığında təbiət sevgisi” mövzusunda onlayn formatda elmi-praktiki vebinar keçirildi. https://www.sdu.edu.az/az/news/1738

“Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi” mövzusunda elmi-praktiki vebinar keçirildi. https://www.sdu.edu.az/az/news/1682

“İşğaldan azad olunmuş ərazilərdə bərpa işləri” mövzusunda elmi-praktik vebinar keçirildi. https://www.sdu.edu.az/az/news/1944

Bu seminarlar tələbələrin bilik səviyyəsinə müsbət təsir göstərmiş və onların imtahan nəticələrində öz əksini tapmışdır.

İxtisas kafedralarının professor-müəllim heyətinin tədris ilinin payız və yaz semestri üçün açıq dərs qrafikləri tərtib edilir, uyğun kafedra müdirləri və fakültə dekanı tərəfindən təsdiq edilir. Qrafikdən kənar açıq dərslər də təşkil edilir.SDU-nun və fakültənin Tədris-metodik şurasının sədrlərinin, dekanlığın, kafedraların aparıcı müəllimlərinin iştirakı ilə müəllimin dərsi dinlənilir və prtokollaşdırılır. Fakültə Elmi Şurasının və kafedra iclaslarında müzakirə edilir. Tədris olunan fənlər üzrə dərs vəsaitləri, metodik göstərişlər, laboratoriya təlimatlar, mühazirə materiallarının vəziyyəti Fakültə Elmi Şurasının iclaslarında müzakirə edilir. Tədris metod və üsullarının təkmilləşdirilməsi üçün tövsiyyələr verilir.

İnteraktiv tədris vasitələrindən geniş istifadə tələbələrin bilik səviyyəsinə müsbət təsir göstərmiş və onların imtahan nəticələrində öz əksini tapmışdır. Xarici universitetlərin alimləri SDU-nun magistrantlarının dissertasiya işlərinin müdafiəsində iştirak etdilər (https://www.sdu.edu.az/az/news/2215)

Koronavirus(COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yayıldığı zaman Təhsil Nazirliyinin göstəriş və məsləhətlərinə uyğun olaraq Sumqayıt Dövlət Universitetinin bütün fakultələrində, dərslərin distant keçirilməsi üçün tədris prosesi onlayn formada təşkil olunmuşdur. Laboratoriya işlərinin yerinə yetirilməsi üçün tələbələrə metodik göstərişlər verilmiş və onlara nəzəri hissələrin öyrənilməsi tövsiyə edilmişdi.Tələbələr bəzi proqramlardan istifadə etməklə laboratoriya işlərini yerinə yetirib hesabatlarını müəllimlərə təqdim edirdilər.Məsələn,Güc elektronikası fənnindən laboratoriya işləri EÜB simulyasiya proqramı vasitəsilə yerinə yetirilirdi. (https://www.sdu.edu.az/az/news/1491)

SDU-da “Azərişıq “ ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə və Tədris Mərkəzinin digər nümayəndələrinin tələbələr ilə görüşü keçirilmişdi.Hazırda ölkədə təhsilin müxtəlif səviyyələrində energetika sektoru üçün mütəxəssislər hazırlanır.Bu istiqamətdə ölkə prezidenti tərəfindən təsdiq olunmuş Dövlət proqramları uğurla icra olunur,yeni nəsil mütəxəssislər yetişdirilir.Bu baxımdan SDU-da da bu istiqamətdə müəyyən işlər görülmüşdür. Elektromexanika kafedrasının “Azərişıq” ASC-nin Tədris Mərkəzində açılmış filialında tələbələr müəyyən laboratoriya dərslərini aparır və gənc mütəxəssis kimi“Azərişıq” ASC-də işlə təmin olunurlar.
(https://www.sdu.edu.az/az/news/227)

Sumqayıt Dövlət Universitetinin Fizika və onun tədrisi metodikası kafedrasının professoru, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun Kosmik şüa mənbələrinin fizikası laboratoriyasının rəhbəri, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Vəli Hüseynov Fransanın Paris şəhərində keçirilmiş 73-cü Beynəlxalq Astronavtika Konqresində iştirak edib. (https://www.sdu.edu.az/az/news/2268)

SDU-nun alimləri “Uçan külək sənaye elektrik stansiyası” mövzusunda keçirilən beynəlxalq dəyirmi masada iştirak etdilər. Fevralın 16-da Sumqayıt Dövlət Universitetinin əməkdaşları: Elm və innovasiyalar üzrə prorektor professor R.S. Məmmədov, Bərk cisim və yarımkeçiricilər fizikası kafedrasının müdiri professor M.M. Zərbəliyev, Elektrotexnika və energetika kafedrasının müdiri dosent N.M.Hacıbalayev və Elektromexanika kafedrasının müdiri dosent T.K. Hüseynov, Rusiya Federasiyasının Qroznı şəhərində Federal Dövlət Büdcə Ali Təhsil Təşkilatının dəstəyi ilə Akademik M.D. Millionşikov adına Qroznı Dövlət Neft Texniki Universiteti tərəfindən "Qroznı şəhərində Uçan külək sənaye elektrik stansiyası" mövzusunda “ZOOM” platforması üzərindən onlayn formatda keçirilən dəyirmi masada iştirak etdilər. (https://www.sdu.edu.az/az/news/2034)

Fizika və elektroenergetika fakultəsinin əməkdaşları-Fakultənin dekanı dos.T.Ə.Əhmədova, Bərk cisim və yarımkeçiricilər fizikası kafedrasının müdiri, prof.M.M.Zərbəliyev və Elektromexanika kafedrasının müdiri, dos.T.K.Hüseynov Sankt-Peterburq Politexnik Universiteti,Kazan Dövlət Energetika Universiteti ilə Sumqayıt Dövlət universitetinin kafedraları arasında birgə elmi-tədqiqat və tədris-metodik işlərin aparılması,akademik mobillik vəs. İşlərin müzakirəsi məqsədi ilə Rusiya Federasiyasının Sankt-Peterburq və Kazan şəhərlərinə ezam olunmuşlar. **ƏmrNoK-55/3,17.04.2018.**
Fakultənin Elektromexanika kafedrasının baş müəllimi N.İ.Hacıyev və SDU-nun digər əməkdaşları ERASMUS+PETRA Azərbaycan Universittlərində tədris və təlimdə mükəmməlliyin təşviqi layihəsi çərçivəsində Valensiya Universitetində keçirilən təlimlərdə iştirak etmək üçün İspaniya Krallığının Valensiya şəhərinə ezam olunmuşdur. **ƏmrNoK-90/3,29.05.2018.**

Elektromexanika kafedrasının müdiri,dos.T.K.Hüseynov Elektrik mühəndisliyi ixtisası üzrə birgə bakalavr və magistr hazırlığında tədris planlarının hazırlanması,qısamüddətli ixtisasartırma kurslarında və KDEU-da elmi-praktiki konfransda iştirak etmək məqsədi ilə Rusiya Federasiyasının Kazan şəhərinə ezam olunmuşdur. **ƏmrNoK- 195/3, 01.11.2018.**

Bərk cisim və yarımkeçiricilər fizikası kafedrasının dosenti X.V.Əliquliyeva

Tacikistan Respublikası Fizika cəmiyyəti tərəfindən Kvant elmi informasiya və kvant texnologiyalarında yeni nailiyyətlər adlı yay məktəbində təqdimatla çıxış etmək üçün Səmərqənd şəhərinə ezam olunmuşdur. **ƏmrNºK- 105/3, 03.09.2019.**

Fizika və onun tədrisi metodikası kafedrasinda tədris metodiki işlərin səmərəli surətdə həyata keçirilməsi üçün daima müvafiq işlər görülür. Bu işlər içərisində 2 əməkdaşın Kurikulum sahəsində kurs keçərək sertifikat alması, müasir tələblərə uyğun "Kurikulumun əsasları" adlı dərs vəsaitinin yazılaraq tələbələrin ixtiyarına verilməsi, kurikulum fənninə aid yeni standartlara uyğun "Fizikanın tədrisində kurikulum" adlı syllabus - işçi proqramının və kurikulum üzrə yeni test tapşırıqlarının hazırlanması kimi işlər görülmüşdür. Bundan əlavə Fizikanın tədrisi metodikası fənni üzrə Təhsil Nazirliyinin qrifi olan proqram, yeni standartlara uyğun syllabus - işçi proqram, müəllim hazırlığı üzrə Dövlət qəbul komissiyasının tələblərinə uyğun test tapşırıqları da hazırlanmışdır. Fizikanın tədrisi istiqamətində "Fizikanın tədrisi metodikasının müasir problemləri" və "Orta məktəb kursunda molekulyar fizika və onun tədrisi" dərs vəsaitləri Təhsil Nazirliyinin qrifi ilə çap olunaraq tələbələrin ixtiyarına verilmişdir.

### 3.5. Təlim və tədris resursları

SDU-da tədris perosesində təlimin keyfiyyətinin artırılması məqsədilə tətbiq olunan interaktiv metodlardan istifadə zamanı informasiya-kommunikasiya texnologiyaları və digər vasitələr əhəmiyyətli rol oynayır. İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi müxtəlif tədris növlərinin (mühazirə, seminar, laboratoriya işi, praktik məşğələ) həyata keçirilməsində onlardan istifadə olunmasına imkan vermişdir. SDU-da auditoriyalar elektron lövhə və proyektorla təhciz olunmuşdur. ixtisaslaşmış auditoriyalarda İKT sistemləri ilə tam təhcizat mövcuddur. Universitetin elektron kitabxanası müasir tələblərə uyğun səviyyədə qurulmuş və tələbələr tərəfindən istifadəsi, yəni əlçatanlıq yüksək səviyyədədir. Tədris prosesində əyaniliyi artırmaq üçün ixtisasların xarakterik xüsusiyyətlərini nəzərə alaraq, proyektorlar, noutbuklar, printerlər və digər avadanlıqlar tələbələrin istifadəsinə verilmişdir. SDU-da tələbələrin təlim prosesində iştirakını və aktivliyini qeydə alan elektron tədris platforması və elektron jurnal mövcuddur. Tədris onlayn formada aparıldıqda ondan uğurla istifadə edilir. Tələbə-gənclər klubu Sumqayıt Dövlət Universitetində 2000-ci ildən fəaliyyət göstərir. Yarandığı gündən Tələbə-gənclər klubunda üç yüzə yaxın universitetdaxili mədəni-kütləvi tədbir-disput, müsabiqə keçirilmişdir. Klubda "Səma" rəqs kollektivi, "Renesans" tələbə teatrı, dekorativ-tətbiqi sənətlər dərnəyi, "Tələbə" musiqi ansamblı fəaliyyət göstərir. Klubun əməkdaşları mədəni-kütləvi tədbirlərin, əlamətdar və tarixi günlərin, milli bayramların yüksək səviyyədə keçirilməsi üçün istedad və bacarıqlarını əsirgəmirlər. Məhz buna görədir ki, son bir neçə ildə klub və klubun bir sıra əməkdaşı Fəxri fərmanlara layiq görülmüş, mükafatlar almışdır.

2016, 2017 və 2018-ci illərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkil etdiyi "Tələbə baharı" IX, X və XI Ümumrespublika Tələbə Yaradıcılıq Festivalında universitetin "Səma" rəqs ansamblı Milli rəqslər nominasiyası üzrə III yerə layiq görülmüşdür. 2018-ci ildə Təhsil Nazirliyi və Azad Həmkarlar İttifaqının təşkil etdyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş universitet tələbələrinin bədii özfəaliyyət kollektivlərinin baxış müsabiqəsində uğurla çıxış edərək universitetin "Səma" rəqs ansamblı Milli rəqs üzrə II yerə, 2019, 2022-ci illərdə həmin müsabiqədə III yerə layiq görülmüşdür.

"Renessans" dram dərnəyinin əsas üzvləri fakültələrdə seçilən istedadlı tələbələrdən ibarətdir. Hər il bu tələbələrin sırası yeni istedadlarla zənginləşir. Bu dərnək 2000-ci ildən fəaliyyət göstərir. Tələbə teatrı bir qayda olaraq Azərbaycan ədəbiyyatının klassik və çağdaş nümayəndələrinin əsərlərinə müraciət edir, öz repertuarını daim zənginləşdirir.

"Tələbə" musiqi dərnəyi də 2000-ci ildən fəaliyyət göstərir. Bütün bayramların, əlamətdar günlərin musiqi hissəsini universitetin tələbə musiqiçiləri hazırlayır. SDU-nun

ictimai həyatında, bayram tədbirlərində fəal iştirak edən tələbə musiqiçilər və rəqs qrupu dəfələrlə qocalar evində, əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün Saray qəsəbəsindəki 7 saylı internat evində, hərbi hissələrdə təmmənasız konsert proqramı ilə çıxış etmişlər.

Klubun xor kollektivi "Xalq mahnıları", "Estrada musiqisi", "Muğam musiqisi" nominasiyası üzrə keçirilən "Tələbə baharı" Ümumrespublika Tələbə Yaradıcılıq Festivalında və Ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş universititet tələbələrinin bədii özfəaliyyət kollektivlərinin baxış müsabiqəsində müntəzəm olaraq çıxış etmiş və yüksək yer tutmuşlar. Zaur Səfərov həm də Sumqayıt Dövlət Universitetinin himninə (sözləri Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, "Əməkdar jurnalist" professor Avtandil Ağbabanındır) musiqi bəstələmişdir.

2018-ci ildən klubun nəzdində yaradılmış Şən və Hazırcavablar Klubunun "Subaylar" komandası fəaliyyət göstərir. Komanda Təhsil Nazirliyinin təşkilati dəstəyi ilə 2018-2019-cu tədris ilində ali təhsil müəsissələri arasında keçirilən Azərbaycan Regional Şən və Hazırcavablar Klubunun TV Liqasının final mərhələsində müvəffəqiyyətlə çıxış edərək diplomla təltif edilmiş və I yerə layiq görülmüşlər.

2019-cu ildə Azərbaycan xalqının çoxəsrlik ənənələrinə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunmuşdur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 yanvar tarixli Sərəncamına əsasən 2019-cu il "Nəsimi ili" elan edilmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilməsi nəzərdə tutulmuş silsilə tədbirlərin tərkib hissəsi olan "Hüsnü-cəmal, əqli-kamal" adlı ali məktəblərarası bədii qiraət müsabiqəsində Sumqayıt Dövlət Universiteti layiqincə təmsil olunmuşdur.

Klubda rəssamlıq və dekorativ sənətlər dərnəyi bir neçə ildir ki, fəaliyyət göstərir. Klubun tərtibatçı rəssamının rəhbərliyi ilə dərnək üzvlərinin rəssamlıq və dekorativ sənət nümunələri nümayiş etdirilir, maraqlı sərgilər təşkil olunur, kollektiv tərəfindən rəğbətlə qarşılanır.

Milli təhsil sistemində həyata keçirilən layihələr, aparılan islahatlar çərçivəsində Elm və Təhsil Nazirliyinin 22.08.2014-cü il tarixli 913 saylı əmri ilə təsdiq olunmuş tədris proqramlarında bakalavriat səviyyəsinin ixtisasları üzrə Bədən tərbiyəsi və idman fənni nəzərdə tutulmadığına görə SDU-nun Elmi Şurasının qərarına əsasən (29.05.2015, prot.№08) Bədən tərbiyəsi və idman kafedrası ləğv olundu. Elmi Şuranın 02.10.2015-ci il tarixli iclasının (prot.№01) qərarı ilə kafedranin bazasında İdman klubu yaradılmışdır. Universitetin idman bazasında böyük idman zalı əsaslı təmirdən sonra müasir standarta uyğun formaya malik olmuşdur. İdman klubunda 1 nəfər Əməkdar məşqçi, 4 nəfər məşqçi-müəllim fəaliyyət göstərir.

Mühəndislik fakültəsi yeni laboratoriyalar və müasir texniki avadanlıqlarla təchiz olunub (https://www.sdu.edu.az/az/news/1269)

SDU-da "İKT-yə əlçatanlıq sahəsində rəqəmsal bacarıqlar" adlı seminar təşkil olundu (https://sdu.edu.az/az/news/2189)

SDU-nun elektron portalı mövcuddur və tələbələrin istifadəsinə açıqdır.

Tədris laboratoriyaları və dövrün tələblərinə cavab verən laboratoriya avadanlıqları, ağıllı lövhələrlə, və proyektorlarla (8 ədəd) təchiz olunub.

Fakültə nəzdində 12 tədris laboraroiyası müasir kompüterlərlə təchiz olunub, (80 ədəd kompüter, 17 ədəd noutbuk, 5 ədəd ağılı lövhə) sürətli interlə təchiz olunub.

Hər tələbəyə 3 $m^2$ faydalı auditoriya sahəsi düşür.

Hər tədris ili üzrə fakültədə tələbata uyğun olaraq yeni auditoririyalar yaradılır.

Fakültənin professor- müəllimləri tərəfindən azərbaycan dilində nəşr olunmuş dərslik və dərs vəsaitləri Elmi kitabxanaya təqdim olunur və mütəmadi təqdimatı keçirilir. Bütün bu nəşrlər Elmi kitabxananın fonduna daxil edilir (son 7 ildə çap olunanlar).

Elmi kitabxananın elektron və biləvasitə imkanları universitetin tələbə və akademik heyətinin sayına uyğun inkişaf dinamikasındadır.

SDU-nun Elmi kitabxanasında mütəmaddi olaraq kitab təqdimatı keçirilir.

(https://sdu.edu.az/az/news/2166)

Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılır. Sıradan çıxmış avadanlıqlar bərpa edilir. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu təmin edilir və təhsilalanlar elektron kitabxanadan geniş istifadə edir. Universitetin rəsmi elektron səhifəsindəki məlumatlar yalnız təhsilalanlar üçün deyil, həmçinin daim ictimaiyyətə açıqdır. ( www.sdu.edu.az ) Universitetin həyatında baş verən yeniliklər,tədrislə bağlı inkişaf,tədris resursları,elmi praktik konfranslar və onların materialları və s. universitetin rəsmi saytında ictimaiyyətə çatdırılır. Mühəndislik fakültəsində Sağlamlıq imkanları məhdud 15 tələbə təhsil alır. Tədris prosesində onlar daim diqqətdə saxlanılır. Xüsusi qayğı ilə yanşılır. Bu tələbələrin dərsləri adətən əsas tədris binasının birinci mərətəbəsində təşkil edilir. Akademik heyət və təhsilalanlar bu tələbələrimizə dərslərində dəstək olur. Onların tədrisi universitetdə 2016-cı ildə yaradılmış İnklüziv mərkəzdə təşkil edilir. Mərkəzdə görmə və eşitmə qüsurlu tələbələr üçün xüsusi tədris vəsaitləri və avadanlıqlar mövcuddur. Avropa İttifaqının maliyyə dəstəyi, UNİCEF-in, Regional İnkişaf İctimai Birliyinin, Elm və Təhsil Nazirliyinin birgə dəstəyi və 5 tərəfdaş Universitet ilə İnklüziv təhsil layihəsində təlimlər keçirilmişdir. Təlimlər beynəlxalq ekspertlər tərəfindən keçilmişdir. Tərəfdaş universitetlərdən biri SDU olduğu üçün 7 əməkdaşımız İnklüziv təhsilin təşkili ilə bağlı beynəlxalq təlimdə iştirak etmiş və sertifikatla təltif olunmuşdur.

Universitetdə psixoloji mərkəz fəaliyyət göstərir. Filologiya fakültəsinin Pedaqogika və psixologiya kafedrasının səriştəli müəllim-psixoloqları təhsilalanlara psixoloji dəstək göstərir. Bununla yanaşı sözügedən kafedranın müəllim-psixoloqları davamlı olaraq fakültələrdə tələbələrlə görüşlər keçirir.

Kimya və biologiya fakültəsi yeni laboratoriyalar və müasir texniki avadanlıqlarla təchiz olunub. SDU-nun elektron portalı mövcuddur və tələbələrin istifadəsinə açıqdır.

Tədris laboratoriyaları və dövrün tələblərinə cavab verən laboratoriya avadanlıqları, ağıllı lövhələrlə və proyektorlarla (8 ədəd) təchiz olunub. Hər tələbəyə 3 $m^2$ faydalı auditoriya sahəsi düşür. Hər tədris ili üzrə fakültədə tələbata uyğun olaraq yeni auditoriyalar yaradılır. Fakültənin professor- müəllimləri tərəfindən azərbaycan dilində nəşr olunmuş dərslik və dərs vəsaitləri Elmi kitabxanaya təqdim olunur və mütəmadi təqdimatı keçirilir. Bütün bu nəşrlər Elmi kitabxananın fonduna daxil edilir (1 monoqrafiya, 8 metodiki vəsait, 5 dərslik, 30 dərs vəsaiti).

Mütamaddi olaraq SDU-nun Elmi kitabxanasında kitab təqdimatı keçirilir.

(https://sdu.edu.az/az/news/2166)

Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılır. Sıradan çıxmış avadanlıqlar bərpa edilir. Kimya və biologiya fakültəsində Sağlamlıq imkanları məhdud 4 tələbə təhsil alır. Tədris prosesində onlar daim diqqətdə saxlanılır.Xüsusi qayğı ilə yanşılır.

Fizika və elektroenergetika fakültəsi yeni laboratoriyalar və müasir texniki avadanlıqlarla təchiz olunub (https://www.sdu.edu.az/az/news/1269)

SDU-da "İKT-yə əlçatanlıq sahəsində rəqəmsal bacarıqlar" adlı seminar təşkil olundu (https://sdu.edu.az/az/news/2189) SDU-nun elektron portalı mövcuddur və tələbələrin istifadəsinə açıqdır. Tədris laboratoriyaları və döxvrün tələblərinə cavab verən laboratoruy avadnlıqları, ağıllı lövhələlə və proyektorlarla (3 ədəd) təchiz olunub.

Fizika və elektroenergetika fakültəsində müasir tələblərə cavab verən 20 tədris və 2 Elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.Fakultənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ciddi addımlar atılmış, auditoriyalar müasir tələblərə cavab verən cihaz və stendlərlə təchiz olunmuşdur. Fakultədə 2 kompyuter otağı tələbələrin istifadəsinə verilmişdir. Yeni laboratoriyalar Fizika, Fizika müəllimliyi, Elektrik və elektronika mühəndisliyi, Energetika mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələrin peşə kompitensiyalarına yiyələnmələri üçün nəzərdə tutulmuşdur. Elektrik intiqalı nəzəriyyəsi, Elektrik intiqalının istismarı, təmiri və sazlanması,Elektrik intiqalının layihələndirilməsi,Tipik

istehsalat mexanizmlərin avtomatlaşdırılmış elektrik intiqalı,Elektrik intiqallarının diaqnostikası fənlərindən laboratoriya işlərini yerinə yetimək üçün universitetdə yeni yaradılmış müasir tipli stendlərdən istifadə olunur. Elektrik maşınları,Elektrik maşınlarının əsasları ,Kişik güclü elektrik maşınları fənnindən laboratoriya laboratoriya dərsləri müasir tipli Almaniyadan alınmış “Leybold” elektrik maşınları dərs vəsaiti stendi; Kişik güclü elektrik maşınları üçün kompüter sistemli dərs vəsaiti laboratoriya stendindən istifadə etməklə həyata keçirilir. Fakultənin 3 kafedrasının sənaye müəssisələrində filialları yaradılmışdır. Elektromexanika kafedrasının filialı Azərişıq ASC-də, Bərk cisim və yarımkeçiricilər fizikası kafedrası və Elektrotexnika və energetika kafedralarının filialları isə Azərenerji ASC Şimal RETCİ-də fəaliyyət göstərir. Elektromexanika kafedrasında bəzi fənlərdən laboratoriya işləri Azərişıq ASC-nin filialında keçirilir. Fakultənin tələbələri istehsalat təcrübəsini də həmin müəssisələrdə keçirlər. Təhsilin keyfiyyətini yüksəltmək məqsədi ilə bu laboratoriyalardan başqa universitetin həyətində açıq səma altında Elektroenergetikanın tədris muzeyi və tədris poliqonu (110 kV-luq yarımstansiya) yaradılmışdır. 13 dekabr 2019-cu il tarixində Elektromexanika kafedrasının müdiri,dosent T.K.Hüseynov Kazan Dövlət Energetika Universitetinin tələbələri və gənc alimləri qarşısında icmal mühazirə ilə çıxış etmiş, dosent N.M.Hacıbalayev (2019) və dosent Ş.H.Məmmədov (2018) Kazan Dövlət Energetika Universitetinin tələbələrinə məharət dərsləri keçmişlər. (61 ədəd kompüter, 9 ədəd noutbuk, 6 ədəd ağılı lövhə) sürətli internetlə təchiz olunub. Hər tələbəyə 3 m$^2$ faydalı auditoriya sahəsi düşür. Hər tədris ili üzrə fakültədə tələbata uyğun olaraq yeni auditoririyalar yaradılır. Fakültənin professor-müəllimləri tərəfindən azərbaycan dilində nəşr olunmuş dərslik və dərs vəsaitləri Elmi kitabxanaya təqdim olunur və mütəmadi təqdimatı keçirilir.
(https://www.sdu.edu.az/az/news/2273) Bütün bu nəşrlər Elmi kitabxananın fonduna daxil edilir. Son 7 ildə Fizika və elektroenergetika fakultəsində 4 dərslik,13 dərs vəsaiti,14 metodik vəsait, 2 monoqrafiya nəşr edilmişdir. 25-dən artıq məqalə impact faktorlu jurnallarda nəşr olunmuşdur. Elmi kitabxananın elektron və bilavasitə imkanları universitetin tələbə və akademik heyətinin sayına uyğun inkişaf dinamikasındadır. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılır. Sıradan çıxmış avadanlıqlar bərpa edilir. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu təmin edilir və təhsilalanlar elektron kitabxanadan geniş istifadə edir. Universitetin rəsmi elektron səhifəsindəki məlumatlar yalnız təhsilalanlar üçün deyil, həmçinin daim ictimaiyyətə açıqdır. ( www.sdu.edu.az ) Universitetin həyatında baş verən yeniliklər,tədrislə bağlı inkişaf, tədris resursları, elmi praktik konfranslar və onların materialları və s. universitetin rəsmi saytında ictimaiyyətə çatdırılır. Fizika və elektroenergetika fakültəsində Sağlamlıq imkanları məhdud 3 tələbə təhsil alır. Tədris prosesində onlar daim diqqətdə saxlanılır. Xüsusi qayğı ilə yanşılır. Akademik heyət və təhsilalanlar bu tələbələrimizə dərslərində dəstək olur. Tərəfdaş universitetlərdən biri SDU olduğu üçün 7 əməkdaşımız İnklüziv təhsilin təşkili ilə bağlı beynəlxalq təlimdə iştirak etmiş və sertifikatla təltif olunmuşdur. Təlim keçmiş 7 əməkdaşımız öz növbəsində SDU-da müəllimlik ixtisasında dərs deyən 94 müəllimə təlimlər keçmişdir. Fizika və elektroenergetika fakultəsinin 12 müəllimi bu təlimlərdə iştirak etmiş və sertifikat almışdır.

.

### 3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

SDU-da təhsil proqramı üzrə hazırlığın keyfiyyəti ayrı-ayrı proqramlar üzrə təhsil alanların imtahanlarının, buraxılış işlərinin, dövlət imtahanlarının nəticələrinin təhlili əsasında müəyyənləşdirilir. Universitetdə təhsilalanların müvafiq proqramları mənimsəmə səviyyəsi və təhsil proqramları üzrə hazırlıq keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. SDU-da tələbələrin biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 1059, 1160 saylı 11.09.2008-ci il tarixli əmrləri ilə

təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında Əsasnaməsi”nin, “Kredit sistemi ilə təhsil alan tələblərin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamənin” tələblərinə uyğun olaraq həyata keçirilir ( imtahan sessiyası əmr R-55/1, 12.12.2023-cü il). Universitetdə bütün təhsil proqramları üzrə bir qayda olaraq imtahanlar kredit sisteminin tləblərinə uyğun olaraq yazılı formada aparılır. Hər bir bilet 5 sualdan ibarət tərtib olunur, tələblərin sualları cavablandırmaları üçün 3 saat vaxt ayrılır. Cavab vərəqləri yığılaraq şifrələnir və fənn müəllimləri tərəfindən yoxlanılaraq qiymətləndirilir. İmtahan sessiyası ərzində yarana biləcək tələblərin narazılığını araşdırmaq üçün Apellyasiya Komissiyası və Operativ gərargah fəaliyyət göstərir. Məşğələ dərsi olan fənnlərdən hər ay cari qiymətləndirmə məqsədilə kollokvium keçirilir. Kollokviumun nəticələri fənn müəllimi tərəfindən akademik qruplarda müzakirə olunur. Tələbələrə ÜOMG-si yüksək olan dövlət sifarişi ilə qəbul olunmuş və əlavə (AR Prezidentinin sərəncamına əsasən) sayda təqaüd verilir. Seminar dərsləri üz-üzə, açıq formada, sərbəst işlərin yoxlanması zamanı qarışıq və ya məsafədən qiymətləndirmə formalarından istifadə edilir. Təhsilalanların biliyinin qiymətləndirilməsi zamanı ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması üçün xüsusi meyarlar mövcuddur. Təhsilalanların biliyi SDU-nun 2016-cı ildə nəşr edilmiş Kredit təhsil sistemi –normativ-hüquqi sənədlər toplusunda olan (səh.31-38) “Kredit təhsil sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi” meyarları ilə tənzimlənir. Bumeyarlar əsasında təhsilalanlarda özünü qiymətləndirmə bacarığı formalaşır, sərbəst öyrənmə istəyi yaradılır və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olunur. Təhsilalanların biliyi məşğələ və laboratoriya dərslərində gündəlik qiymətləndirilir. Semestr ərzində (1 aylıq tədris olunan mövzulara görə) 3 dəfə kollokvium keçirilir. Təhsilalanların imtahana qədər balı fənnin sərbəst işinə (20bal), laboratoriya və ya məşğələ (30bal) (və ya hər ikisi (15+15bal)) dərslərində topladığı bala görə formalaşır. Nəticələr dərhal elektron formada təhsilalanlara göndərilir. Təhsilalanların imtahanlarının nəticələri 50-balliq qiymətləndirmə əsasında müəyyən olur.

SDU-da tədrisin keyfiyyətinin və tələbələrin biliyinin qiymətləndirilməsinin mövcud vəziyyətinin öyrənilməsi, tələblərin və valideynlərin universitetə məmnunluq dərəcəsinin müəyyən edilməsi, onların rəy və təkliflərinin dinlənilərək idarəetmədə müvafiq qərarların qəbul edilməsində nəzərə alınması qarşıya qoyulan əsas vəzifələrdəndir.

Qeyd olunanları nəzərə alaraq, SDU rektorunun, tələblərlə və onların valideynləri ilə görüşləri təşkil edilir. İmtahan sessiyası dövründə və ümumiyyətlə, tədris ili ərzində mütəmadi olaraq “Açıq qapı” günləri keçirilir. “Açıq qapı” günlərində valideynlər, KİV nümayəndələri, QHT-nümayəndələri sərbəst iştirak edirlər, dərslərin və imtahanların gedişini izləyirlər və öz irad, rəy, təkilf və arzularını fakültə rəhbərliyinə və universitet rəhbərliyinə təqdim edirlər. Keçirilən görüşlərdə SDU-da tələblərin normal təhsil alması üçün yaradılan şərait və imkanlar, imtahan prosesi, valideyn-universitet əlaqələrinin vacibliyi, tələblərin sosial-məişət problemləri kimi məsələlər müzakirə olunur. Ümumiyyətlə, imtahan sessiyasının təşkili və keçirilməsi qaydaları, imtahanların gedişi və təşkili “Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə”yə və “Kredit sistemi ilə təhsil alan tələblərin fənlər üzrə imatahanları haqqında Əsasnamə” yə uyğun olaraq həyata keçirilir. İmtahanqabağı qazanılan balların maksimum miqdarı 50-dir. İmtahanda hər sualın qiymətləndirilməsi (hər sualın qiymətləndirilməsinə verilən balların maksimum miqdarı 10-dur) Əsasnamədə göstərilən meyarlar üzrə həyata keçirilir.

SDU-da sağlamlıq imkanları məhdud olan tələbələr xüsusi qiymətləndirmə üsullarından istifadə etməklə qiymətləndirilir. Cari və aralıq qiymətləndirmələri mövcud fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, obyektivlik və rəqabətlilik prinsipləri əsasında təşkil olunur. SDU-da Yekun Dövlət Qiymətləndirməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu tam təmin edilir. Bakalavriat səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 81-100 bal olan tələbələr buraxılış işi hazırlayırlar, qalan bütün tələbələr isə dövlət imtahanı verirlər. Magistrantlar bir qayda olaraq magistr dissertasiyası hazırlayırlar. SDU-da bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə

mütəmadi təhlillər aparılır, qiymətləndirmə prosesi daim izlənilir və təkmilləşdirilməsi istiqamətdə təhlillər aparılır. Cari və aralıq qiymətləndirmələrin aparılması Elm və Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə” nin tələblərinə uyğundur. Təhsil səviyyəsinin, yəni bakalavriat və magistratura səviyyələrinin bitirilməsi qaydaları və şərtlərinin sadə, aydın və tələbələr üçün əlçatan olması universitetdə təmin olunmuşdur və bu istiqamətdə aparılan işlərlə tələbələr məlumatlandırılır. Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri kifayət qədər sadə, aydın və asanlıqla başa düşülən formada olub, tələbələr üçün əlçatanlıq baxımından çox mükəmməldir. Tədris səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə tam uyğundur. Təhsil sənədlərinin qeydiyyatı kitabı və məzunların şəxsi işi mükəmməl formada hazırlanmışdır və Statistika və qeydiyyat şöbəsində səliqəli saxlanılır.
Təhsil alan təhsil səviyyəsi üzrə uyğun ixtisasların təhsil proqramındakı  bütün kreitləri qazandıqda ona Azərbaycan Respublikasının Em və Təhsil Nazirinin Dövlət sənədi - Diplom verilir.

Təhsil səviyyəsini uğurla bitirməyən şəxslər kontingentdə saxlanılır.(T-180/5,09.07.2018; T-93/5, 16.07.2020; T-123/5,17.07.2021; T-131/5,08.07.2022, T-157/5,12.07.2017; T-154/5, 10.07.2019; T-137/5, 04.05.2016,T-230/5,19.07.2016,T-159/5,19.07.2017; T-112/5,14.05.2018; T-207/5, 11.09.2018; T-166/5,22.07.2019; T-132/5,13.07.2022)

Bakalavriat səviyyəsində yekun dövlət imtahanı və ya buraxılış işlərinin müdafiəsi (N:3-29/3-2-012T/2023, 18.01.2023) və magistratura səviyyəsində dissertasiya işinin müdafiəsi üçün Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyi tərəfindən Dövlət Attestasiya Komissiyasının sədri təsdiq edilir. Daxili əmrlə (DM-05/6, 27.01.2023) komissiyalar (sədr və 4 nəfər komissiya üzvü) təsdiq edilir. Dövlət imtahanının və dissertasiya müdafiəsinin nəticəsi komissiyanın imzası ilə protokollaşdırılır.

## 3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

SDU-da akademik heyətin işə qəbulu, yüksəlişi və digər vəzifəyə təyinat mexanizmi mövcuddur və tətbiq edilən yanaşma şəffaf və ictimaiyyət üçün əlçatan formadadır. Hər tədris ilində iki dəfə, payız və yaz semestrlərində müsabiqə elan olunur, elan “Azərbaycan müəllimi” qəzetində dərc olunur, həmçinin universitetin rəsmi internet saytında yerləşdirilir. Digər vəzifəyə təyinat müvafiq struktur rəhbərinin, yəni prorektor və ya fakültə dekanının təqdimatı əsasında həyata keçirilir. Professor və dosent vəzifələrinə təyinat müvafiq ixtisas üzrə beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda və ya həmin jurnallara bərabər tutulan elmi nəşrlərdə məqaləsi dərc olunmuş və beynəlxalq elmi konfranslarda məruzə tezisləri olan, həmçinin professor vəzifəsinə elmlər doktoru elmi dərəcəsi olan, dosent vəizfəsinə isə fəlsəfə doktoru elmi dərəcəsi olan mütəxəssislər təyin edilir. Akademik heyətin pedaqoji, elmi və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar mövcuddur. Yəni pedaqoji və texnoloji səriştələrini yüksəldən, daim öz üzərində çalışan, müasir tədris metodlarından və İKT sistemindən geniş istifadə bacarıqlarına malik olan müəllimlərin əmək haqlarının artırılmasında nəzərə alınır.

Akademik heyətin interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər mütəmadi olaraq keçirilir. Xüsusən gənc müəllimlərin bu tədris metodlarını dərindən öyrənmələri üçün ciddi səy göstərilir, onlar sistemli şəkildə təlimlərdə iştirak edirlər. Akademik heyətin hər bir üzvü ixtisasartırma və ya stajkeçmə kurslarında iştirak edir. 2014-cü ildən başlayaraq xarici ölkə universitetlərində mübadilə proqramlarında akademik heyətin üzvləri sistemli şəkildə iştirak edirlər.  Akademik heyətin üzvləri beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında da fəal iştirak edirlər. Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi

mövcuddur. Tədris prosesində müəllimlərin İKT sistemindən, o cümlədən elektron lövhədən istifadə vərdişləri və bacarıqları yoxlanılır və qiymətləndirilir. SDU-da ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yüküknün bölgüsündə dürüst və şəfafaf meyarlar mövcuddur. Yəni tam ştatda olan, həm də cəlb olunan akademik heyət üçün dərs yükü eyni qanunauyğunluqla, mövcud qaydalara uyğun aparılır. Fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti 1:12+1:18 hədlərində dəyişir, universitet üzrə bu göstərici 1:16,2 qiymətindədir. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizdən çoxunun əsas iş yerinin müvafiq ATM-də olması vəziyyəti SDU-da çox yaxşıdır, belə ki, professor-müəllim heyətinin 92%-nin əsas iş yeri SDU-dadır. Professor müəllim heyətinin tədris köməkçi heyətə nisbəti 1:3 hədlərindədir.

Bəzi kafedralarda dərs yükünün çox olması ilə əlaqədar olaraq, kənardan professor-müəllim heyətinin cəlb olunmasına zərurət yaranır.

Daimi monitorinqlər keçirilir. SDU-nun Professor/müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi qaydaları mövcuddur. Professor/müəllim heyətinin qiymətləndirilməsi meyarlarına uyğun olaraq müəllimlərin məvacibi fərqləndirilir. Professor/müəllim heyəti 5 ildən bir ixtisasartıma kurslarında iştirak edir və sertifikatlar əldə edir.

Akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak edir: Türkiyənin Ankara şəhərində ERASMUS+ layihəsi çərçivəsində təlimlərdə, Fransanın Paris şəhərində Erasmus LPEB layihəsi çərçivəsində təlimlərdə, Təhsil Nazirliyinin akkreditasiya və nostrifikasiya və TAİEX-in təşkilatçılığı ilə “Ali təhsildə potensialın gücləndirilməsi” mövzusunda təlimlərdə, Avstriyanın Vyana Tətbiqi Elmlər Universitetində təlimlərdə, Finlandiyanın Yuvaskülə Universitetində təlimlərdə, İspaniyanın Valensiya Politexnik Universitetində təlimlərdə və beynəlxalq elmi konfransda, İsveçin Kral Texnologiyalar İnstitutunda təlimlərdə, Litvanın Vilnus şəhərində SMK Universitetində təlimlərdə, Bakı Biznes Universitetində Avropa Birliyi miqyasında Təhsilin Keyfiyyət Təminatı sahəsində ixtisaslaşmış təlimçilərin iştirakı ilə keçirilən tədbirdə EQAC layihəsi çərçivəsində Litva Vilnus şəhərində keçirilən təlimlərdə Erasmus EQAC layihəsi çərçivəsində İsveç Krallığının paytaxtı Stokholm Kral Texnologiyalar İnstitutunda təlimlərdə, Malta Respublikası Valetta şəhərində keçirilən təlimlərdə, Erasmus EQAC layihəsi çərçivəsində London şəhərində keçirilən təlimlərdə “Azərbaycanda Ali təhsilin qiymətləndirilməsinə dəstək” Tvinning layihəsi çərçivəsində təlimlərdə, Böyük Britaniyanın Leds şəhərində beynəlxalq proqramda, Erasmus EQAC layihəsi çərçivəsində İspaniya Krallığı Alikante şəhərində təlimlərdə, Rusiya Sankt-Peterburq Dövlət İqtisad Universitetində ixtisasartırma kursunda “İnsan-kompüter interfeysləri sahəsində təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi” layihəsi çərçivəsində Ankara, Orta Şərq Texniki Universitetində təlimlərdə iştirak etmişlər.

İxtisaslaşdırılmış auditoriyaların və laboratoriyaların əksəriyyəti proyektorlarla və ağıllı lövhələrlə, sürətli internetlə təchiz olunub. İnteraktiv tədris vasitələrindən geniş istifadə edilir. Laboratoriya işləri uyğun təlimatlar - metodik göstərişlər əsasında icra olunur.Laboratoriya işlərinin icrası üçün MATLAB, MATCAD, CİSCO, Labwiev, Electronworcbenc və s. kimi proqram paketlərindən innovativ və interaktiv metod kim istifadə edilir.Kadr hazırlığı mühəndis ixtisası yönümlü olduğundan tədris laboratoriyalarının imkanları praktiki tətbiqə əsaslanır.

Mühəndislik fakültəsinin tələbələri üçün “Gənclərin rəqəmsal texnologiyalardan səmərəli istifadəsi yolları" layihəsinə dair seminar keçirildi
https://www.sdu.edu.az/az/news/1454
Bu da tələbələrin bilik səviyyəsinə müsbət təsir göstərmiş və onların imtahan nəticələrində öz əksini tapmışdır
Mühəndislik fakültəsi yeni laboratoriyalar və müasir texniki avadanlıqlarla təchiz olunub https://www.sdu.edu.az/az/news/1269
SDU-da “İKT-yə əlçatanlıq sahəsində rəqəmsal bacarıqlar“ adlı seminar təşkil olundu
https://sdu.edu.az/az/news/2189

Kafedralar üzrə dərslər obyektiv və şəffaf şəkildə bölüşdürülür. Professorlara və dosentlərə fənnin tədrisinin bütün formaları üzrə (Elmi dərəcəli və ya baş müəllimlərə mühazirə, məşğələ, laboratoriya dərsləri, doktoranta, dissertanta, magistranta, buraxılış işinə rəhbərlik, Yekun DAK üzvü və ya sədri) dərs saatı verilə bilir. Baş müəllimlərə Fakültə Elmi Şurasının qərarı ilə mühazirə və eyni zamanda məşğələ, laboratoriya, təcrübə rəhbərliyiyi dərsləri həvalə edilir. Assistentlərə əsasən məşğələ-seminar, laboratoriya dərslərinin tədrisi həvalə edilir.

Fakültədə 4 ixtisas kafedrası fəaliyyət göstərir:

- Elektronika və kompüter texnikası
- İnformasiya texnologiyaları və proqramlaşdırma
- Avtomatika və idarəetmə
- Mexanika və nəqliyyat texnologiyaları

Fakültədə Bakalavriat səviyyəsi üzrə həm əyani, həm qiyabi şöbələrdə 7 ixtisas (050634 - Proseslərin avtomatlaşdırılması mühəndisliyi, 050620- Kompyuter mühəndisliyi, 050616- İnformasiya texnologiyaları, 050621- Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi, 050628- Mexanika mühəndisliyi, 050629- Mexatronika və robototexnika mühəndisliyi, 050623- Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi ixtisasları) üzrə kadr hazırlanır.

Magistratura səviyyəsi üzrə isə 060631- Kompüter mühəndisliyi ixtisası və ixtisaslaşması, 060632- İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisası və İdarəetmədə informasiya sistemləri ixtisaslaşması üzrə, 060628 -Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisası və Texnoloji proseslərin və istehsalın avtomatlaşdırılması ixtisaslaşması üzrə kadr hazırlanır.

Fakültədə 54 nəfərdən ibarət professor-müəllim və tədris-köməkçi heyəti:
o cümlədən 5 nəfər professor, 11 nəfər dosent, 18 nəfər baş müəllim, 3 nəfər assistent,
4 nəfər tyutor, 3 laboratoriya müdiri, 5 nəfər Böyük laborant, 5 nəfər laborant çalışır.

Hazırda fakültədə elmlər doktoru proqramı üzrə 1 nəfər doktorant, fəlsəfə doktoru proqramı üzrə 2 nəfər doktorant və 2 dissertant dissertasiya üzərində işləyir.

Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (593 tələbə ( 574 nəfər bakalavriat səviyyəsi üzrə + 19 nəfər magistratura səviyyəsi üzrə) , 37 nəfər professor-müəllim heyəti + 5 nəfər saat hesabı müəllim) təqribən 1/15 təşkil edir.

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 97 faizindən çoxunun əsas iş yeridir.

Müxtəlif müəssisələrdən elmi dərəcəli mütəxəsislər tədrisə cəlb olunmuşdur:
Bakalavriat səviyyəsində yekun dövlət imtahanı və ya buraxılış işlərinin müdafiəsi (N:3-29/3-2-012T/2023, 18.01.2023) və magistratura səviyyəsində dissertasiya işinin müdafiəsi üçün ARETN tərəfindən sədr təsdiq edilir. Bu sədrlər ARETN-nin tabeliyində olan Universitetlərin və Elmi-Tədqiqat İnstitutlarının professorlarıdır. Təhsil proqramarı üzrə nəzərdə tutulan İstesalat təcrübələrinə Müəssisələrdən rəhbərlər təyin edilir. Bütün hallarda onların əməyi saat hesabı ilə ödənilir. Xarici universitetlərin alimləri SDU-nun magistrantlarının dissertasiya işlərinin müdafiəsində iştirak edirlər.
(https://www.sdu.edu.az/az/news/2215)

Mühəndislik fakültəsində Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan magistrant Tural Həsənlinin "Polimerləşmə prosesində keyfiyyətin avtomatik nəzarət sisteminin işlənməsi" mövzusunda dissertasiya müdafiəsində Bolqarıstanın Varna Texniki Universitetinin Avtomatika və idarəetmə kafedrasının müdiri, prof.Nikola Nikolov, həmin fakültənin dekanı və əməkdaşları, Ufa Dövlət Aviasiya Texniki Universitetinin rektor müşaviri, prof. Nafisa Yusupova və universitetin bir qrup professor-müəllim heyəti iştirak etdilər.

Xarici ölkə universitetlərində təhsil almış və ya dissertasiya işini müdafiə etmiş və hazırda SDU-da fəaliyyət göstərən professor-müəllim heyətindən aşağıdakıları göstərmək olar:Filologiya fakültəsi prof.R.S.Məmmədov (Moskva Dövlət Universitetinin aspiranturası),

A.N.Abdullayev (Moskva Dövlət Universiteti), Ə.T.Musayeva (Moskva Dövlət Universiteti), Ə.İ.Rzayev (Misir Ərəb Respublikası); Kimya və biologiya fakültəsi üzrə-prof.M.M.Səmədov (Moskva Mineral Gübrələr üzrə Elmi Tədqiqat İnstitutu), b/m. A.E.Hüseynova (Kazan Kimya Texnologiya İnstitutu), b/m. İ.Y.Məmmədov (A.A.Jdanov adına Qorki Politexnik İnstitutu), b/m. B.Ə.Əhmədov (Türkiyə Respublikası Quru Qoşunları Ali Hərbi Məktəbi), Elmi işçi F.X.Şahgəldiyev (Lensovet adına Leninqrad Texnologiya İnstitutu); Fizika və eıektroenergetika fakültəsi üzrə-prof.M.M.Zərbəliyev (SSRi Elmlər Akademiyasının Fiziki Kimya Elmi Tədqiqat İnstitutu), dos.T.K.Hüseynov (Sankt-Peterburq Dəqiq Mexanika və Optika İnstitutu), dos.V.Q.Səttarov (N.E.Bauman adına Moskva Ali Texniki Məktəbi), dos. Z.A.Quliyev (N.E.Bauman adına Moskva Ali Texniki Məktəbi), dos.Ş.H.Məmmədov (Moskva Energetika İnstitutu); Mühəndislik fakültəsi üzrə-dos.Q.M.Məsurov (Rusiya S.İ.Vavilov adına Leninqrad Dövlət Optika İnstitutu), b/m. B.A.Allahverdiyev (Rusiya Qorki Politexnik İnstitutu); İqtisadiyyat və idarəetmə fakültəsi üzrə-dos. M.İ.Əhmədov (Leninqrad Maliyyə İqtisad İnstitutu); Tarix və coğrafiya fakültəsi üzrə-dos. M.A.Musayeva (Leninqrad Hidrologiya İnstitutu).

### 3.8. Tələbəyönümlü tədris

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin F-370 nömrəli 13.08.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş Bakalavriat səviyyəsinin mütəxəssis hazırlığı aparılan ixtisaslarlar üzrə Təhsil proqramlarına əsasən Təhsilalanların tədris planları Fakültə Elmi Şurasının (11.09.2020-ci il, pr.01; 27.05.2021-ci il, pr.07, 12.05.2022-ci il, pr.09, ) tövsiyyəsi ilə SDU-nun Elmi Şurasında (14.09.2020-ci il,16.06.2021-ci il,pr.09; pr.01,06.07.2022-ci il,pr.10) təsdiq edilir. Bu təhsil proqramlarına görə Qrupun illik tədris planları təsdiq edilir. Tələbələrini tirakı ilə Fərdi tədris planları (Full time –hər semestr 30 kredit, və ya Part time - hər semestr 20 kredit olmaqla) Tyutorun, Fakültə dekanının imzası ilə təsdiq edilir və Təhsilalanın imzası ilə qəbul edilir. Fərdi tədris planlarının əsası fakültə dekanlığında saxlanılır, surəti tələbədə qalır. Fərdi tədris planını göötürməyən tələbələr semestrin sonunda Universitet tələbələri sırasından xaric edilir. Tələbənin ərizəsi ilə onun Fərdi tədris planında dəyişiklik edilə bilər.

Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçimi təmin edilir. Fakültədə 4 tyutor fəaliyyət göstərir.

SDU-nun Təhsildə Keyfiyyət Təminatı Şöbəsi (TKTŞ) təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə hər tədris ilində mütəmadi olaraq təhsilalanlar arasında məmnuniyyət sorğuları təşkil edir. 2021/2022-ci tədris ilində 2561 təhsilalan, 2022/2023-cü tədris ilində isə 3355 təhsilalanlar arasında sorğular keçirilmişdir. Sorğunun nəticələri TKTŞ tərəfindən təhlil edilir və SDU-nun Elmi Şurasında müzakirəyə çıxarılır. Təhsilalanların sorğuda iştirakında artım dinamikası müşahidə edilir. Sorğuların təhlili nəticəsində müvafiq addımlar atılır. Karyera və məzunlarla iş mərkəzi də hər tədris ilinin sonunda məzunlarla əyani və yazılı sorğular keçirir. Bundan əlavə universitetdə müxtəlif sahələrdə sorğular keçirilir. Fakültələr yerlərdə təhsilalanlarla, TKTŞ akademik və texniki heyətlə, Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq isə ictimaiyyəti məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı mütəmadi olaraq sorğular keçirir.

Təhsilalanların şikayət və ya təkliflərinə SDU-nun və Fakültələrin nəzdində fəaliyyətdə olan tələbə təşkilatlarının (Fakültənin və SDU-nun Tələbə Gənclər Təşkilatının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin, Tələbə elmi cəmiyyətinin sədrlərinə, qrup nümayəndələrinə, tyutorlara, qrup kuratorlarına, dekanlığa, rektorluğa müraciət edə bilirlər.

Təhsilalanlara ATM tərəfindən, AR Prezidentinin sərəncamına əsasən, Təhsil işçilərinin Azad Həmkarlar Təşkilatının Respublika Komitəsinin sədri tərəfindən təsis edilmiş təqaüdlər (Hər semestr 3 nəfər tələbəyə 300 manat olmaqla) adlı təqaüdlər verilir.

-SDU-nun gənc ixtiraçıları “Gələcəyə baxış” Avrasiya Patent Universiadasının qalibləri sırasında ( https://www.sdu.edu.az/az/news/1812)
-SDU-nun tələbələri Beynəlxalq olimpiadada uğur qazandılar.
( https://www.sdu.edu.az/az/news/1721)
-SDU-nun beynəlxalq olimpiadada yer tutan tələbələrinə Ufa Dövlət Neft Texniki Universitetinin diplomu təqdim edildi (https://www.sdu.edu.az/az/news/1755)
(https://uust.ru/tk/publications/news/get/olimpiada-po-osnovam-avtomatizacii-upravleniya-v-t/)

Türkiyə Respublikası Sivas Anadolu Məslək liseyinin bir qrup şagird və müəllimindən ibarət heyət Sumqayıt Dövlət Universitetində.
(https://www.sdu.edu.az/az/news/1972)

Bütün tələbələr fərdi tədris-planının tərtib edilməsində iştirak edirlər. Tədris planlarında seçmə fənlərin tələbələr tərəfindən seçilməsinə sərbəstlik verilir. Təhsil verənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Boloniya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinə şərait yaradılır.

SDU-da tələbələr arasında keçirilən sorğuda irəli srülən təkliflər nəzərə alınır və müvafiq tədbirlər həyata keçirilir.

Akademik heyət xidmətlərinin keyfiyyəti və ümumi məmnunluq səviyyəsinin qiymətləndirilməsinə dair tələbələr arasında keçirilən rəy sorğusunun nəticələri ümumiləşdirilir, Elmi Şuranın iclaslarında dinlənilir və tələblərin təkliflərinə əsasən müvafiq qərarlar qəbul edilir. (Elmi Şuranın 21.12.2022-ci il tarixli iclasının (prot.№04) protokolu).

Təhsilalanların şikayət və təklifləri üçün SDU-da müxtəlif vasitə və mexanizmlər mövcuddur: bunlardan tələbələr arasında keçirilən rəy sorğularını, Apellyasiya komissiyasının mövcudluğunu, qaynar xətt və imtahan qərargahının mövcudluğunu, həmçinin universitet daxilində şikayət, rəy və təkliflərin təqdim olunması üçün qutunun mövcudluğunu göstərmək olar. Mütəmadi olaraq qutuya atılan məktublara baxılır və müvafiq tədbirlər həyata keçirilir.

Tələbələrin inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib olan akademik məsləhətçilər (tyutorlar) SDU-nun bütün fakültələrində mövcuddur. Təlimata uyğun olaraq hər 100 tələbəyə 1 nəfər akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında üzbə-üz, akademik qruplarda dərsdən sonra keçirilən iclaslar və ya onlayn formada keçirilən görüşlər vasitəsilə kommunikasiyalar həyata keçirilir. Həmçinin bütün fakültələrdə akademik qruplara bir müəllim kurator kimi təhkim olunmuşdur. Kurator, təhkim olunduğu akademik qrupun tələbələri ilə mütəmadi görüşlər keçirir, onların istək və arzularına uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir. Həmçinin tələblərin rəy və təkliflərini müvafiq struktur rəhbərinə çatdırırlar.

Sağlamlıq imkanları məhdud olan şəxslərin cəmiyyətə inteqrasiyası meyaraları tədris prosesində nəzərə alınır, onlara hərtərəfli dəstək göstərilir. Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2017-ci il tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” na uyğun olaraq SDU-da inklüziv təhsilin həyata keçirilməsi istiqamətində ardıcıl işlər həyata keçirilir, inklüziv təhsil üzrə Əsasnamə də təsdiq olunmuşdur.

SDU-da 2014-cü ildən başlayaraq, sağlamlıq imkanları məhdud olan uşaqlara dəstək tədbirləri geniş miqyasda həyata keçirilir, hazırda bu ənənə davam etdirilir və daha da gücləndirilir. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə SDU-da çox həssaslıqla yanaşılır və zərurət yarandıqda onlara dəstək göstərilir.

SDU-nun gənc ixtiraçıları “Gələcəyə baxış” Avrasiya Patent Universiadasının qalibləri sırasında HYPERLINK
"https://www.sdu.edu.az/az/news/1812" https://www.sdu.edu.az/az/news/1812

-SDU-nun tələbələri Beynəlxalq olimpiadada uğur qazandılar HYPERLINK "https://www.sdu.edu.az/az/news/1721" https://www.sdu.edu.az/az/news/1721

**3.9.Təhsil proqramlarının monitorinqi və yenilənməsi**

Avropa Müstəqil Akkreditasiya Agentliyi Sumqayıt Dövlət Universitetində akkreditasiyaya hazırlığın vəziyyəti ilə bağlı işlərə başladı. (https://www.sdu.edu.az/az/news/102)

SDU Tvente Universitetində TEMPUS layihəsi çərçivəsində təlimlərdə iştirak edən əməkdaşlarımız (https://www.sdu.edu.az/az/news/108) Almaniyada beynəlxalq seminarda da iştirak etmişlər. (https://www.sdu.edu.az/az/news/359)

Əməkdaşımız “Keyfiyyət təminatında təcrübə mübadiləsi” mövzusunda beynəlxalq səviyyəli vebinarda iştirak etdi. (https://www.sdu.edu.az/az/news/1952)

TEMPUS proqramı çərçivəsində “İsraildə, Azərbaycanda və Qazaxıstanda Yerin eko sisteminin kosmik vasitələrlə monitorinqi sahəsində ali təhsilin təkmilləşdirilməsi” layihəsinin Almaniyada növbəti seminarı keçirilmişdir. Seminarda universitetimiz tərəfindən Tədrisin təşkili və və təlim texnologiyaları üzrə prorektor, dosent Natiq Talıbov,Beynəlxalq əlaqələr üzrə prorektor dosent Qafar Atayev, Mühəndislik fakültəsinin dekanı, dosent Ulduz Ağayev Berlin Texniki Universitetində təşkil olunmuş “Ali təhsil müəssisələrində proseslərin idarə edilməsi” mövzusunda keçirilən seminarda çıxış edərək sertifikatla təltif olunmuşlar. (https://www.sdu.edu.az/az/news/371)

Universitetin alimləri Türkiyənin Qazi Universitetində səfərdə oldular

Noyabrın 20-dən 24-dək Türkiyə Respublikasının Qazi Universitetində ERASMUS + PETRA layihəsi çərçivəsində görüş keçirilmişdir. Görüşdə Qazi Universitetinin prorektoru prof. Yaşar Aydemir, fakültə rəhbərləri, müəllimlər o cümlədən layihənin koordinatoru İspaniyanın Valensiya Politexnik Univerisiteti və digər tərəfdaş universitetlərdən Vyana Tətbiqi Elmlər Universiteti, Macarıstanın Debrecen və Azərbaycanın bir çox ali təhsil müəssisələrinin nümayəndələri iştirak etdilər.Qardaş Türkiyə Respublikasının Qazi Universitetində ERASMUS + PETRA layihəsində universitetimizi Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor dosent Natiq Talıbov, Mühəndislik fakültəsinin dekanı dosent Ulduz Ağayev, Beynəlxalq əməkdaşlıq şöbəsinin metodisti Samirə Məmmədova təmsil etdilər. (https://www.sdu.edu.az/az/news/735)

SDU-da təhsil proqramları üzrə hazırlığın məzmunu və strukturu “Ali təhsilin dövlət standartı və proqramı”nın (AR NK-nin 23.04.2010-cu il tarixli 75 nömrəli Qərarı) tələblərinə, ”Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları”, AR TN tərəfindən 22 avqust 2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş “Ali Təhsil Pilləsinin Dövlət Standartları”na (hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələbləri) və ”Ali təhsil müəssisələrinin bakalavriat, magistratura və AMEA-nın magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın (AR NK-nın 24.12.2013-cü il tarixli 348 nömrəli Qərarı, edilmiş dəyişikliklərlə) tələblərinə uyğun olaraq həyata keçirilir.

Əsas tədris sənədlərindən biri olan ixtisaslar (proqramlar) üzrə tədris planları AR TN-in 22 avqust 2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş “Ali Təhsil Pilləsinin Dövlət Standarları”na (Bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı) uyğun hazırlanmışdır. Qeyd edək ki, tədris planları mövcud normalara uyğun hazırlanır, SDU-nun Elmi Şurasında müzakirə edilərək qərar qəbul edilir, rektor tərəfindən təsdiq edildikdən sonra fakültələr və kafedralarda icra olunur.

SDU-da tələbələrin təhsili ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı əsasında həyata keçirilir. AR NK-nın 11 fevral 2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisaslarının (proqramlarının) Təsnifatı”na uyğun olaraq SDU-da (əsas (baza ali) tibb təhsili) aşağıdakı ixtisasalar üzrə kadr hazırlığı həyata keçirilir:

**Sumqayit Dövlət Universiteti 2022/2023 –cü tədris ili üzrə bakalavriat səviyyəsinin yeni ixtisas şifrələri**

| Sıra №si | İxtisasların yeni şifrələri(15.09.2019 cu ildən sonra) | İxtisasların adı | İxtisasların köhnə şifrələri(2019cu ildən əvvəl) |
|---|---|---|---|
| 1 | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 050101 |
| 2 | 050102 | Biologiya müəllimliyi | 050110 |
| 3 | 050103 | Coğrafiya müəllimliyi | 050115 |
| 4 | 050105 | Fizika müəllimliyi | 050104 |
| 5 | 050106 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi | 050107 |
| 6 | 050107 | İbtidai sinif müəllimliyi | 050118 |
| 7 | 050108 | İnformatika müəllimliyi | |
| 8 | 050109 | Kimya müəllimliyi | 050111 |
| 9 | 050110 | Kimya və biologiya müəllimliyi | 050112 |
| 10 | 050111 | Korreksiyaedici təlim | |
| 11 | 050112 | Məktəbəqədər təhsil( Məktəbəqədər təlim və tərbiyə) | 050120 |
| 12 | 050114 | Riyaziyyat müəllimliyi | 050106 |
| 13 | 050115 | Riyaziyyat və informatika müəllimliyi | 050105 |
| 14 | 050116 | Tarix müəllimliyi | 050113 |
| 15 | 050117 | Tarix və coğrafiya müəllimliyi | 050114 |
| 16 | 050118 | Təhsildə sosial-psixoloji xidmət | 050121 |
| 17 | 050121 | Xarici dil müəllimliyi (ingilis dili) | 050103 |
| 18 | 050205 | Filologiya(Azərbaycan dili və ədəbiyyatı üzrə) | 050201 |
| 19 | 050210 | Politologiya | 050208 |
| 20 | 050211 | Psixologiya | 050209 |
| 21 | 050213 | Sosiologiya | 050210 |
| 22 | 050214 | Tarix | 050206 |
| 23 | 050401 | Beynəlxalq ticarət və logistika(Dünya iqtisadiyyatı) | 050401 |
| 24 | 050402 | Biznesin idarə edilməsi (Biznesin təşkili və idarə edilməsi) | 050409 |
| 25 | 050405 | İqtisadiyyat | 050404 |
| 26 | 050406 | Maliyyə | 050403 |
| 27 | 050407 | Marketinq | 050408 |
| 28 | 050408 | Menecment | 050407 |
| 29 | 050409 | Mühasibat(Mühasibat uçotu və audit) | 050402 |
| 30 | 050501 | Biologiya | 050505 |
| 31 | 050504 | Ekologiya | |
| 32 | 050505 | Fizika | 050503 |
| 33 | 050508 | Kimya | 050504 |
| 34 | 050511 | Riyaziyyat | 050501 |
| 35 | 050606 | Ekologiya mühəndisliyi | 050649 |
| 36 | 050607 | Elektrik və elektronika mühəndisliyi(Elektrik mühəndisliyi) | 050626 |
| 37 | 050608 | Energetika mühəndisliyi(Elektroenergetika | 050608 |

| | | | |
|---|---|---|---|
| | | mühəndisliyi) | |
| 38 | | İstilik energetikası mühəndisliyi | 050609 |
| 39 | | Enerji maşınqayırması mühəndisliyi | 050610 |
| 40 | 050616 | İnformasiya texnologiyaları | 050655 |
| 41 | 050618 | Kimya mühəndisliyi | 050641 |
| 42 | 050620 | Kompüter mühəndisliyi | 050631 |
| 43 | 050621 | Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi (Nəqliyyatda daşıma və idarə etmənin təşkili mühəndisliyi) | 050623 |
| 44 | 050628 | Mexanika mühəndisliyi | |
| 45 | 050629 | Mexatronika və robototexnika mühəndisliyi | |
| 46 | 050631 | Neft-qaz mühəndisliyi | 050606 |
| 47 | 050634 | Proseslərin avtomatlaşdırılması mühəndisliyi | 050628 |
| 48 | | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi | 050632 |
| 49 | | Metrologiya,standartlaşdırma və sertifikasiya mühəndisliyi | 050647 |
| 50 | 050657 | Sənaye mühəndisliyi | |
| 51 | 050807 | Sosial iş | |
| 52 | 050810 | Turizm işinin təşkili | |
| 53 | | Musiqi müəllimliyi | 050109 |

**Magistratura səviyyəsi üzrə İxtisas və ixtisaslaşmaların siyahısı**

| İxtisasın şifri | İxtisaslaşmaların adı |
|---|---|
| | **Riyaziyyat fakültəsi** |
| 1. 060501 | **Riyaziyyat** Riyazi analiz |
| 2. 060501 | **Riyaziyyat** Diferensial tənliklər |
| 3. 060501 | **Riyaziyyat** Optimallaşdırma və optimal idarəetmə |
| 4. 060501 | **Riyaziyyat** Hesablama riyaziyyatı |
| 5. 060105 | **Riyaziyyat müəllimliyi** Riyaziyyatın tədrisi metodikası və metodologiyası |
| 6. 060509 | **Kompüter elmləri** İnformatika |
| | **Fizika və elektroenergetika fakültəsi** |
| 7. 060503 | **Fizika** Yarımkeçiricilər fizikası |
| 8. 060503 | **Fizika** İstilik fizikası və molekulyar fizika |
| 9. 060503 | **Fizika** Yarımkeçirici cihazlar və mikroelektronika |
| 10. 060503 | **Fizika** Atom və molekul fizikası |
| 11. 060104 | **Fizika müəllimliyi** Fizika fənninin tədrisi metodikası və metodologiyası |
| 12. 060608 | **Elekrtoenergetika mühəndisliyi** Elektrik təchizatı (sahələr üzrə) |
| 13. 060608 | **Elekrtoenergetika mühəndisliyi** Elektroenergetika |
| 14. 060608 | **Elekrtoenergetika mühəndisliyi** Elektrik şəbəkə və sistemləri |
| 15. 060609 | **İstilik energetikası mühəndisliyi Sənaye** istilik stansiyaları |
| 16. 060626 | **Elektrik mühəndisliyi** Sənaye qurğuları və texnoloji komplekslərin avtomatikası və elektrik inteqralı |
| 17. 060626 | **Elektrik mühəndisliyi** Yüksək gərginlik texnikası və fizikası |
| 18. 060626 | **Elektrik mühəndisliyi** Elektrik təchizatının optimallaşdırılması və modelləşdirilməsi |
| 19. 060504 | **Kimya və biologiya fakültəsi** |

20. 060504 **Kimya** Qeyri-üzvi kimya
21. 060504 **Kimya** Üzvi kimya
22. 060504 **Kimya** Fiziki kimya
23. 060504 **Kimya** Yüksək molekullu birləşmələr kimyası
24. 060504 **Kimya** Elektrokimya
25. 060110 **Kimya** Neft kimyası
**Kimya müəllimliyi** Kimya fənninin tədrisi metodikası və metodologiyası
26. 060641 **Kimya mühəndisliyi** Əsas üzvi sintezin kimyası və texnologiyası
27. 060641 **Kimya mühəndisliyi** Polimerlərin kimyəvi texnologiyası
28. 060649 **Ekologiya mühəndisliyi** Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması
29. 060109 **Biologiya müəllimliyi** Biologiya fənninin tədrisi metodikası və metodologiyası
30. 060505 **Biologiya** Genetika
31. 060505 **Biologiya** Mikologiya
32. 060505 **Biologiya** Mikrobiologiya

**Filologiya fakültəsi**

33. 060201 **Filologiya** Azərbaycan dili
34. 060201 **Filologiya** Azərbaycan ədəbiyyatı
35. 060201 **Filologiya** Ədəbiyyatşünaslıq (türk xalqları ədəbiyyatı)
36. 060201 **Filologiya** Dilşünaslıq (İngilis dili)
37. 060101 **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası
38. 060117 **Məktəbəqədər təlim və tərbiyə** Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası
39. 060209 **Psixologiya** Ümumi psixologiya
40. 060209 **Psixologiya** Uşaq və yaş psixologiyası
41. 060119 **Pedaqogika** Pedaqogika nəzəriyyəsi və tarixi

**Tarix və coğrafiya fakültəsi**

42. 060206 **Tarix** Azərbaycanın qədim və orta əsrlər tarixi
43. 060206 **Tarix** Avropa və Amerikanın yeni və ən yeni tarixi
44. 060206 **Tarix** Azərbaycanın yeni və ən yeni tarixi
45. 060111 **Tarix müəllimliyi** Tarix fənninin tədrisi metodikası və metodologiyası
46. 060210 **Sosiologiya** İdarəetmənin sosiologiyası
47. 060506 **Coğrafiya** Azərbaycanın fiziki coğrafiyası
48. 060506 **Coğrafiya** İqtisadi və sosial coğrafiya
49. 060112 **Coğrafiya müəllimliyi** Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası

**Mühəndislik fakültəsi**

50. 060632 **İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** İdarəetmədə informasiya sistemləri
51. 060631 **Kompüter mühəndisliyi** Kompüter mühəndisliyi
52. 060628 **Proseslərin avtomatlaşdırılması mühəndisliyi** Texnoloji proseslərin və istehsalatın avtomatlaşdırılması

**İqtisadiyyat və idarəetmə fakültəsi**

53. 060407 **Menecment** İnnovasiyaların və layihələrin idarə olunması
54. 060407 **Menecment** Menecment (sahələr üzrə)
55. 060409 **Biznesin idarəedilməsi** Biznesin təşkili və idarəedilməsi
56. 060402 **Mühasibat uçotu və audit** İstehsal sferasında mühasibat uçotu və audit
57. 060401 **Dünya iqtisadiyyati** Gömrük işi

58. 060401 **Dünya iqtisadiyyati** Beynəlxalq iqtisadi münasibətlər
59. 060404 **İqtisadiyyat** Turizmin iqtisadiyyatı
60. 060404 **İqtisadiyyat** İqtisadiyyatın tənzimlənməsi

Təhsilin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar tədris planları və fənn proqramları tərtib edilərkən dövlət standartlarının tələblərinə uyğun olaraq ixtisasların xüsusiyyətinə, proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblərə - Ümummədəni kompetensiyalar (ÜK) (səriştələr), peşə kompetensiyalarına (PK) xüsusi diqqət yetirilir.

Sumqayıt Dövlət Universitetində kredit sistemi ilə tədrisin təşkilində Boloniya bəyannaməsinin müddəalarına müvafiq olaraq, tələbələrin akademik mobilliyi, onların SDU-da, eləcə də digər ali təhsil müəssisələrində ayrı-ayrı fənlər üzrə kredit qazana bilmələri ilə əlaqədar olaraq tələbələr arasında geniş təlimatlandırma işi aparılır. "Ali təhsil müəssisələrinin bakalavriat, magistratura və AMEA-nın magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın (AR NK-nın 24.12.2013-cü il tarixli 348 nömrəli Qərarı, edilmiş dəyişikliklərlə) 6-cı bəndi "Tələbə və müəllim mobilliyi" mütəmadi olaraq tələbələrin nəzərinə çatdırılır və bu sahədə mövcud qaydaların tələblərinin gözlənilməsi təmin edilir. Tələbənin digər ali təhsil müəssisələrində kreditləri qazanması SDU rəhbərliyinin razılığı ilə həyata keçirilir. Qazanılmış kreditlərin SDU tərəfindən tam tanınmasına zəmanət verilir.Tələbələr məlumatlıdırlar ki, digər ali təhsil müəssisələrində qazanılacaq kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə nəzərdə tutulmuş kreditlərin 30 faizindən çox olmamalıdır**.**

Tələbələrin mobilliyinin təmin edilməsi üçün AR TN tərəfindən müəyyənləşdirilən sənədlərin (Məsələn, akademik transkript, tələbənin ərizə forması, tədris razılığı, məlumat paketi və s.) onlara vaxtında və normativ tələblərə uyğun şəkildə təqdim edilməsi prosedurlarına Universitet tərəfindən tam əməl edilir.

Universitetin professor-müəllim heyəti SDU-da və digər ali təhsil müəssisələrində fəaliyyət göstərən professor-müəllim heyəti ilə əməkdaşlıq edir, elmi-metodik təcrübə mübadiləsində fəal iştirak edir. Həm professor-müəllim heyəti, həm də tələbələr SDU-da, eləcə də digər ali təhsil müəssisələrində keçirilən elmi konfranslarda; o cümlədən xarici ölkə universitetlərində keçirilən elmi konfranslarda fəal iştirak edirlər və həmin ali məktəb əməkdaşları SDU-da keçirilən tədbirlərə dəvət olunurlar.

### 3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

Sumqayıt Dövlət Universitetinin Karyera Mərkəzi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 iyun 2009-cu il tarixli, 833-IIIQ №-li "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən yaradılmışdır.

Sumqayıt Dövlət Universitetinin Karyera Mərkəzinin əsasnaməsi Sumqayıt Dövlət Universiteti Elmi Şurasının 29.05.2015-ci il tarixli iclasının (pr. № 08) qərarı ilə təsdiq edilmişdir. Karyera Mərkəzi son illərdə fəaliyyət istiqamətlərini genişləndirmişdir. Buna görə də Karyera Mərkəzinin adı və əsasnaməsi Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının 21.12.2022-ci il tarixli iclasının (protokol № 4) qərarı ilə dəyişdirilmişdir. Karyera Mərkəzinin adı Karyera və Məzunlarla İş Mərkəzi adlandırılmışdır. Sumqayıt Dövlət Universitetinin Karyera və məzunlarla iş mərkəzi universitetin struktur bölməsidir və ali təhsilin ikipilləli strukturunda magistrantların və bakalavrların ixtisasyönümlü təcrübəsinin təşkil edilməsinə dəstək olur və məzunların işə düzəlməsinə öz köməkliyini göstərir.

Karyera və məzunlarla iş mərkəzi öz fəaliyyətini mövcud qanunvericiliyə uyğun olaraq, dövlət, özəl və xarici müəssisələrlə bağlanmış sazişlər və müqavilələr əsasında həyata keçirir.

Dünya təcrübəsində universitetlərin və eləcə də fakültələrin, kafedraların reytinqinin müəyyən edilməsində məzunların işlə təmin edilməsi ən vacib göstəricilərdən biri hesab edilir. Karyera və məzunlarla iş mərkəzi Sumqayıt Dövlət Universitetində təhsil alan yuxarı kurs tələbələrinin karyeralarının planlaşdırılmasına məsləhət və istiqamət verərək, onları iş dünyasına hazırlayır.

Karyera və məzunlarla iş mərkəzinin yaradılmasının başlıca məqsədi gənclərin bilik, praktiki bacarıq və vərdişlərinin artırılması, onların məşğulluq problemlərinin həll edilməsi üzrə kompleks təşkilati, texniki, informasiya, konsaltinq, tədris və maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir.

Karyera və məzunlarla iş mərkəzində dörd əməkdaş çalışır. Karyera və məzunlarla iş mərkəzi SDU-da təhsil alan tələbələrə əsasən yuxarı kurs tələbələrinə karyeralarının planlaşdırılmasına məsləhət və istiqamət verərək onlarla həftənin bütün günləri görüş keçirir, məsləhətlər və istiqamətlər verərək onları iş dünyasına hazırlayır.

SDU məzunlarının işlə təmin olunmasında Karyera və məzunlarla iş mərkəzi mütəmadi iştirak edir. Mərkəz məzunların sonrakı tarixi dövrlərdə işlə təmin olunmasına nəzarət edir və bir sıra şirkətlərlə əlaqə saxlayaraq onların işə düzəlməsinə dəstək olur. O cümlədən “Azərikimya birliyi”, “Azərenerji”, Metropoliten və digər müəssisələrdə çalışan məzunlar haqqında elektron məlumatlar toplayır. Karyera və məzunlarla iş mərkəzi məzunların əmək bazarında iştirakını mütəmadi izləmək üçün məzunlarla əlaqə saxlayır.

2015-ci ildən məzunlarla davamlı əlaqə sistemi yaradılmış, 2019-cu ildən məzunlarla davamlı əlaqə sistemi daha da genişləndirilmişdir. Belə ki, 2019-2022-ci illərdə SDU-nu bitirmiş məzunlarla əlaqələr davamlı olmuş və bu illərdə işləyən və işləməyən məzunların elektron ünvanları karyera mərkəzində qeydə alınmış, o cümlədən ixtisasına uyğun işləyən məzunların və ixtisasına uyğun işləməyən məzunların siyahısı (ünvanı, işlədiyi yerin adı, vəzifəsi, telefon nömrəsi) tərtib edilmişdir.

SDU-da mütəmadi olaraq əmək yarmarkaları keçirilir. Bu əmək yarmarkaları əsasən əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilir. Sumqayıt şəhərində məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri- məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial iqtisadi siyasətinin əsas tərkib hissəsini təşkil edir. SDU-da yuxarıda qeyd edildiyi kimi məzunlarımızın işlə təmin olunması üçün əmək yarmarkaları təşkil edir. Gənclərin əmək bazarına inteqrasiyaları baxımından universitetimizdə Karyera və məzunlarla iş mərkəzi məzun tələbələrimizin işlə təmin olunması üçün SDU-da mütəmadi olaraq əmək yarmarkaları keçirir. Bu əmək yarmarkalarında məzunlarımızın işlə təmin olunmalarına müəyyən qədər nail olmuşuq. Məsələn: 2015-ci ildə əmək yarmarkasında təmsil olunan 30-a yaxın şirkətə 154 nəfər işlə təmin olunmuşdur. 2018-ci ildə SDU-da keçirilən əmək yarmarkasında 35 müəssisədən 270 boş (vakant) iş yeri təklif edilmişdir. SDU-nun məzunlarının işlə təmin olunmasına yarmarka öz töhfəsini vermişdir. Digər bir əmək yarmarkası SDU-da Karyerada ilk addım devizi altında keçirilmişdir.
https://www.sdu.edu.az/az/news/262
https://www.sdu.edu.az/az/news/1657
https://www.sdu.edu.az/az/news/1313
https://www.sdu.edu.az/az/news/1
https://www.sdu.edu.az/az/news/1733

Sumqayıt şəhər Dövlət Məşğulluq Mərkəzinin direktoru İlham Hüseynov tədbirdə iştirak edərək, bildirdi ki, dövlət tərəfindən gənclərin fəaliyyəti üçün yaradılmış geniş imkanlar sayəsində müasir gənclik cəmiyyətin ən qabaqcıl qüvvəsinə çevrilib. Bu baxımdan Azərbaycan Respublikası Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyi və Dövlət Məşğulluq Xidmətinin rəhbərliyi gənclərin məşğulluğunun təmin olunmasını daima diqqət mərkəzində saxlayır. Belə tədbirlərin keçirilməsində məqsəd dövlət məşğulluq strategiyasına uyğun olaraq, gənclərin əmək bazarına çıxış imkanlarına dəstək olmaqdır.

Yuxarı kurslarda təhsil alan tələbələrlə, xüsusən əmək fəaliyyətinə başlamaq ərəfəsində olan məzunlarla işəgötürən müəssisə və təşkilatlar arasında əlaqələrin yaradılmasına xidmət edən növbəti yarmarkada 7 dövlət, 10-u özəl sektor, 1-i xarici şirkət olmaqla 36 müəssisə və təşkilat tərəfindən 286 ştat vahidi boş iş yerləri (vakant vəzifələr) təqdim olundu. Onların sırasında Sumqayıt Təhsil Şöbəsi, "Azərikimya" istehsalat birliyi, Sumqayıt Texnologiya parkı, "Gilan Textil Park", "Atəşgah sığorta, BASF Kaspian Yapı Kimyasalları Sənaye MMC, Sumqayıt Qaz İstismar sahəsi", "Ümid" təhsil mərkəzi, Kavralit zavodu, "Qəlb" klinikası, "Turan" restoranı, Kağız və Karton istehsalı kombinatı, "Mətanət A" şirkəti, "Azbentonit MMC" və digər iri şirkətlər iştirak edirdi. Qeyd etmək lazımdır ki, təqdim olunan vakant yerlərin 26 ştat vahidi tədris, 6 elm, 27 sənaye, qalanları isə digər sahələrə aid vakansiyalar olmuşdur. Tələbə və məzunlar gələcəkdə işə qəbul olunmaq istədikləri müəssisələrin nümayəndələrinə özləri barədə şəxsi məlumatları (CV) təqdim etdilər. 2021-ci il dekabırın 18-də Heydər Əliyev Mərkəzində keçirilən əmək yarmarkasında Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının I müavini Teymur Səmədov, millət vəkili Müşfiq Məmmədli, SDU Karyera və məzunlarla iş mərkəzinin metodisti Araz Tarverdiyev SDU-nun bir qrup tələbələri iştirak etmişlər. Əmək yarmarkasında 25-ə yaxın müəssisə və şirkət təmsil olunurdu. Bunlardan Atəşgah Sığorta, Qartal Tikinti Firması, Fairmont Hotel Baku, Bakı Tekstil Fabriki, Palıd Qroup, Turan Restoranlar şəbəkəsi, Hədəf kursları. Tədbir zamanı məzunlar və sonuncu kurs tələbələri öz sivilərini şirkətlərdə vakansiya yerlərinə göndərmiş və müsabiqədə iştirak etmişlər. 2022-ci il 17-18 dekabr tarixlərində Sumqayıt şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə II Sumqayıt şəhər karyera sərgisi keçirilib. Sumqayıt şəhər H. Əliyev Mərkəzində keçirilən karyera sərgisində Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının I müavini Teymur Səmədov, Milli Məclisin deputatı Müşfiq Məmmədli, SDU Karyera və məzunlarla iş mərkəzinin müdiri dos. Ə.İ.İsayev SDU-nun tələbələri ilə bu sərgidə iştirak etmişlər. Sərgidə iştirak edən şirkətlər öz vakansiyaları və təcrübə proqramlarını sərgiləmiş, sərgidə iştirak edən SDU-nun IV kurs tələbələri öz sivilərini şirkətlərə təqdim etmək imkanı əldə etmişlər.

## 4. ELMİ TƏDQİQAT

### 4.1.Elmi-tədqiqat strategiyası

Sumqayıt Dövlət Universiteti elm sahəsində fəaliyyətini öz **Nizamnaməsi** əsasında qurur.

Görülən işlərin planlaşdırılmasında, məzmununda və icrasında aşağıda qeyd olunanlar əsas götürülür:

- Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il il tarixli Sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı"nda kadr potensialının və elmi təminatın gücləndirilməsi ilə bağlı müddəalar;

- Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planında qeyd olunan strateji istiqamətlər, hədəflər və tədbirlər;

- "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;

- Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı";

- Azərbaycan Respublikası Baş nazirinin birinci müavini cənab Yaqub Eyyubovun sədrlik etdiyi Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın Texnologiyalar və innovasiyalar işçi qrupunun 2022-ci il üzrə Fəaliyyət Planı.

Azərbaycan Rerspublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının həyata keçirilməsi"ni, Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi" barədə 10 fevral 2010-cu il tarixli 220 nömrəli Fərmanına, Sumqayıt Dövlət Universitetinin 19.05.2014-cü il tarixli R01-26/1 əmrinə əsasən Patent şöbəsinin bazasında Elmi hissə yaradıldı. Elmi Xəbərlər jurnalı, patent və elmi texniki işlər, elmi-tədqiqat işləri və ixtisasartırma üzrə məsul şəxslər təyin edildi.

Universitet əməkdaşları 1641 adda material nəşr etdirmişdir: O cümlədən 15 monoqrafiya, 6 dərslik, 26 dərs vəsaiti, 306 tədris-metodiki vəsait, 579 adda məqalə (333 məqalə respublikada, 246 məqalə xaricdə), 834 sayda tezis (631 sayda respublikada, 203 sayda xaricdə) nəşr etdirilmişdir. Nəşr olunan məqalələrdən 85-i İmpakt-faktor indeksli jurnallardadır.

Tamamlanmış işlər üzrə 204 adda tədqiqat işinin məzmunu və nəticələri tədris prosesinə tətbiq olunmuşdur.

2016–2022-ci illərdə Sumqayıt Dövlət Universiteti 23 beynəlxalq səviyyəli,31 respublika səviyyəli elmi konfransın təşkilatçısı olmuşdur.

Sumqayıt Dövlət Universitetində 2018-ci ilə qədər dövlət büdcəsindən 2018-ci ilin yanvar ayından etibarən SDU tərəfindən maliyyələşdirilən beş elmi-tədqiqat laboratoriyası (Tətbiqi kimya, Sənaye ekologiyası, Yarımkeçiricilər və dielektriklər fizikası, Elektroenergetikanın problemləri və Folklorşünaslıq ETL) fəaliyyət göstərir.

Laboratoriyalarda yerinə yetirilən elmi-tədqiqat işləri 2021–2025-ci illər üçün plan üzrə SDU-nun Elmi Şurasının 10.02.2021-ci il tarixli iclasının qərarı ilə (protokol №5) təsdiq edilmiş və kitabça şəklində SDU Redaksiya və nəşr işləri şöbəsində dərc olunmuşdur.

Elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün 1608758,22 manat vəsait ayrılmış, o cümlədən 1286427,53 manat əməkhaqqının ödənilməsinə xərclənmişdir.

Hər il SDU-nun əməkdaşları "Clarivate Analytics" şirkəti tərəfindən təşkil olunmuş vebinarlarda mütəmadi olaraq iştirak edir, məqalələrin beynəlxalq standartlarına uyğun yeni məlumatlar əldə edirlər.

2022-ci ilin martın 30-da Sumqayıt Dövlət Universitetində əməkdaşların "ORCİD İnc. şirkətinin Open Researcher and Contributor İD sistemində qeydiyyatdan keçməsi və fərdi İD kodlarının alınması" mövzusunda təlim keçirildi. Təlim SDU-nun Strateji inkişaf planının həyata keçirilməsi ilə bağlı Fəaliyyət planına uyğun təşkil olundu. Tədbiri aparan Elmi hissənin müdiri dosent Samir Orucov ARWU, QS, THE beynəlxalq reytinq sistemlərində universitetimizin layiqli yer tutması istiqamətində elm sahəsində görüləsi işlər barəsində dinləyiciləri məlumatlandırdı. Sözügedən işlər sırasında həm də SDU-nun elmi nəşrlərinin Scopus, Web of Sciense elmi məlumat bazalarında yerləşdirilməsi və nəşriyyatımızın Nəşr Etikası Komitəsinin (COPE) üzvlüyü məsələləri var. Bu baxımdan universitetin professor-müəllim və redaksiya heyətinin Orc İD, Reseacher İD və Author İD sistemlərində qeydiyyatdan keçməsi və fərdi ID kodlarının alınmasının zəruri olduğu mütəmadi olaraq tədbir iştirakçılarının nəzərinə çatdırılır.

SDU-nun rektorunun 29.01.2019-cu il tarixli R-10/1 saylı əmrinə əsasən 2019-cu ildən etibarən hər il "Elmi məqalələrə görə mükafatlandırma komissiyası"nın ekspertizasına təqdim olunan məqalə və tezislər baxışdan keçirildikdən, onların məxsus olduqları məlumat bazaları və impakt faktor indeksləri müəyyən edildikdən sonra "Clarivate Analytics" şirkətinin Web of Science, "Elsevier" şirkətinin Scopus və "НЭБ" şirkətinin РИНЦ Beynəlxalq məlumat bazalarında yüksək elmi istinad indeksinə malik olan

jurnallarda və CPCİ bazasında olan konfrans materiallarında dərc olunan məqalə və tezis müəllifləri mükafata layiq görülürlər.

İki bölmə üzrə: sosial və humanitar elmlər və təbiət və texniki elmlər bölmələri üzrə "Elmi xəbərlər" jurnalı nəşr olunur. "Elmi xəbərlər" jurnalına daxil olan məqalələrin kafedra Elmi Şuralarında müzakirə olunması, mövzunun aktuallığını təsdiq edən iclasın protokolundan çıxarışın, məqaləyə daxildən və xaricdən sözügedən sahədə tanınmış alimlər tərəfindən mütəxəssis rəylərinin təqdim olunması əsas tələblərdəndir. Jurnalın redaksiya heyəti SDU-nun respublika və xarici elm və ali təhsil müəssisələrinin ölkələrin alimlərindən ibarətdir.

Məqalələr toplularından fərqli olaraq, jurnal daimi sayda səhifələrə, formata və hətta çəkiyə malik olmalıdır, buna görə də nömrədə olan məqalələrin sayı verilən həcmlə müəyyən edilir. Məqalələr beynəlxalq qaydalara uyğun olaraq, təşkil edilən resenziyadan sonra daxilolma ardıcıllığı ilə dərc edilir. Hər bir məqalə jurnalların nəşrində böyük təcrübəyə malik olan ən azı iki yüksəkixtisaslı mütəxəssis tərəfindən nəzərdən keçirilir.

Sumayıt Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalı 2 bölmə üzrə ildə 4 dəfə dərc olunur.

**Sosial və humanitar elmlər bölməsi** üzrə "Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.07.2004-cü il tarixli, 46-16-3547/17 saylı əmrinə əsasən nəşr edilir.

**Təbiət və texniki elmlər bölməsi** üzrə "Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.10.2000-ci il tarixli, 991 saylı əmrinə əsasən nəşr edilir.

"Elmi xəbərlər" jurnalının hər iki bölməsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.

"Elmi xəbərlər" jurnalında Azərbaycanda və xaricdə tanınmış alimlərin 50-dən çox, Ali Attestasiya Komissiyasının Koordinasiya Şuraları tərəfindən dissertasiya mövzularının aktual olduğu təsdiqlənmiş doktorant və dissertantların isə 100-dən cox məqaləsi dərc olunmuşdur.

Rusiya Elmi İstinad İndeksi (РИНЦ) məlumat bazalarına daxil olmaq üçün Elmi elektron kitabxanası ilə Sumqayıt Dövlət Universiteti arasında jurnalların yerləşdirilməsinə dair müqavilə (31.02.202-ci il №XML-1032020) imzalanıb, jurmalın nəşrləri **eLibrary.ru** məlumat bazasında mütəmadi olaraq yerləşdirilir. Bundan başqa, Elsever şirkətinə məxsus olan Scopus beynəlxalq məlumat bazasına "Elmi xəbərlər" jurnalının daxil edilməsi barəsində müraciət olunub: Suggestion № 3FFFA716E0D6E843. Gözləmə statusundadır. Növbəti mərhələdə Clarivate Analitics şirkətinə məxsus olan Web of Science məlumat bazasına jurnalın hər iki bölməsinin daxil edilməsi planlaşdırılır.

https://www.sdu.edu.az/az/announcements/226
https://www.sdu.edu.az/az/news/1724

Scopus beynəlxalq elmi məlumat bazasına daxil olmaq, eyni zamanda COPE – Nəşr Etikası Komitəsinə (NEK) üzvlük barəsində və Beynəlxalq DOI Fondu tərəfindən prefiksi almaq məqsədilə Crossref rəqəmsal sənədləşdirmə agentliyinə müraciət olunmuşdur.

SDU-nun Beynəlxalq DOI Fondunun Crossref rəqəmsal sənədləşdirmə agentliyi ilə DOI № DOIİD315 saylı müqaviləyə əsasən Universitetdə nəşr olunan bütün elmi əsərlərə 10.54759/ DOI prefiksi alınmışdır. Hal-hazırda "Elmi xəbərlər" jurnalında dərc olunan hər bir məqaləyə fərdi elmi identifikasiya nömrəsi redaksiya tərəfindən verilir.

SDU-nun "Elmi xəbərlər" jurnalının hər iki bölməsi üzrə elektron versiyası yaradılmışdır.

Elektron elmi nəşrlərə verilən Beynəlxalq Standart Seriya Nömrəsi – ISSN (Online) kodunun alınması üçün ISSN Beynəlxalq Mərkəzinə (Paris, Fransa) müraciət olunmuşdur. ISSN Beynəlxalq Mərkəzi tərəfindən SDU-nun "Elmi xəbərlər" jurnalının elektron versiyasına ISSN 2706-719X (Online) Beynəlxalq Standart Seriya Nömrəsi verilmişdir.

Təlimlərin davamlı olaraq keçirilməsi nəzərdə tutulur. Növbəti mərhələlərdə əməkdaşların Research Gate sosial şəbəkəsində qeydiyyatdan keçməsi və profillərin yaradılması planlaşdırılır. Hal-hazırda universitetin 475 əməkdaşı "ORCİD İnc. şirkətinin Open Researcher and Contributor ID sistemində fərdi ID identifikasiya kodları almışdır.

https://www.sdu.edu.az/az/news/2068

**4.2.Tədqiqat resursları**

Sumqayıt Dövlət Universitetində 5 elmi-tədqiqat laboratoriyasının və 7 fakültə üzrə 29 kafedranın elmi potensialı, universitetdə kadr hazırlığının profilinə və respublikanın elmi-texniki tərəqqisi istiqamətlərinə uyğun olaraq elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə yönəldilmişdir.

Sumqayıt Dövlət Universitetində çalışan professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətni təşviq etmək və bu fəaliyyəti müasir səviyyədə həyata keçirmək məqsədilə universitetdə aşağıdakı laboratoriyalar yaradılmışdır:

1. Elektroenergetikanın problemləri elmi-tədqiqat laboratoriyası Azərbaycan Respublikası Təhsil nazirinin 23.03.04-cü il tarixli 220№ li əmrinə əsasən, Sumqayıt Dövlət Universitetinin rektorunun 07.04.01-ci il K02-23.2 saylı əmri ilə yaradılıb.

2. Ətraf mühitin monitorinqi ETL Azərbaycan Respublikası Təhsil nazirinin 01.02.2001-ci il tarixli 91 saylı əmrinə əsasən, SDU-nun rektorunun 06.02.01-ci il 60/06 saylı əmri əsasında yaradılıb.

3.Təhsil nazirinin 09.08.01-ci il 891№li və SDU-nun rektorunun 14.08.01-ci il 265/06 saylı əmrinə əsasən Folklorşünaslıq elmi-tədqiqat laboratoriyası yaradılıb.

4. Sənaye ekologiyası elmi-tədqiqat laboratoriyası Azərbaycan Respublikası Təhsil nazirinin 10.02.92-ci il tarixli 98 nömrəli əmrinə əsasən, ASİ-nin ( indiki SDU ) rektorunun 29.04.92-ci il 87/06 saylı əmri ilə yaradılmışdır.

5.Tətbiqi kimya ETL Azərbaycan Respublikası Təhsil nazirinin 16.12.10-cu il 1646 №li əmrinə əsasən, SDU-nun rektorunun 14.08.10-cu il 267/06 saylı əmri əsasında yaradılmışdır. Tətbiqi kimya ETL 2010-cu ildən SDU-nun Kimya və biologiya fakültəsinin tərkibində fəaliyyət göstərir.

6.Yarımkeçiricilər və dielektriklər fizikası elmi-tədqiqat laboratoriyası Azərbaycan Respublikası təhsil nazirinin 09.08.01-ci il tarixli 892№ li əmrinə əsasən, SDU-nun rektorunun 14.08.01-ci il 267/06 №-li əmri ilə yaradılmışdır.

Təhsil Nazirliyinin müvafiq təlimatları əsasında 5 illik plan üzrə 2016-2020-ci (Elmi Şuranın qərarları ((02.12.2015-ci il tarixli iclasının (protokol №3) və 2020-2025-ci illər ((24.01.2020-ci il tarixli iclasının (protokol №6)) Sumqayıt Dövlət Universitetinin rektorunun göstərişləri nəzərə alınaraq, görüləcək elmi-tədqiqat işləri Universitetin fəaliyyət yönümünə (bakalavriat, magistratura və doktorantura) uyğunlaşdırılmış, elmi istiqamətlər, elmi problemlər, elmi mövzular, elmi işlər və mərhələləri müəyyənləşdirilmişdir.

2016–2022-cı illər üzrə 17 elmi istiqamət, 81 problem (ixtisaslaşma), 86 mövzu üzrə elmi-tədqiqat işinin yerinə yetirilməsi davam etdirilmiş, mövzular üzrə 204 adda iş tamamlanmışdır.

Elmi-tədqiqat laboratpriyaları rektorun əmri ilə müvafiq kafedralara təhkim olunmuşdur:

1. “Sənaye ekologiyası” elmi-tədqiqat laboratoriyası (30.10.2018-ci il R-47/1 saylı əmr) Kimya və biologiya fakültəsinin Ekologiya kafedrasına;

2.”Yarımkeçiricilər və dielektriklər fizikası” elmi-tədqiqat laboratoriyası (30.10.2018-ci il R-47/1 saylı əmr) Fizika və elektroenergetika fakültəsinin Bərk cisim və yarımkeçiricilər fizikası kafedrasına;

3. “Folklorşunaslıq” elmi-tədqiqat laboratoriyası( 30.10.2018-ci il R-47/1 saylı əmr) Filologiya fakültəsinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasına;

4. “Elektroenergetikanın problemləri” elmi-tədqiqat laboratoriyası (30.10.2018-ci il R-47/1 saylı əmr) Fizika və elektroenergetika fakültəsinin Elektrotexnika və energetika kafedrasına;

5. “Tətbiqi kimya” elmi-tədqiqat laboratoriyası (30.10.2018-ci il R-47/1 saylı əmr) n Kimya və biologiya fakültəsinin Neft kimyası və kimya mühəndisliyi kafedrasına;

6. “Ətraf mühitin monitorinqi” elmi-tədqiqat laboratoriyası (30.10.2018-ci il R-47/1 saylı əmr) Kimya və biologiya fakültəsinin Neft kimyası və kimya mühəndisliyi kafedrasına.

16.01.2019-cu il tarixli R-08/1 saylı əmrə əsasən Tətbiqi kimya və Ətraf mühitin monitorinqi elmi-tədiqat laboratoriyaları birləşdirilərək Tətbiqi kimya elmi-təqdiqat laboratoriyası adlandırıldı. Tətbiqi kimya və Ətraf mühitin monitorinqi elmi-tədiqat laboratoriyaları birləşdirilərək Neft kimyası və kimya mühəndisliyi kafedrası nəzdində fəaliyyət göstərir.

Elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətə olan payının faizlə nisbəti illər üzrə aşağıdakı kimidir:

- 2016/2017 – 51,61%;
- 2017/2018 – 54,20 %;
- 2018/2019 – 53,86%;
- 2019/2020 – 54,82%;
- 2020/2021 – 54,58 %;
- 2021/2022 – 53,84%;
- 2022/2023 – 56,06%.

Son illər SDU-da təsərrüfat müqaviləli elmi-tədqiqat işi yerinə yetirilməyib.

Sumqayıt Dövlət Universiteti ilə Türkiyə Respublikasının Qazi Universiteti, Sivas Elm və Texnologiya Universiteti, Manisa Celal Bayar Universiteti, Fatih Sultan Mehmet Vakıf Universiteti və Rusiya Dövlət Humanitar Universiteti, Ufa Dövlət Aviasiya Universiteti, Çin Xalq Respublikasının Heksi Universitetləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır.

“2021-2026-cü illər üçün Sumqayıt Dövlət Universiteti ilə Türkiyə Cumhuriyyətinin Sakarya Universiteti arasında bağlanmış 5 illik müqavilənin müddəti bitdiyi üçün yenilənmişdir.

Qeyd edək ki, Mevlana Mübadilə Proqramı Sumqayıt Dövlət Universiteti (SDU) ilə Sakarya Universiteti (SU) (Türkiyə Cümhuriyyəti) arasında tələbə və pedaqoji heyətin mobilliyinin artırılması məqsədilə həyata keçirilir.

Sumqayıt Dövlət Universiteti Əməkdaşlıq müqaviləsi çərçivəsində SDU-da “Konfutsi” İnstitutunun (məktəbin) yaradılması da müzakirə olunmuşdur.

Sumqayıt Dövlət Universiteti AMEA-nın adları aşağıda qeyd olunan institutları ilə aparılan elmi-tədqiqat işlərinin istiqamətinə və mövzu planına uyğun olaraq, məsləhətləşmələrin aparılması, elmi təcrübələrin qoyulması və elmi avadanlıqlardan birgə istifadə, elmi-tədqiqat işlərinin nəticələrinin istehsal obyektlərinə transfer olunması, əqli mülkiyyət siyasəti və əqli mülkiyyətin qorunması və digər qarşılıqlı maraq doğuran istiqamətlərdə əməkdaşlıq həyata keçirir: İdarəetmə Sistemləri İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Fizika İnstitutu, Polimer Materialları İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, Mikrobiologiya İnstitutu, Zoologiya İnstitutu, Fiziologiya İnstitutu, Neft-Kimya Problemləri İnstitutu, Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, Aşqarlar Kimyası İnstitutu, Torpaqşünaslıq və Aqrarkimya İnstitutu, Mikrobiologiya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, İqtisadiyyat İnstitutu, Fəlsəfə və Hüquq İnstitutu, A.A.Bakıxanov adına Tarix İnstitutu, Coğrafiya İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu.

Sumqayıt şəhəri və onun ətrafında fəaliyyət göstərən müəssisə və şirkətlər ilə SDU görüşlər keçirir, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunur, müqavilə və memorandumlar imzalanır.

Sumqayıt Dövlət Universiteti ilə Sumqayıt Texnologiyalar Parkı arasında əməkdaşlıq memorandumu imzalanıb. (https://www.sdu.edu.az/az/news/1824)

SOCAR ilə Sumqayıt Dövlət Universitetinin nümayəndələri arasında görüş keçirilib. (https://www.sdu.edu.az/az/news/2404)

Görüşdə həmçinin SOCAR tərəfindən gənclərin bilik və bacarıqlarının, eyni zamanda istehsalat təcrübələrinin artırılması istiqamətində çoxsaylı proqramların həyata keçirildiyi qeyd edilib. Bu günədək SOCAR-ın təcrübə proqramlarına 120 SDU tələbəsinin cəlb edildiyi, son iki ildə SOCAR-ın strukturuna daxil olan müəssisələrdə 41 SDU məzununun işə qəbul edildiyi vurğulanıb.

Görüş çərçivəsində BANM məzunlarının SOCAR-ın və ölkənin müxtəlif sənaye müəssisələrində, habelə transmilli şirkətlərdə çalışaraq ölkədə iqtisadiyyatın və sənayenin inkişafına töhfələr verdikləri, nəhəng şirkətlərdə Azərbaycanı layiqincə təmsil etdikləri ifadə edilib.

### 4.3 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

Sumqayıt Dövlət Universitetində elmi işlər mövzu planları əsasında mərhələlərlə yerinə yetirilir ( 2016-2020-ci və 2021-2025-ci illər üzrə).Hər il humanitar (umumilikdə, humanitar - 85 iş, ictimai - 93 iş ) və ictimai elmlər sahəsi üzrə əldə olunan mühüm elmi nəticələr AMEA-nın ictimai və humanitar elmlər bölməsinə (akademik İsa Həbibbəyli və akademik Gövhər Baxşəliyeva) təqdim olunur.

Sumqayıt Dövlət Universiteti əməkdaşları tərəfindən 2016-2022-ci illər ərzində 25 adda patent alınmışdır. Onlardan 15-i Avroasiya, 10-u Azpatentdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun “Elm-Təhsil İnteqrasiyası” məqsədli qrant müsabiqəsinin(EİF/MQM / Elm –Təhsil-1-20161(126)) qalibi olmuşlar: Tarix və coğrafiya fakültəsinin Coğrafiya və onun tədrisi metodikası kafedrasından 1 (bir), Mühəndislik fakültəsinin Proseslərin avtomatlaşdırılması kafedrasIndan 2 (iki) layihə.

2016-2022-ci illərdə respublikadaxili qrantlar əsasında Sumqayıt Dövlət Universitetinin əməkdaşları tərəfindən dörd layihə yerinə yetirilmişdir.

1. Yüksək dağliq ərazilərdə ekzogenez proseslərin aerokosmik materiallar əsasinda geosistem analizi (prof.T.D.Ağayev, dos. İ.İ. Mərdanov) Mövzu Azərkosmos ASC 2018-2019-cu illər üzrə Azərbaycanın davamlı inkişafı naminə Yer səthinin məsafədən müşahidə xidmətlərinin təşviqi layihəsinin qalibi olmuşdur (qeydiyyat tarixi 12 sentyabr 2018-ci il);
2. Böyük Qafqazın şimal-şərq yamacında aerokosmik materiallar əsasında buzlaqların sahəsinin tədqiqi (prof.T.D.Ağayev, baş müəllim, c.f.d. M.A. Musayeva).
3. Ali təhsil müəssisələrində multiixtisaslı mütəxəssislərin hazırlanmasında innovativ texnologiyaların transferinin rolu (prof. Məmmədov C.F.);
4. Qeyri-xətti dinamik obyektlərin harmonik və impulsiv idarə təsirləri şəraitində optimal idarə metodlarının işlənməsi (neft emalı prosesləri nümunəsində) (prof. Nağıyev Ə.H.).

### 4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

**Plagiat.pl** şirkətinə məxsus **StrikePlagiarism.com** antiplagiat sistemindən istifadə etmək üçün SDU-nun rektoru tərəfindən 27.03.2019-cu ildə 29/19 saylı (36 ay müddətində) və 01.05.2022 69/22 saylı müqavilələr (36 ay müddətində) imzalanmışdır.

SDU-nun “Elmi xəbərlər” jurnalına, elmi konfranslara qəbul olunan sənədlər, eyni zamanda dissertasiyalar, dərslik və dərs vəsaitləri, monoqrafiyalar, elmi nəşrlər **Plagiat.pl** şirkətinin təqdim etdiyi təlimata görə müəyyən edilmiş oxşarlıq əmsallarına uyğunluğu **StrikePlagiarism.com** sistemində yoxlanılır, oxşarlıq əmsalları norma daxilində olduqda jurnala, konfrans materialları toplusuna daxil edilir və ya dərc olunmaq üçün tövsiyə olunur.

Ümumilikdə 2019-cu ilin may ayından, 2023-cü ilin fevral ayı da daxil olmaqla, **5468** elmi-tədqiqat işi yoxlanılmışdır.

Onlardan:

1) elmlər doktoru dissertasiyası – 3
2) fəlsəfə doktoru dissertasiyası – 91
3) dərs vəsaitləri – 39
4) dərslik – 4
5) monoqradiyalar – 6
6) elmi məqalə və konfrans tezisləri – 5 324

Qeyd etmək lazımdır ki, 2020-ci ildən SDU-da Elmi-tədqiqatların tətbiqi İnnovasiya Mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas vəzifələri texnoloji proseslərin avtomatlaşdırılması və idarə edilməsi üçün texniki, informasiya, alqoritmik və riyazi təminat vasitələrinin işlənməsi; tətbiq sahələrinə görə süni intellekt sistemlərinin alqoritmik və proqram vasitələrini işləmək; roboto texnikanın modelləşdirilməsi üçün alqoritmik, riyazi və proqram vasitələrini işləmək; biznes, marketinq, maliyyə, mühasibat uçotu və audit məsələlərini həll etməkdən ibarətdir. Mərkəzdə həmçinin təhsilalanlara (tələbə və magistrant) təcrübi vərdişlərin aşılanması istiqamətində də müvafiq işlər aparılır. Yəni, texnoloji proseslərin avtomatlaşdırılmasında proqramlaşdırılan məntiqi kontrollerin tətbiqi; SCADA TraceMode sistem əsasında texnoloji proseslərin avtomatlaşdırılması və idarəedilməsi məsələləri; $C^{++}$, Java və məntiqi proqramlaşdırma dillərindən istifadə etməklə alqoritmik və riyazi məsələlərin həlli; Data Base və Oracle sistemləri əsasında innovativ layihələrin verilənlər bazasının idarəetmə sistemlərinin yaradılması; AutaCad və ArchiCad sistemləri əsasında avtomatlaşdırılmış konstruktor layihələndirmə prosesinin sənayedə tətbiqi; MathLab sistemi əsasında tətqiqat obyektlərinin riyazi hesablama üsulları ilə modellərin qurulması və digər istiqamətlər üzrə təcrübi vərdişlərin aşılanması həyata keçirilir.

SDU-da yeni yaradılmış İnnovasiya Yaradılıq Mərkəzi və Strateji İnkişaf Mərkəzində innovasiya yaradıcılıq fəaliyyətinin təşviq edilməsi; təhsilalanların və təhsilverənlərin innovasiya yaradıcılıq fəaliyyətlərinin dəstəklənməsi, gənclərin elmə, müasir texnologiyalara və qabaqcıl biliklərə maraqlarının artırılması; qloballaşma şəraitində yeni iqtisadi çağırışlara uyğun rəqabət qabiliyyətli insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olunması, İYM-in müasir elmi-tədqiqat və İnnovasiya Mərkzinə çevrilməsi, SDU-nun ölkədə təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməsi istiqamətində innovativ yradıcılıq fəaliyyətinin təşkili; universitet-biznes əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsi; istedadlı tələbələrin və professor-müəllim heyətinin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan elmi-tədqiqat proqramlarının həyata keçirilməsi; innovasiya yaradıcılığı sahəsində dünyada qabaqcıl yer almış uyğun xarici müəssisələrin təcrübəsinin öyrənilməsi, tətbiqi və təşviqi, onlarla beynəlxalq əməkdaşlığın təşkilinin həyata keçirilməsi planlaşdırılıb.

SDU-da İnnovasiya Yaradıcılıq Mərkəzinin vəzifə və funksiyalarına müasir tələblərə uyğun bunanın inşası istiqamətində zəruri işlərin təşkil edilməsi; binanın otaqlarının müasir tələblərə uyğun avadanlıqlarla təhciz olunması istiqamətində zəruri işlərin görülməsi; SDU-nun tələbə və müəllimləri ilə yanaşı Sumqayıt şəhər sakinlərinə onların innovasiya yaradıcılıq fəaliyyətində İYM tərəfindən 24/7 müddətində xidmətin göstərilməsi; müxtəlif ixtisaslar üzrə ekspert qiymətləndirmə qrupunun fəaliyyətinin təşkil edilməsi; daxili Startup müsabiqələrinin təşkili; innovasiyalar fondunun yaradılması; yaradəilmış Mentor qrupunun səmərəli fəaliyyətinin təşkil edilməsi; SDU-da tələbə və müəllimləri üçün mentor təlim,

inkubasiya idarəetmə və Startap təlim proqramlarının təşkil edilməsi; xarici ölkələrdən və respublikanın müvafiq qurumlarından innovasiya yaradıcılıq məsələləri üzrə təlimçilərin dəvət olunması; innovasiya təkliflərinin (ideyaların) həyata keçirilməsini təmin etmək istiqamətində işlərin görülməsi; innovativ ideyaların əsasında yaranacaq firmalara mənəvi, maddi, texniki, hüquqi, iqtisadi dəstəyin verilməsi; İYM-nin Sumqayıt şəhərində fəaliyyət göstərən dövlət və özəl sənaye müəssisələri ilə əməkdaşlığının qurulması və inkişaf etdirilməsi; Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən təşkil olunan Startap, Hakaton və digər məqsədəuyğun müsabiqə və sərgilərin təşviqi; SDU-nun Strateji planına əsasən İYM-nin Fəaliyyət Proqramının yaradılması və proqrama əsasən işlərin görülməsi; İYM-da görülən işlərin sənədləşdirilməsi və gələcək nəsillər üçün arxivləşdirilməsi kimi vəzifələr daxildir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

SDU-da idarəetmə orqanları Elmi Şura, Rektorluq, rektor, prorektorlar, fakültə elmi şuraları, dekanlar və digər struktur bölmələri daxildir.

SDU-nun ali orqanı Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş “Ali təhsil müəssisələrinin Elmi Şurası haqqında” əsasnamənin tələblərinə uyğun formalaşdırılmış Elmi Şuradır. Elmi Şuranın tərkibi Elm və Təhsil Nazirliyinin 14.03.2022-ci il tarixli F-133 nömrəli əmri əsasında SDU üzrə 15.03.2022-ci il tarixli R-14/1 nömrəli əmri ilə 49 nəfərdən ibarət təsdiq edilmişdir. Onlardan17 nəfər elmlər doktoru professor, 23 nəfər fəlsəfə doktoru dosent və 3 nəfər tələbə THİK-nın, TGT-nin və TEC-in sədrləridir. Elmi Şuranın iş planları və protokolllarının təhlili göstərir ki, orada müzakirəyə çıxarılan məsələlər ümumilikdə universitetin cari və perspektiv inkişaf problemlərinin həllinə yönəlmişdir (Elmi Şuranın 06.07.2022, prot.№10- (https://www.sdu.edu.az/az/news/2225); 23.09.2022, prot.№01-(https://www.sdu.edu.az/az/news/2247); 25.10.2022, prot.№02 (https://www.sdu.edu.az/az/news/2298); 09.02.2023, prot.№06 -(https://www.sdu.edu.az/az/news/2412) və s.) tarixli iclaslarının protokolları.

Elmi Şura və Rektorluq Universitetin fəaliyyətinin idarə edilməsini Tədris-metodiki mərkəz, fakültələr, kafedralar və digər strukturlar ilə birlikdə sıx əlaqəli şəkildə həyata keçirir. SDU-nun strukturu ümumi formada aşağıdakı sxemdə təsvir olunmuşdur (bax: s.61).

Elm və Təhsil Nazirliyinin 14 mart 2016-cı il tarixli əmri ilə Sumqayıt Dövlət Texniki Kolleci SDU-nun nəzdinə verilmişdir. Bununla yanaşı, Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt və Səlyan filialları ləğv olunduqdan sonra onların tələbə kontingenti SDU-ya köçürülmüş, əməkdaşlar isə müsabiqə yolu ilə SDU-da işə qəbul olunmuşlar.

2018-ci ildə Elmi Şuranın vəsatəti əsasında Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının əmri ilə universitetin nəzdində FD.02-193 şifrəsi ilə Dissertasiya şurası yaradılmışdır. Həmin Dissertasiya Şurasında 3337.01- “İnformasiya-ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)” və 3303.01-“Kimya texnologiyası və mühəndisliyi” ixtisasları üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi həyata keçirilmişdir. Hazırda SDU-da 6 ixtisas üzrə 3 Dissertasiya Şurası fəaliyyət göstərir.

FD 2.23 Dissertasiya Şurasında 2306.01- “Üzvi kimya” və 2314.01- “Neft kimyası” ixtisasları üzrə, FD 2.24 Dissertasiya Şurasında 5706.01-“Azərbaycan dili” və 5716.01- “Azərbaycan ədəbiyyatı” ixtisasları üzrə, FD 2.25 Dissertasiya Şurasında 3337.01- “İnformasiya ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)” və 3338.01- “Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi” ixtisasları üzrə fəlsəfə doktoru dissertasiya işlərinin müdafiəsi həyata keçirilir.

## Sumqayıt Dövlət Universitetinin idarəetmə strukturu



2017-ci ildən SDU-nun tarixində ilk dəfə olaraq elmlər doktoru proqramı üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Tədris və tədris metodiki işlərin əlaqələndirilməsi Elmi Şuranın 29.05.2015-ci il tarixli iclasında (prot.№08) qəbul olunmuş və universitetin rektoru tərəfindən təsdiq edilmiş Əsasnamənin tələblərinə müvafiq olaraq prorektorlar tərəfindən həyata keçirilir.

Universitetdə kargüzarlıq normativ tələblərə və Azərbaycan Respublikası Prezidentinin 23.09.2003-cü il tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş Təlimat materiallarına uyğun olaraq yerinə yetirilir.

İdarəetmə orqanlarının fəaliyyəti SDU-nun Nizamnaməsinə (Nizamnamə 20.06.2005-ci il, №1105-A1-422) uyğundur. İdarəetmə orqanlarının əsasnamələri və iş planları mövcuddur.

İdarəetmə orqanlarında Tələbə Gənclər Təşkilatının (TGT), Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THT), Tələbə Elmi Cəmiyyətinin (TEC) sədrləri təmsil olunur. Həmçinin İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında hesabatın hazırlanması üçün yaradılmış Təşkilat Komissiyasının tərkibində işəgötürənlərin təmsil olunması təmin edilmişdir.

SDU Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 mart 1995-ci il tarixli 72 saylı qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsi haqqında” Əsasnaməyə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin hüquqi-normativ aktlarına və universitetin Nizamnaməsinə uyğun fəaliyyət göstərir.

SDU Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Dövlət qeydiyyatına alınmışdır (Şəhadətnamə №1105-A1-422; 20.06.2005-ci il). Universitetin Nizamnaməsinə dəyişiklik Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi tərəfindən qeydiyyata alınmışdır (Qeydiyyat №1105-A1-422; 10 fevral 2016-cı il).

Sumqayıt Dövlət Universitetinin fəaliyyəti AR NK-nin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi-nə uyğundur. İdarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına uyğun həyata keçirilir. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması kollegial formada reqlamentləşdirilmiş prosedurlar üzrə həyata keçirilir. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar qanunvericiliyin tələblərinə tam uyğundur, qərarların əlçatanlığı tam təmin edilir.Yəni bütün strukturlara təqdim olunur, qərarların icra olunması daim yoxlanılır və Elmi Şuranın iclaslarında qərarların yerinə yetirilməsinin vəziyyəti haqqında məlumat verilir.

İdarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiya internet üzərindən və daxili telefon qovşağı vasitəsilə həyata keçirilir və yüksək səviyyədədir.

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü universitetin Nizamnaməsinə uyğun aparılır və hər bir struktur təsdiq olunmuş daxili əsasnaməsinə uyğun fəaliyyət göstərir.

İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizmi mövcuddur və idarəetmə orqanlarının fəaliyyətinə dair dövri hesabatlar hazırlanır.

İdarəetmə orqanlarının fəaliyyətində şəffaflıq təmin edilir və davamlı olaraq təkmilləşdirilməsi həyata keçirilir.

## 5.2. İnsan resurslarının idarə edilməsi

SDU-da işə qəbul üzrə mükəmməl prosedur mövcuddur və işə qəbul şəffaf və əlçatan formada həyata keçirilir, seçkili vəzifələrin tutulması proseduru qanunvericiliyin tələblərinə tam uyğun vəziyyətdədir. Dekan, kafedra müdiri və dekan müavini vəzifələrinə seçkilər Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsində kafedra müdiri, dekan, dekan müavini vəzifələrinin tutulması Qaydaları”na uyğun olaraq, həmin vəzifələrin tutulmasına dair 2 ay öncə qəzetdə və universitetin rəsmi saytında müsabiqənin keçirilməsi barədə elan verilir. 1

ay sənədlərin qəbulu, 1 ay ərzində isə müsabiqənin keçirilməsi təmin edilir. Professor-müəllim vəzifələrinə seçkilərin keçirilməsi Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" əsasnaməyə uyğun olaraq həyata keçiriir. Müsabiqənin keçiirlməsinə dair elan 1 ay öncə qəzetdə və universitetin rəsmi saytında dərc olunur. Bir ay ərzində sənədlərin qəbulu, iki ay ərzində isə müsabiqənin keçirilməsi təmin edilir. SDU-nun akademik və inzibati heyəti onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğundur. SDU-da işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və elmi-pedaqoji göstəricilərindən asılı olaraq əmək haqqı sistemi tənzimlənir.

Belə ki, əməkdaşlar struktur rəhbərləri tərəfindən daim diqqət mərkəzində saxlanılır, onların fəaliyyəti, öz üzərlərində daim çalışmaları, fəallıqları, zəhmətsevərlikləri nəzərə alınmaqla mükafatlandırılır, universitet rəhbərliyi tərəfindən fəxri fərmanla təltif olunurlar. Öz fəallığı ilə xüsusi fərqlənən əməkdaşlar "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif olunması üçün Elm və Təhsil Nazirliyinə təqdim olunurlar (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin K-636 saylı 03.11.2017-ci il; ......... 2022-ci il tarixli əmrləri). Universitet rəhbərliyinin təqdimatı əsasında bir qrup əməkdaşımız Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə təhsilin inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı və "Əməkdar müəllim" Fəxri adı ilə təltif olunmuşdurlar (Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2017-ci il, 16 noyabr 2022-ci il tarixli Sərəncamları). Həmçinin beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (Web of Science, Scopus və s.) daxil olan jurnallarda məqaləsi dərc olunan əməkdaşlar mükafatlandırılır.

SDU-da işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi aparılır, ayrı-ayrı kafedraların fəaliyyətinin səmərəliliyi yoxlanlır və Elmi Şurada müzakirə olunub qiymətləndirilir. SDU-da əməkdaşların ixtisasartırma və peşəkarlıq səviyyələrinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi mütəmadi olaraq davam etdirilir. Bundan başqa, SDU-nun bir qrup əməkdaşı xarici ölkə uiversitetlərində ixtisasartırma keçmiş, mühazirə demiş və sertifikat almışlar.

Mühəndislik, İqtisadiyyat və idarəetmə fakültələrinin əməkdaşları Sankt-peterburq Dövlət İqtisad universitetində ixtisasartırma kursu keçmişlər, təcrübə mübadiləsi aparmış və mühazirə demişlər. SDU-nun Maliyyə və mühasibat uçotu kafedrası ilə Sankt-Peterburq Dövlət Universitetinin Mühasibat uçotu və analizi kafedrası arasında uzunmüddətli əməkdaşlıq müqaviləsi imzalanmışdır.

Fizika və elektroenergetika fakültəsinin dosentləri Rusiya federasiyasının Kazan Dövlət Energetika Universitetində ixtisasartırma kursu keçmişlər, mühazirə demişlər və müvafiq sertifikat almışlar. Fizika və elektroenergetika fakültəsinin dekanı Ufa Dövlət Neft Texniki Universitetndə keçirilən Rusiya-Azərbaycan Universitetləri Assosiasiyasının II Forumunda keçirilən beynəlxalq konfransın Plenar iclasında çıxış etmişlər.

Kimya və biologiya fakültəsinin əməkdaşları Ufa Dövlət Neft Texniki Universitetndə mübadilə proqramında iştirak etmiş, master-klas mühazirəsi oxumuş, tələbələrimiz isə Beynəlxalq fənn oimpiadasında iştirak etmişlər.

Əlavə Təhsil Mərkəzi Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 21.09.2015-ci il tarixli, 46-25-5825/17 nömrəli razılıq məktubunun əsasında Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının 02 oktyabr 2015-ci il tarixli iclasının (protokol №01) qərarı ilə yaradılmışdır. Mərkəzdə SDU əməkdaşları ilə yanaşı digər universitetlərin professor-müəllim heyəti, eləcə də orta məktəb müəllimləri ixtisasartırma kurslarında iştirak etmişlər və müvafiq sertifikat almışlar. Mərkəzdə həmçinin təkrar ali təhsil proqarmları üzrə təhsil aparılır.

Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir. Əlavə təhsil peşə hazırlığı səviyyəsinin

Seyfəddin oğlu Səfərli Əlavə Təhsil Mərkəzinə direktor təyin olunmuşdur.
Azəbaycan Respublikasında əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:
•ixtisasartırma təhsili;
•kadrların yenidən hazırlanma təhsili;
•stajkeçmə və kadrların təkmilləşdirilməsi təhsili;
•təkrar ali təhsil;
•dərəcələrin yüksəldilməsi təhsili;
•yaşlıların təhsili.
Bu istiqamətlər üzrə təhsilin məzmunu, təşkili və hər hansı istiqamət üzrə təhsil almış şəxslərə müvafiq dövlət sənədinin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli, 163 №-li qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası" sənədi ilə tənzimlənir.
İxtisasartırma təhsilinin əsas məqsədi hər bir işçinin və ya mütəxəssisin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsini, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakını təmin etməkdir. İxtisasartırma təhsilinin kurikulum modeli işlənmiş və ənənəvi üsullardan fərqli olaraq, təhsilin bu sahəsi yeni model əsasında həyata keçirilir.
Yenidənhazırlanma təhsili ilkin baza peşə-ixtisas təhsili almış və müəyyən əmək sahəsində çalışan hər bir vətəndaşın müvafiq sahə üzrə yeni peşə və ixtisasa yiyələnmə istəyini həyata keçirən əlavə təhsil formasıdır və kadrlara olan real tələbatın daha dinamik və çevik surətdə ödənilməsinə xidmət edir. Bu təhsil forması ilkin baza təhsil proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərti ilə mütəxəssislərə verilən əlavə təhsildir. Yenidənhazırlanma təhsili üzrə proqramları tam mənimsəyən, dövlət attestasiyasından müvəffəqiyyətlə keçən hər bir dinləyiciyə vahid formalı dövlət sənədi - diplom verilir.
Stajkeçmə və kadrların təkmilləşdirilməsi elmi-pedaqoji, pedaqoji, mühəndis-müəlim kadrları, sənaye, tikinti, iqtisadiyyat, tibb, kənd təsərrüfatı, bütün növ istehsal sahələri və s. kateqoriyadan olan kadrlar üçün əlavə təhsil növüdür.

Təkrar ali təhsil baza peşə ixtisas təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərq bir tədris ilinə hasablannıış saatdan çox olduqda mütəxəssislərə verilən əlavə təhsil növüdür. Bu təhsil növü mütəxəssis hazırlamaq işində çevikliyi və ayrı-ayrı şəxslərin əlavə ixtisas təhsili almaq arzusunu təmin etmək məqsədi ilə həyata keçirilir.

Dərəcələrin yüksəldilməsi təhsili orta ixtisas təhsili müəssisələrini bitirmiş və subbakalavr dərəcəsi almış kadrların uyğun ixtisaslar üzrə bakalavr səviyyəsinə hazırlığını nəzərdə tutan təhsil növüdür. Dərəcələrin yüksəldilməsi təhsili ali təhsilli kadrlara olan real tələbatın daha dinamik və çevik sürətdə ödənilməsinə xidmət edir və ilkin baza təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavr təhsili proqramı arasındakı fərqin 1 tədris ilinə hesablanmış saatdan az və 2 tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə subbakalavrlara verilən əlavə təhsildir.

Yaşlıların təhsili və vətəndaşların fasiləsiz olaraq cəmiyyətdə və iqtisadiyyatda baş verən dəyişikliklərə uyğunlaşmasını təmin edən əlavə təhsil növüdür. Əlavə təhsilin bu istiqaməti əməkqabiliyyətli əhalinin böyük bir hissəsinin əmək bazarında rəqabətqabiliyyətli olmaları üçün onların yenidən ixtisaslaşması, yeni şəraitə uyğunlaşdırılması və yeni iş imkanlarının yaradılması zərurətindən irəli gəlir.

Son 7 ildə SDU-nun Əlavə Təhsil Mərkəzində 501 nəfər ixtisasartırma kurslarından keçmişlər, onlardan 259 nəfər orta məktəb müəllimi, 24 nəfər məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri, 10 nəfər kollec müəllimi, 208 nəfər isə SDU-nun müəllimləri olmuşlar.

*SDU-nun Əlavə Təhsil Mərkəzindən keçən dinləyicilərin dinamikası*

| S/S | Tədris illəri | Cəmi | SDU üzrə | SDTK üzrə | Orta məktəblər üzrə | Məktəbəqədər təhsil üzrə |
|---|---|---|---|---|---|---|
| 1 | 2015/2016 | 293 | 10 | - | 259 | 24 |
| 2 | 2016/2017 | 48 | 38 | 10 | | |
| 3 | 2017/2018 | 31 | 31 | | | |
| 4 | 2018/2019 | 18 | 18 | | | |
| 5 | 2019/2020 | 43 | 43 | | | |
| 6 | 2020/2021 | 29 | 29 | | | |
| 7 | 2021/2022 | 39 | 39 | | | |
| **Yekun** | | 501 | 208 | 10 | 259 | 24 |

SDU-da işçilərə münasibətdə sosial, mədəni və kütləvi tədbirlərin keçirilməsi yüksək səviyyədə həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci ili Nəsimi ili, 2021-ci ili Nizami ili, 2022-ci ili Şuşa ili, 2023-cü ili Heydər Əliyev ili elan etməsilə əlaqədar, hər ilin məzmunu ilə bağlı silsilə tədbirlər planı hazırlanır, Elmi Şurada təsdiq olunur və həyata keçirilir.

SDU-da qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflıq tam təmin olunur. Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi sistemi mövcuddur, onların fəaliyyəti fərdi qaydada qiymətləndirilir. Yəni kafedra müdiri əməkdaşların güclü və zəif tərəfləri haqqında məlumatı fakültə dekanına təqdim edir, fakültə dekanı öz növbəsində fakültə üzrə məlumatları universitet rəhbərliyinə təqdim edir.

SDU-da əmək müqavilələrinin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələbləri tam nəzərə alınır. Yəni Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələblərinə uyğun həyata keçirilir (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №4).

**5.3.Maliyyə resurslarının idarə edilməsi**

SDU-nun maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil) mənbələri universitetin Nizamnaməsinə tam uyğundur. Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırılması məqsədyönlü səviyyədə həyata keçirilir. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətləri SDU-nun Strateji İnkişaf Planına uyğun formada təmin edilir. Əlavə maliyyə resurslarının əldə olunması istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilir. Əldə olunan maliyyə resurslarının şəffaflığı yüksək səviyyədədir. Maliyyə resurslarından istifadə SDU-nun Nizamnaməsinə tam uyğundur. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru SDU-nun Nizamnaməsinə tam uyğundur. Maliyyə resurslarından təyinatı üzrə istifadəsinə cari nəzarətin həyata keçirilməsi yüksək səviyyədədir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlari qanunvericiliyn tələblərinə tam uyğun şəkildə həyata keçirilir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin tələblərinə tam uyğun təşkil edilir. Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə tam uyğun formada tərtib olunur və aidiyyatı orqanlara, yəni Nazirliyə, Dövlət Vergi İdarəsinə, Sosial Müdafiə Fonduna, Maliyyə şöbəsinə vaxtında təqdim edilir. Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə tam uyğun formada dərc olunur.

Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarəti mövcuddur. Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin

nəzarəti mövcuddur. Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

SDU Dövlət büdcəsindən, yəni dövlət sifarişi üzrə tələbələrin xərcləri üzrə və büdcədənkənar daxilolmalar, yəni ödənişli təhsildən əldə edilən gəlirlər hesabına maliyyələşdirilir. Maliyyə resurslarının mənbələri universitetin nizamnaməsinə uyğundur. Elmi-tədqiqat işlərinin yerinə yetirlməsinə görə maliyyə vəsaiti əldə edilməmişdir.

Maliyyə resursları qısa və orta müddətli dövr üçün planlaşdırılır. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlər SDU-nun Strateji İnkişaf Planına uyğundur. Əlavə maliyyə resurslarının əldə edilməsi məqsədilə universitetdə İnnovasiya Yaradıcılıq Mərkəzinin yaradılması qərara alınmışdır. (SDU-nun Elmi Şurasının 18.05.2022-ci il tarixli iclasının qərarı). Hazırda bu istiqamətdə geniş miqyaslı işlər aparılır. İnnovasiya Yaradıcılıq Mərkəzində müxtəlif perspektivli elmi ideyaların, SDU alimlərinin patentləşdirilmiş ixtiralarının istehsala tətbiqinin reallaşdırılması və digər istehsalyönümlü xidmətlərin aparılması sayəsində əlavə maliyyə resurslarının əldə olunması nəzərdə tutulub. Həmçinin tədris üçün intellektual sənaye robotları, kənd təsərrüfatı üçün intellektual suvarma cihazının, interaktiv idarə olunan xilasedici robot, hərbçilər üçün qızdırıcı geyim, məsafədən mina axtran nəzarət sistemi, məsafədən idarə olunan sənaye robotu, mənzilin elektron (ağıllı) kommunal nəzarət sistemi, süni əlin hərəkətini təmin edən cihaz, tullantıların avtomatik seçilməsi və toplanması qurğusu və digər sənaye nümunələrinin hazırlanması nəzərədə tutulub ki, bu nümunələrin tədris prosesində tətbiq etməklə yanaşı sənaye və kənd təsərrüfatı müssisələrinə təqdim etməklə onların istehsal prosesinə tətbiqi planlaşdırılır. Maliyyə resurslarının əldə olunmasında şəffaflıq tam təmin edilir. Maliyyə resurslarından istifadə olunması SDU-nun Nizamnaməsinə uyğundur.
Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurları SDU-nun Nizamnaməsinə tam uyğundur.Maliyyə resurslarında təyinatı üzrə istifadə olunmasına cari nəzarət tam təmin edilir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları qanunveriliciliyin tələblərinə uyğun təşkil edilir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin tələblərinə tam uyğun formada təşkil olunur. Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun tərtib olunur və vaxtında aidiyyatı orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunur.
Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun dərc olunur. Maliyyə resurslarının əhatə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə müvafiq tədbirlər həyata keçirilir.

**5.4. Informasiya idarəetmə sistemi**

SDU-da İnformasiya idarəetmə sisteminin hüquqi əsasları, yəni əsasnaməsi və reqlamenti mövcuddur. İnformasiya idarəetmə sistemində idarəetmə funksiyaları universitetin bütün strukturlarını əhatə edir və məlumatların yenilənməsi mütəmadi həyata keçirilir. Sistemin qurulmasında əsas məqsəd "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulmuş hədəflərə nail olunmasına və müasir informasiya-kommunikasiya texnologiyalarına əsaslanan yeni təhsil idarəetmə sisteminin formalaşdırılmasına töhfə verməkdir.

Platforma sayəsində universitetin bütün qurumları (Rektorluq, Ümumi Şöbə, Dekanlıq, Kafedra, Kitabxana, Mühasibatlıq və s.) gündəlik iş prosesinin avtomatlaşdırılması, daha effektiv idarə olunması, onlar arasında informasiya mübadiləsinin real vaxt zəminində baş verməsi, gələcəyə yönəlmiş proqnozların analiz oluna bilməsi, kağız əməyindən maksimum imtina edilərək elektron platformaya keçilməsinə zəmin yaratmaqdır.

SDU-da informasiya idarəetmə sisteminin fəaliyyəti İnformasiya texnologiyaları mərkəzi vasitəsilə təmin edilir. İnformasiya texnologiyaları mərkəzinin Əsasnaməsi Elmi

Şuranın 15.12.2021-ci il tarixli iclasının (prot.№05) qərarı ilə təsdiq edilmişdir. İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı kifayət qədər genişdir, sistemə yerləşdirilmiş məlumatlar vaxtaşırı yoxlanılır və yenilənir. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsü mövcuddur. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması istiqamətində tədbirlər həyata keçirilir.

İnformasiya idarəetmə sisteminə əlçatanlıq yüksək səviyyədədir və tələblərin informasiya idarəetmə sistemindən istifadəsi normal səviyyədədir.

Elektron universitetin səmərəli idarə edilməsi məqsədilə SDU üzrə rektorun 23.01.2023-cü il tarixli R-08/1 nömrəli əmri ilə Elektron universitetin idarə edilməsi şöbəsi (EUİEŞ) yaradılmışdır.

Platforma əsas aşağıdakı modullardan ibarətdir:

| **Universitetin struktunun yaradılması** |
|---|
| • Qurumlar<br>• Otaqlar<br>• Fənnlər<br>• İxtisaslar<br>• Qeyri iş günləri |
| **Tələbə qəbulu** |
| • Onlayn tələbə qəbulu<br>• Elm və Təhsil Nazirliyinin tələbə qəbul sisteminə inteqrasiya |
| **İşçi və Tələbə İnformasiya Sistemi** |
| • Vəzifələr<br>• Elmi dərəcələr<br>• İşçilər<br>• Tələbələr<br>• Tələbə köçürmələri<br>• Qruplar<br>• Yarım Qruplar<br>• Tələbə vahid pəncərəsi<br>• Qrup vahid pəncərəsi |
| **Tərdris prosesinə hazırlıq** |
| • Tədris planları<br>• Fənn üzrə mövzular, imtahan sualları, kollokvium sualları, sərbəst işlər<br>• Akademik borclar<br>• Alt qruplar<br>• Əlavə qrupları<br>• Dərs Tapşırıqları<br>• Dərs bölgüsü<br>• Dərs cədvəli |
| **Elektron jurnal** |
| • Davamiyyət<br>• Qiymətləndirmə<br>• Sərbəst işlər |

- Laboratoriya işləri
- Teqvim tematik planlar
- Yekun qiymətin anında hesablanması

**5.5. İctimaiyyətlə əlaqələr**

Sumqayıt Dövlət Universitetinin rəsmi saytı olan “sdu.edu.az” ana səhifə, haqqımızda, struktur, elm, təhsil, beynəlxalq və ictimai adlı 7 bölmədən ibarətdir. Universitetin rəsmi saytı 3 dildə - Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Saytın müxtəlif dillərdə istifadəyə verilməsi yalnız yerli deyil, eyni zamanda əcnəbi istifadəçilərin də mümkün imkanlardan və mövcud resurslardan yararlanmasına xidmət edir. Rəsmi saytda SDU-nun Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti tərəfindən universitetdə keçirilən tədbirlər və görülən işlər, universitet həyatı ilə bağlı olan məlumatlar, o cümlədən cəmiyyət xəbərləri də operativ, dolğun və dəqiq şəkildə yerləşdirilir.

SDU-nun 2022-ci il üçün nəzərdə tutulmuş Strateji İnkişaf Planının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planına uyğun olaraq SDU rəhbərliyinin, Keyfiyyət təminatı şöbəsinin və müvafiq strukturların (Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti və İnformasiya Texnologiyaları Mərkəzi) dəstəyi ilə SDU-nun rəsmi saytının funksionallığını və hədəf auditoriyası arasında populyarlığını artırmaq məqsədilə 23 may 2022-ci il tarixində Sumqayıt Dövlət Universitetinin rəsmi internet saytı yeni formatda və sistemləşdirilərək oxucuların istifadəsinə verilmişdir. Universitetin tarixi, geniş tədris imkanları, strateji məqsədləri, maddi-texniki bazası, beynəlxalq əlaqələri, elmi-tədqiqat laboratoriyaları, ictimai fəaliyyəti və infrastrukturu haqqında mükəmməl informasiyaları özündə əks etdirən saytın yeni formatı “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar”a (ESG) əsasən hazırlanmışdır. Belə ki, ali təhsil müəssisəsinin struktur vahidlərinin tərkibinə və inzibati heyətə aid məlumatlarla yanaşı, fakültələr üzrə sillabuslar, təhsil səviyyələri üzrə illik qəbul proqnozu və tədris planları, universitetin Nizamnaməsi, Strateji İnkişaf Planı, akademik təqvimi, xarici tərəfdaşlar, əcnəbi tələbələrin qəbuluna dair məlumatlar, yeni istifadəyə veriləcək Avropa standartlarına uyğun “Tələbə evi” və tələbələrin asudə vaxtlarının dəyərləndirilməsini özündə əks etdirən fotomateriallar da sayta yerləşdirilmişdir. SDU-nun nəzdində fəaliyyət göstərən Sumqayıt Dövlət Texniki Kolleci, həmçinin Heydər Əliyev Mərkəzi və digər mərkəzlər barədə məlumatlar da yenilənərək sayta əlavə edilmişdir. Saytın yenilənməsi məlumatların ictimaiyyət üçün daim əlçatan olması SDU-nun fəaliyyətinin şəffaflığının və innovasiyalara açıq olmasının ən bariz nümunəsidir (https://www.sdu.edu.az/az/news/2172).

SDU rəsmi saytı ilə yanaşı müxtəlif üsul və vasitələrlə universitetdə görülən işlər barədə ictimaiyyəti müntəzəm olaraq məlumatlandırır. Universitetin 2000-ci ildən nəşr olunan “Sumqayıt Universiteti” qəzetində dərc olunan materialların əsas məzmununu tələbə və müəllimlərimizin elmi uğurları, universitetdə keçirilən elmi və kütləvi tədbirlər, beynəlxalq konfranslar, həmçinin ali təhsil müəssisəsində baş verən yenilik və uğurlardan bəhs edən xəbərlər təşkil edir. Gündəlik saytlarda və rəsmi mətbu orqanlarda yayımlanan mühüm xəbərlər aylıq nəşr olunan “Sumqayıt Universiteti” qəzetində də işıqlandırılır.

SDU-da təşkil olunacaq elmi konfranslar barədə məlumatları və konfrans materiallarını SDU-nun rəsmi saytı ilə yanaşı https://www.ssu-conferenceproceedings.edu.az/az link keçidindən, Elmi xəbərlər jurnalının nömrələrini isə https://www.ssu-scientificnews.edu.az/az link keçidindən əldə etmək mümkündür.

İctimaiyyətin operativ şəkildə məlumatlandırılması və məlumatların daha geniş auditoriyalara çatdırılması üçün Sumqayıt Dövlət Universiteti sosial şəbəkə platformalarından da geniş şəkildə istifadə edir. Belə ki, SDU-nun “Facebook” (https://www.facebook.com/sdueduaz1962),“Twitter”(https://twitter.com/Sdueduaz?t=pkK71jB_ETXrQhCdDdqq7g&s=09), “Telegram” (https://t.me/sdueduaz) və “Instagram” (https://instagram.com/sdueduaz?igshid=ZmVmZTY5ZGE=) hesabları mövcuddur. Universitetin fəaliyyəti barədə xəbərlər, videosüjetlər və fotoşəkillər bu hesablarda da

mütəmadi olaraq yerləşdirilir. Bunlarla yanaşı SDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin , Tələbə Gənclər Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin də sosial şəbəkə hesabları vardır.

Həmçinin ictimaiyyəti məlumatlandırmaq və onları maraqlandıran sualların cavablandırılması üçün şəhər telefonu (+99418 642-16-20) və elektron poçt (info@sdu.edu.az) əlaqə vasitələri mövcuddur.

Universitetdə görüləcək işlərlə bağlı ictimaiyyəti məlumatlandırmaq üçün bülletenlər, elanlar, banner və rolaplar hazırlanır.

Universitetin fəaliyyəti haqqında ictimaiyyətin məlumatlandırılması məqsədilə ictimaiyyət nümayəndələri ilə qarışılıqlı əlaqələrin qurulması, KİV-lə əlaqə, universitetin fəaliyyətini əks etdirən press-relizlər, məlumat bülletenləri, bəyanatlar, müsahibələr, çıxışların hazırlanması və yayılması istiqamətində işlər həyata keçirilir. Universitetin fəaliyyəti ilə bağlı xəbərlər müxtəlif televiziya kanalları, qəzetlər və xəbər saytları da daxil olmaqla mütəmadi olaraq dövri mətbuatda işıqlandırılır. AzTv-ni, Dünya tv-ni, “Azərbaycan” qəzetini, “Xalq” qəzetini, “Azərbaycan Müəllimi” qəzetini, “Sumqayıt” qəzetini, Elm və Təhsil Nazirliyinin rəsmi saytını, “azertag.az” saytını və digərlərini qeyd edə bilərik.

Universitetin fəaliyyəti ilə bağlı KİV-lərdə yayımlanan materialların gündəlik monitorinqi aparılır və həqiqətə uyğun olmayan məlumatlarla bağlı operativ tədbirlər görülür.

Sumqayıt Dövlət Universitetinin fəaliyyəti barədə ictimaiyyətin lazımi qaydada məlumatlandırılmasının təmin edilməsi məqsədilə universitet rəhbərliyi tərəfindən təsdiq edilən “Sosial  məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluğun Fəaliyyət Planı”nda universitetin Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətinin işinə dəstək, universitetdə keçirilən tədbirlərin və görülən işlərin SDU-nun rəsmi saytında, “Sumqayıt Universiteti” qəzetində, universitetin rəsmi sosial şəbəkə hesablarında yerləşdirilməsinin təmini, universitetdə keçirilən tədbirlərin və görülən işlərin geniş ictimaiyyətə çatdırılması üçün media nümayəndələrinin iştirakının təmini, universitetin ictimaiyyəti məlumatlandırma fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə sorğuların keçirilməsi, universitetin KİV-lə və ictimaiyyətlə əlaqələrində səmərəliliyin artırılmasına, bu sahədə mövcud münasibətlərin yaxşılaşdırılmasına dair təkliflərin verilməsi məsələləri öz əksini tapır.

Ali təhsil müəssisəsində gedən proseslərin düzgün, şəffaf və ədalətli qaydada həll tapmasında ictimaiyyətin böyük rolu vardır. Bu məqsədlə SDU-nun rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurası yaradılmışdır (https://sdu.edu.az/az/news/772). 30 dekabr 2021-ci il tarixli, № R-58 əmrə əsasən Şuranın yeni tərkibi müəyyən edilmişdir.

SDU-da İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, valideynlər və KİV nümayəndələrinin iştirakı ilə ənənəvi Açıq qapı günləri keçirilir (https://www.sdu.edu.az/az/news/2016).

Sumqayıt Dövlət Universiteti SOCAR Polimer MMC, STP (Sumqayıt Texnologiyalar Parkı), “Azərişıq” ASC kimi bir çox müəssisə, təşkilat və qurumlarla mütəmadi olaraq əməkdaşlıq edir və qarşılıqlı işgüzar əlaqələr qurur. Həyata keçirilən birgə tədbirlər çərçivəsində universitetin fəaliyyəti ilə yaxından tanış olurlar.

Sumqayıt Dövlət Universiteti ictimaiyyəti məlumatlandırma fəaliyyətinin təkmilləşdirilməsi  və nəzarət məqsədilə əməkdaşlar və tələbələr arasında sorğular aparır, sorğuların nəticələri təhlil edilir və əldə olunmuş nəticələrə əsasən müəyyən təkmilləşdirilmə işləri həyata keçirilir. Belə ki, 19-29 dekabr 2022-ci il tarixlərində universitetin əməkdaşları və tələbələri arasında anonim və şəffaf şəkildə Sumqayıt Dövlət Universitetinin ictimaiyyəti məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı sorğular keçirilmişdir. SDU-nun ictimaiyyəti məlumatlandırma fəaliyyətinin mütəmadi olaraq izlənilməsi, təhlili və təkmilləşdirilməsi məqsədilə keçirilən sorğularda 1700 nəfər iştirak etmişdir. Nəticələrə əsasən universitetin fəaliyyəti ilə bağlı informasiyaları əməkdaşların 84%-i universitetin rəsmi saytından, tələbələrin 49,3%-i isə universitetin

sosial şəbəkə hesablarından əldə edirlər. Əməkdaşların 49,2 %-i universitetin rəsmi saytının fəaliyyətini "əla", tələbələrin isə 50,8%-i "yaxşı" qiymətləndirib. Əməkdaşların 49,2%-i, tələbələrin isə 49,4 %-i universitetin rəsmi sosial şəbəkə hesablarının fəaliyyətini "yaxşı" qiymətləndiriblər. Universitetin rəsmi saytının formatının yenilənməsindən sonra məlumatların əlçatanlığı əməkdaşlarımızın 89,3 %-ni, tələbələrin isə 77,2 %-ini tam qane edir. Universitetin fəaliyyəti ilə bağlı məlumatların əldə edilməsi və sorğuların cavablandırılmasının operativliyi əməkdaşların 89,3 %-ni, tələbələrin isə 80,8 %-ni tam qane edir. Aparılmış sorğular çərçivəsində universitetin ictimaiyyəti məlumatlandırma fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində iştirakçıların rəy və təklifləri dəyərləndirilir (https://www.sdu.edu.az/az/news/2399).

SDU-nun rəsmi internet saytının tərtibatı mükəmməl formadadır. SDU-nun rəsmi saytına yerləşdirilən məlumatların dəqiqliyi, aktuallığı və mütəmadi yenilənməsi yüksək səviyyədədir.

SDU-nun ictimaiyyəti məlumatlandırması məqsədilə digər əlaqə üsullarından geniş istifadə edilir. Həmçinin kabel telefonu, mobil telefon əlaqələri də mövcuddur. Elektron ünvanı, E-mail: info@sdu.edu.az

Bundan başqa vaxtaşırı SDU-da "Açıq qapı" günləri keçirilir. "Açıq qapı" günlərində ictimaiyyət nümayəndələri, KİV-nümayəndələri, valideynlər və digər arzu edənlər iştirak edirlər. SDU-da ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planı mövcuddur və bu plan üzrə bütün məlumatlar vaxtında universitetin saytında yerləşdirilir.

SDU-nun məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətinin qiymətləndirilməsinə imkan verir.

SDU-nun məlumatlandırma fəaliyyəti monitorinqi aparılır və zərurət yarandıqda təkmilləşdirilməsi həyata keçirilir.

SDU-nun rəsmi saytının mövcudluğu vəziyyəti: sdu.edu.az, ssuscientificnews.edu.az,ssu-conferenceproceedings.edu. az saytları, "Facebook", "İnstagram", "Twitter" də paylaşılır.

SDU-nun *rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti :* Universitetin elm, təhsil və digər ictimai faydalı fəaliyyətini təbliğ etmək; tədris və elmi nailiyyətləri yerli media orqanlarında, saytlarda, televiziya verilişlərində işıqlandırmaq; universitetdə keçirilən tədbirlərlə bağlı press-relizlər hazırlamaq; Azərbaycan, rus və ingilis dillərində olmaqla gündəlik xəbərləri www.sdu.edu.az saytına yerləşdirmək; universitetin fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində yayımlanan və həqiqətə uyğun gəlməyən məlumatlarla bağlı zəruri hallarda universitetin strukturlarının iştirakı ilə cavab hazırlamaq və təhrif olunan halların aradan qaldırılması üçün tədbirlər görülür. SDU-nun ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti: Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti öz fəaliyyətində "Təhsil haqqında", "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunlarını, SDU-nun Nizamnaməsini və digər normativ-hüquqi aktları rəhbər tutur. İctimai təşkilatlarda, kütləvi informasiya vasitələrində, o cümlədən digər təhsil müəssisələri və ayrı-ayrı vətəndaşlarla əlaqədə universitetin maraqlarının təmsilçisi kimi çıxış edir. SDU-nun məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti: Tədbirlər Azərbaycan qəzeti, Xalq qəzeti, Respublika qəzeti, Azərbaycan müəllimi qəzeti, Sumqayıt qəzeti, AzərTac, Təhsil.biz, Təhsil-Press.az, aia.az, xeberle.com, xeberfakt.az, sumqayıtxeber.com, heqiqet.az və digər saytlarda işıqlandırılır. SDU-nun məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti: www.sdu.edu.az saytı universitet professor-müəllim və tələbə heyəti tərəfindən izlənilir

## 6. İNFRASTRUKTUR

### 6.1 *Tədris infrastrukturu*

Maddi-texniki bazanın təhlili ayrı-ayrı təhsil proqramları üzrə aparılmışdır ki, bu da universitetin bütünlüklə maddi-texniki, tədris-laboratoriya bazasını və onun zəruri avadanlıqlarla təchizatının mövcud vəziyyətini əhatə etmişdir. Tədris laboratoriyaları zəruri qurğularla, avadanlıqla, cihazlar və digər zəruri vəsaitlərlə (kimyəvi reaktivlər, kimyəvi qablar, indikatorlar və s.) təchiz edilmişdir. SDU-da tədris prosesi üç tədris korpusunda keçirilir.

Auditoriya fondunun 3138 $m^2$ nəzəri mühazirə və məşğələ auditoriyalarına, 796 $m^2$ isə laboratoriya dərslərinin keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Bunlarla yanaşı universitetin birinci tədris korpusunda idman zalı, konfrans zalları, H. Əliyev Mərkəzi, Elmi kitabxana, müəllimlər və tələbələr üçün iaşə xidməti zalları və tibbi xidmət məntəqəsi fəaliyyət göstərir. Elmi ktabxanada internetə qoşulmuş 11 kompüter, kitabxananın ümumi fondu 159250 kitabdan ibarətdir. Bunlardan 82764 dərslik və dərs vəsaitləri, 28556 bədii ədəbiyyat, 467 monoqrafiya, Azərbaycan dilində olan kitablar 80000, Rus dilində 79250, ingilis dilində 1760 kitab mövcuddur. Kitabxana fondu daim yenilənir.

Universitetin I və II tədris korpusları 4 mərtəbəli, III tədris korpusu isə 2 mərtəbəlidir. Hər 3 tədris korpuslarında auditoriyalar müvafiq İKT avadanlıqları ilə, həmçinin elektron lövhə ilə təchiz olunmuşdur.

Tədris binaları və tədris otaqları dövlət standartlarının tələblərinə uyğundur.

Kadr hazırlığı aparılan ixtisasların xarakterik xüsusiyyətlərinə uyğun təlim və tədris bazası mövcuddur. İxtisasın xarakterinə uyğun ixtisaslaşdırılmış auditoriyalar, zəruri cihazlar və avadanlıqlarla təchiz olunmuş tədris laboratoriyaları, açıq səma altında yerləşdirilmiş energetika istehsalat-təcrübə bazası və poliqonu mövcuddur ki, bunlar da fizika və elektroenergetika ixtisasları üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsi keçmələrində xüsusi əhəmiyyətə malikdir. Distant təhsilin həyata keçirilməsi üçün zəruri olan infrastruktur mövcuddur.Tədris infrastrukturundan istifadənin tələbələr və müəllimlər üçün əlçatanlığı çox yüksəkdir. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcuddur və onlara hərtərəfli köməklik göstərilir. Xüsusi tədris otağı zəruri mebel və digər vasitələrlə təhciz edilmişdir. Görmə qüsurları olan tələbələr üçün avadanlıq dəsti mövcuddur: Foto skaner, Printer, Klaviatura, Ayaqla idarə olunan işəsalma düyməsi, audio disklər həmçinin kompüter dəsti və proyektorla təhciz olunmuşdur. SDU-nun hər üç tədris binasının həyətində ayrıca inşa olunmuş yeməkxana mövcuddur. Yeməkxanalarda göstərilən xidmətlərdən tələbələrin və müəllimlərin məmnunluq səviyyəsi yüksəkdir. SDU-nunTələbə evi beynəlxalq standartlara uyğun səviyyədə əsaslı təmir edilmiş və yenidən qurulmuşdur. Tələbə evi artıq tələbələrin istifadəsinə verilmişdir, burada tələbələrin dərsə hazırlaşmaları üçün kitabxana, istirahətləri üçün hər cür şərait yaradılmışdır. Həmçinin məişət məsələləri ilə əlaqədar bütün zəruri vasitələrlə yüksək səviyyədə təmin edilmişdir. SDU-da tələbələrə və əməkdaşlara tibbi xidmət göstərilməsi üçün tibb məntəqəsi mövcuddur. Tibb məntəqəsi zəruri avadanlıqlar və dərman vasitələri ilə təchiz olunmuşdur. Tibb məntəqəsində həkim və tibb bacısı fəaliyyət göstərir. Tibb məntəqəsində müayinə və müalicə olunan hər bir pasientin məmnunluq səviyyəsi yüksəkdir.

İnformasiya texnologiyaları (İT) xidməti kifayət qədər yüksək səviyyədədir. Tələbələr və müəllimlər İT xidmətindən tam yararlanırlar. Tədris infrastrukturundan istifadənin monitorinqi aparılır və zərurət yarandıqda yeni daha müasir cihazların, avadanlıqların, stendlərin alınması həyata keçirilir.

SDU-da Redaksiya və nəşriyyat şurası fəaliyyət göstərir ki, həmin şuranın təqdimatı əsasında Elmi Şuranın qərarı ilə nəşr hüququ verilən dərslik, dərs vəsaiti,

metodik vəsait, fənn proqramı kimi tədris vəsaitləri universitetin mətbəəsində nəşr olunur. Burada həmçinin universitetin “Elmi xəbərlər” jurnalının Təbiət və texniki elmlər, sosial və humanitar elmlər bölmələrinin hər il 4 nömrəsi nəşr olunur. Həmçinin SDU-da keçirilən respublika və beynəlxalq səviyyəli elmi konfransların, eləcə də Magistarntların Respublika Elmi Konfranslarının və Tələbə Elmi Cəmiyyətinin elmi konfrans materialları nəşr olunur. Universitetin iclas zalları müvafiq İKT sistemi ilə təchiz olunmuş və müasir tərtibata malikdir. Qeyd olunanlar ayrı-ayrı təhsil proqramları üzrə yüksək ixtisaslı mütəxəssis hazırlığı üçün qənaətbəxş olub, mövcud standartlarin tələblərinə cavab verir.

Universitetə müasir laboratoriya cihazları, qurğuları və stendlər alınmışdır. Onlardan Rusiya istehsalı olan Xromatek-Kristal-5000 laboratoriya qaz xromotoqrafı və Chromatec5000.2NP markalı xromatoqrafı Neft kimyası və kimya mühəndisliyi kafedrasında quraşdırılmışdır. Müxtəlif sinif üzvi birləşmələrin, maye halında olan qarışıqların,o cümlədən, neftfraksiyalarının kəmiyyət və keyfiyyət analizini yüksək dəqiqliklə aparmağa imkan verən bu cihaz SOCAR-ın praktiki olaraq bütün zavod və müəssisələrində uğurla istifadə olunur. Xromatoqrafik analiz üsulu geniş yayılmış üsul olaraq bakalavriat, magistratura, doktorantura səviyyələrində istifadə olunan vacib metoddur. Chromatec. 5000.2NP cihazının alınıb istifadəyə verilməsi onun kimya mühəndisliyi, kimya, kimya müəllimliyi, ekologiya mühəndisliyi, biologiya ixtisaslarında tədris prosesində tətbiqini mümkün edir, kimya və biologiya fakültəsində aparılan kadr hazırlığının keyfiyyətini yüksəltməyə imkan yaradır. Cihazdan tədris prosesi ilə yanaşı elmi-tədqiqat işlərinin aparılmasında da səmərəli istifadə olunması həyata keçirilir. Gənc alimlər, doktorantlar, dissertantlar elmi-tədqiqat təcrübələrinin yerinə yetirilməsində onun imkanlarından istifadə edirlər, eyni zamanda Tələbə Elmi Cəmiyyətinin üzvləri də bu tədqiqatlara cəlb olunurlar, onlarda “xromatoqrafla” işləmək vərdişləri aşılanır.

Ümumiyyətlə, Kimya və biologiya fakültəsi üzrə Neft kimyası və kimya texnologiyası, Analitik kimya, Üzvi maddələr istehsalının kimyəvi texnologiyası, YMB-nin kimyəvi texnologiyası, Kimya sənayesinin proses və aparatları, Tətbiqi elektrokimya, Fiziki və kolloid kimya, Fiziki kimya, Qeyri-üzvi kimya, Ümumi kimya, Ekologiya kafedrasının tədris laboratoriyası, Zoologiya, Botanika, Anatomiya və insan fiziologiyası laboratoriyaları, Hərbi Taktiki hazırlıq və topoqrafiya, İxtisaslaşdırılmış Mülki müdafiə və tibbi hazırlıq kabinetləri zəruri tədris vəsaitləri ilə təchiz olunub və hər il yeni cihazlar, kimyəvi reaktivlər və digər laboratoriya ləvazimatları alınır.

Kimya və biologiya fakültəsində müasir tələblərə cavab verən 15 tədris laboratoriyası və 2 fənn kabinəsi fəaliyyət göstərir:

1. Kimya texnologiyası laboratoriyası. Kimya texnologiyası və Qeyri üzvi maddələrin kimyəvi texnologiyası fənlərindən laboratoriya dərsləri tədris olunur.
2. Neft kimyası laboratoriyası. Neft kimyası, Neft və qazın kimyası və fiziki emal texnologiyası, Neftin fiziki və kimyəvi emalı və Əmtəə neft kimya məhsulları fənlərindən laboratoriya dərsləri tədris olunur.
3. Analitik kimya laboratoriyası. (2 lab. otağı 1407, 1417) Analitik kimya, Üzvi reaktivlərin və kompleks birləşmələrin analitik kimyada tətbiqi və Analitik kimya və instrumental analiz fənlərindən laboratoriya dərsləri tədris olunur.
4. Üzvi maddələr istehsalının kimyəvi texnologiyası və Yüksək molekullu birləşmələrin kimyası və texnologiyası laboratoriyası. Laboratoriyada Yüksək molekullu birləşmələr kimyası, Əsas üzvi sintez, Üzvi maddələr istehsalının kimyəvi texnologiyası fənlərindən laboratoriya dərsləri tədris olunur.
5. Elektrokimya laboratoriyası. Laboratoriyada Metalların korroziyası və mühafizəsi, Tətbiqi elektrokimya, Elektrokimyanın əsasları və Nəzəri elektrokimya fənlərindən laboratoriya dərsləri tədris olunur.
6. Fiziki və kolloid kimya laboratoriyası. Laboratoriyada Kolloid kimya, Fiziki kimya-1, Fiziki kimya-2, Fiziki-kolloid kimya-1,Fiziki-kolloid kimya-2, Səth hadisələri, Kimyəvi temodinamikanın əsasları-1 və Kimyəvi temodinamikanın əsasları-2 fənlərindən

laboratoriya işləri yerinə yetirilir. Otaqda müxtəlif kimyəvi reaktivlər, mufel sobası, tərəzi və laboratoriya qurğuları mövcuddur.
7. Fiziki kimya laboratoriyası. Laboratoriyada Kolloid kimya), Fiziki kimya-1, Fiziki kimya-2, Fiziki-kolloid kimya-1, Fiziki-kolloid kimya-2, Səth hadisələri, Kimyəvi temodinamikanın əsasları-1 və Kimyəvi temodinamikanın əsasları-2 fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda müxtəlif kimyəvi reaktivlər, termostat, tərəzi, çalxalayıcı qurğu, Rebinder cihazı, və digər laboratoriya qurğuları mövcuddur.
8. Üzvi kimya laboratoriyaları. Laboratoriyalar Üzvi kimya-1, Üzvi kimya-2, Həyat fəaliyyətinin kimyəvi əsasları və Elementüzvi birləşmələr kimyası fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqlarda lazım olan kimyəvi reaktivlər, analitik tərəzi, refraktometr, elektron tərəzi, mexaniki qarışdırıcı və digər qurğular mövcuddur.
9. Qeyri-üzvi kimya laboratoriyası. Laboratoriyada Kimya, Kimya, Ümumi kimya, Qeyri-üzvi kimya-1 və Qeyri-üzvi kimya-2 fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda kimyəvi reaktivlər, ştativlər, sınaq şüşələri, şüşə kolbalar, stəkanlar, pipetlər, büretlər, ölçü silindirləri, Kipp aparatı, kürəcikli büret, titrləmə büreti, elektron tərəzi və digər şüşə qurğular mövcuddur.
10. Ümumi kimya laboratoriyası. Laboratoriyada Kimya, Kimya, Ümumi kimya, Qeyri-üzvi kimya-1 və Qeyri-üzvi kimya-2 fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda kimyəvi reaktivlər, ştativlər, sınaq şüşələri, şüşə kolbalar, stəkanlar, pipetlər, büretlər, ölçü silindirləri, Kipp aparatı, kürəcikli büret, titrləmə büreti, analitik tərəzi, elektron tərəzi və digər şüşə qurğular mövcuddur.
11. Ekologiya laboratoriyası. Laboratoriyada istifadə olunan cihaz və avadanlıqlar işçi vəziyyətdədir. Tədris planında verilmiş laboratoriya dərsərinə müvafiq olaraq laboratoriya işləri tam hazırlanmış, həm elektron, həmdə də təlimat formasında çap olunmuşdur. Son beş ildə labiratoriya işlərinin yerinə yetirilməsi məqsədilə 20 ədəd müasir cihazlarla təchiz olunmuşdur.
12. Zoologiya laboratoriyası. Laboratoriyada Onurğalılar zoologiya, Onurğasızlar zoologiyası fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda müxtəlif heyvan maketləri, onurğasız heyvanlara dair lövhələr mövcuddur.
13. Mikrobiologiya laboratoriyası. Laboratoriyada Mikrobiologiya, Biotexnologiya Sənaye mikrobiologiyası fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda müxtəlif laboratoriya avadanlıqları ilə yanaşı bir çox reaktivlər və quruducu şkaf mövcuddur.
14. Botanika laboratoriyası. Laboratoriyada Bitkilərin sistematikası, İbtidai bitkilər və göbələklər, Mikologiya, Ali bitkilər, Bitki fiziologiyası fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda bitkilərə aid herbarilər, divar lövhələri mövcuddur.
15. İnsan və heyvan fiziologiyası laboratoriyası. Laboratoriyada İnsan və heyvan fiziologiyası, İnsan anatomiyası, Genetika fənlərindən laboratoriya işləri yerinə yetirilir. Otaqda sentrefuqa, quruducu, skelet və heyvanların orqanlarına dair bir çox nümunələr mövcuddur.
16. Mülki müdafiə və tibbi biliklərin əsasları fənn kabinəsi. Tələb olunan avadanlıqlarla təchiz edilib. İlkin tibbi yardım vasitələri saxlanılan tibbi şkaf, Dozimetrik nəzarət komplekti DP-22V, Dozimetr- rentgenometr cihazı DP-5A, Fərdi dozimetrlər komplektləri DP-22V, DP-24, KKC, Kimyəvi kəşfiyyat cihazı, Fərdi apteçka , Əleyhqaz QP5.
17. Çağırışaqədər hazırlıq fənn kabinəsi. Tələb olunan avadanlıqlarla təchiz edilib. (Atıcılıq dərsi üçün pnevmatik tüfəng, Tədris üçün əl qumbarası maketi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin strukturu haqqında plakat, Heydər Əliyevin hərbi sahədə fəaliyyəti haqda stend, Manqanın və tağımın hücum və müdafiə taktikasına aid plakat, Sira təliminə aid plakat, Atəş hazırlığına aid plakat, Hərbi nizamnamələrə aid plakat, Heydər Əliyevin və İlham Əliyevin hərbi geyimdə şəkilləri, Milli Qəhrəmanlara aid fotostend, Topoqrafik ərazi maketi, Hərbi topoqrafiyaya aid plakat, Hərbi geyimli maniken.

Tədris laboratoriyalarında müxtəlif kimyəvi reaktivlər, müasir xrotomaqrafiya aparatı, elektrolizerlər, quruducu sobalar, alkilləşmə qurğuları, distillə aparatları, qarışma

növlü reaktorlar, konduktometr, refraktometr, termostatlar, müxtəlif növ sintez qurğuları, viskozimetr, qarışdırıcılar, pH cihazı, müxtəlif növ elektrodlar, amperimetrlər, voltmetrlər və düzləndiricilər var.

Mühəndislik fakültəsində ixtisaslaşdırılmış auditoriya (video konfrans zalı), kompüter mühəndisliyi, İnformasiya texnologiyaları və sistemləri, İnformasiya-ölçmə sistemləri, Kompüter texnologiyaları və proqramlaşdırma, Nəzarət ölçmə və rəqəmli idarəetmə sistemləri, Tətbiqi mexanika və metrologiya laboratoriyaları zəruri avadanlıq, cihaz və stendlərlə təchiz edilmişdir və hər il yeni cihaz və qurğuların alınması həyata keçirilir.

Mühəndislik fakültəsində müasir tələblərə cavab verən 8 tədris laboratoriyası fəaliyyət göstərir:

1.Kompüter texnologiyaları və proqramlaşdırma laboratoriyası (Riyazi proqram paketləri, Proqramlaşdırmanın əsasları, Kompüter şəbəkələri, Kompüterlərin arxitekturası, Obyektyönlü proqramlaşdırma, Proqram mühəndisliyinin əsasları və layihələndirilməsi, Verilənlərin strukturu və alqoritmlər, Məntiqi proqramlaşdırma dilləri, Müasir proqramlaşdırma dilləri, Web proqramlaşdırılması və layihələndirilməsi, Formal dillər və avtomatlar nəzəriyyəsi, Kompüter dizaynı, Sistem proqramlaşdırılması fənlərindən laboratoriya dərsləri tədris olunur)

2.İnformasiya texnologiyaları və sistemləri laboratoriyası (İntellektual texnologiyalar İnformasiya texnologiyanın əsasları Multimedia texnologiyaları İnsan-maşın interfeysləri Kompüter qrafikası Kompüter texnologiyaları və proqramlaşdırma İnformasiyanın idarə edilməsi WEB sistemləri və texnologiyaları Verilənlərin bazası sistemləri fənlərindən laboratoriya dərsləri tədris olunur)

3.Elektron çeviriciləri və ölçmələr laboratoriyası (Analoq elektronikası, Elektronikanın əsasları. Avtomatlaşdırma texnikası, Sensor sistemləri, Kommunikasiya və bussistemin əsasları, Ölçmə texnikasının əsasları, Mikroprosessorlar, Tətbiqi fizika fənlərindən laboratoriya dərsləri tədris olunur)

4. Rəqəmsal elektronika və proqramlaşdırılan inteqral sxemlər laboratoriyası ( Kompüter arxitekturası, Kompüter şəbəkələri, Kompüter sxemotexnikası, Kompüter sistemlərinin təhlükəsizliyi, Rəqəmsal elektronika, Rəqəmsal sistemlər ,Siqnallar və sistemlər. Siqnalların analoq və rəqəmli email, Sistemlərin simulyasiyası fənlərindən laboratoriya dərsləri tədris olunur)

5. Texnoloji ölçmələr və texniki vəsaitlər laboratoriyası (İdarəetmə sistemlərinin simulyasiyalı tədqiqi Sensor sistemləri Avtomatlaşdırmanın əsasları Mikroprosessorlar və proqramlaşdırılan inteqral mikrosxemlər Sənaye avtomatlaşdırılması Avtomatlaşdırmanın texniki vasitələri fənlərindən laboratoriya dərsləri tədris olunur)

6.Avtomatik tənzimləmə, rəqəmli idarəetmə sistemləri laboratoriyası, (Proqramlaşdırılan məntiqi kontroller Məntiqi idarəetmə sistemləri Rəqəmli idarəetmə sistemləri Obyektlərin modelləşdirilməsi Proseslərin analizi və identifikasiyası Kimya mühəndisliyində riyazi modelləşdirmə fənlərindən laboratoriya dərsləri tədris olunur)

7.Mexanika, standartlaşdırma və ölçmə texnikası laboratoriyası. (Maşınların hidravlik sistemləri Axın mexanikası Tətbiqi mexanika, Qazma maşın və avadanlıqları Nəqliyyat proseslərinin idarə edilməsi Maşın və mexanizmlər nəzəriyyəsi Nəqliyyatın güc qurğuları Yol hərəkətinin təşkili və təhlükəsizliyi Kompüter qrafikası Təchizat zəncirinin idarə edilməsi) Tədris laboratoriyası müasir kompüter avadanlıqları ilə təhciz olunub.

8.Müəssisələrdə əməkdaşlığın inkişafı istiqamətində universitetlərarası innovasiya şəbəkəsinin yaradılması, videokonfrans zalı.

Tədris laboratoriyaları kompüter texnikası, elektron texnikası, Galsen firmasının texnoloji ölçmələr, tənzimləmə texnikası, sənaye avtomatlaşdırılması və proqramlaşdırılan məntiqi controller stendləri, avtomatlaşdırma texnikası üzrə müasir avadanlıqlarla, elmi-tədqiqat işlərinin sınaq və startup layihələri ilə təchiz olunub. Tədrisdə informasiya texnologiyaları sahəsindəki elm və texnikanın son nailiyyətlərindən (tətbiqi proqram paketləri, müasir proqram sistemləri, CAD sistemlər və s.) geniş istifadə olunur,

laboratoriyalarda qlobal internet şəbəkəsinə çıxışı olan lokal kompüter şəbəkələri yaradılmışdır.

*Fizika və elektroenergetika fakültəsində* 20 tədris laboratoriyası fəaliyyət göstərir. Tədris laboratoriyaları müasir cihaz, avadanlıq və stendlərlə təhciz olunmuşdur. Fakültədə həmçinin istehsalat təcrübə bazası mövcuddur. Enerji maşınqayırması, Elektroetexnika və ölçmə texnikası, Elektroenergetika, Elektrik intiqalı, Elektrik aparatları və maşınları, Mexanika və molekulyar fizika, Bərk cisim elektronikası, Yarımkeçiricilər fizikası, Elektromaqnetizm, Optika, Elektronika və s., ümumilikdə 18 tədris laboratoriyasında praktik dərslər keçirilir. Laboratoriyalar müvafiq cihazlar, qurğular, avadanlıqlar, stendlər vasitəsilə təchiz olunmuşdur.

## 6.2. Elmi-tədqiqat infrastrukturu

Tətbiqi kimya ETL-sı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16.12.2010-cu il tarixli 1640 №-li əmrinə əsasən, SDU-nun rektorunun 14.08.10-cu il tarixli 267/06 say-lı əmri ilə yaradılmışdır.

"Tətbiqi kimya" ETL SDU-nun "Kimya və biologiya" fakultəsinin tərkibində 2010-cu ildən fəaliyyət göstərir. Laboratoriya əməkdaşları Etilen-propilen sopolimerləri və poliizopren əsasında motor yağlarının sintezi prosesinin tədqiqi, prosesin texnoloji sxeminin işlənməsi və pilot qurğusunun hazırlanması mövzusunda tədqiqatlar aparmışlar.

2016-2020-ci illərin mövzu planı: Duzlu dəniz suyunun anodda oksidləşməsi ilə natrium hipoxloritin alınması.

Hazırda laboratoriya əməkdaşları Sellülozanın aktivləşdirilməsi üsulları mövzusu üzrə elmi tədqiqat işi ilə məşğul olurlar. Laboratoriyanın fəaliyyəti dövründə Azərbaycan Respublikasının və Avroasiya Patent Təşkilatının patentləri alınmış, respublikada və xaricdə məqalə və tezislər nəşr olunmuşdur.

Xromatek-Kristal-5000 laboratoriya qaz xromotoqrafı və Chromatec. 5000.2NP cihazının alınıb istifadəyə verilməsi elmi-tədqiqat işlərinin yerinə yetirlməsində mühüm əhəmiyyətə malikdir. Xromatek-Kristal-5000 laboratoriya qaz xromotoqrafı cihazı rəqəmsal quruluşla təmin edilmiş və hesablamaların avtomatik aparılmasına imkan verir. O, həmçinin Ethernet interface rəqəm ötürücüsünə və digər analiz cihazlarına məsələn, kütlə spektrometrinə qoşularaq birləşmələrin quruluş və tərkibinin daha dəqiq səviyyədə araşdırılmasını mümkün edir. Cihazdan elmi-tədqiqat işlərinin aparılmasında geniş istifadə olunur.

2018-ci ilin noyabr ayından etibarən Ətraf mühitin monitorinqi ETI-sı Tətbiqi kimya ETL-si ilə birləşdirilmiş və Neft kimyası və kimya mühəndisliyi kafedrasının nəzdində Tətbiqi kimya ETI-sı adı ilə fəaliyyət göstərir. Laboratoriyada Duzlu suların anodda oksidləşdirilməsi nəticəsində natrium hipoxloritin alınması prosesinin tədqiqi mövzusu üzərində elmi tədqiqat işləri aparılmışdır.

2021-2025-ci illərin mövzu planı: Aromatik birləşmələrin elektrokimyəvi sistemdə halogenləşməsi, alkilləşməsi və alınan halogenli birləşmələrin tətbiq sahələrinin öyrənilməsi.

Hazırda elmi tədqiqat işinin II mərhələsi yerinə yetirilməkdədir (Toluolun elektrokimyəvi sistemdə bromlaşması. Alkenilfenolların halogenləşməsi. Alınan birləşmələrin tətbiq sahələri).

Laboratoriyada 6 əməkdaş, o cümlədən 2 elmlər namizədi, 1 elmi işçi, 2 kiçik elmi işçi və 1 baş laborant çalışır. 2 dissertant və bir doktorant elmi işlə məşğul olur.

Tətbiqi kimya və Ətraf mühitin monitorinqi ETL-nın fəaliyyəti dövründə əməkdaşlar tərəfindən Azərbaycan Respublikası və Avroasiya Patent Təşkilatının 29 patenti alinmış, respublikada və xaricdə yüzdən çox məqalə və tezislər nəşr etdirilmişdir. Laboratoriya əməkdaşları Azərbaycan Respublikasının "Startup" və "Sabahın alimləri" layihələrində, Respublika və Beynəlxalq Elmi Konfranslarda mütəmadi iştirak edirlər.

İxtisaslaşdırılmış auditoriya (203) audiovizual tədrisin aparılması, telekonfransların təşkili, müxtəlif mövzularda dəyirmi masa, dissertasiya işlərinin təqdimatı və digər məqsədlər üçün istifadə olunur.

Fizika və elektroenergetika fakültəsində "Energetikanın problemləri" elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Burada daxiliyanma mühərriki vasitəsilə istiliyin ötürülməsi istiqamətində elmi-tədqiqat işləri aparılr.

Filologiya fakültəsində Folklorşünaslıq elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Laboratoriya müasir İKT sistemi ilə təchiz olunmuşdur. Laboratoriyanın elmi istiqamətləri: Azərbaycan folklorundakı epik janrların poetikası; "Kitabi-Dədə Qorqud" bədii yaradıcılıda əbədi və zəngin qaynaq kimi; Folklor örnəklərində işlənən onomastik vahidər və onların üslubi imkanları; Aşıq yaradıcılığının bəzi problemləri; Mifoloji düşüncədə ağac, su, dağ, quş və at kultları; Folklor motivlərin yazılı ədəbiyyatda inikası. Elmi-tədqiqat laboratoriyasında 1 professor, 1 elmi işçi, 1 kiçik elmi işçi və 2 böyük laborant çalışır.
Elektroenergetikanın problemləri elmi-tədqiqat laboratoriyasının 2021-2025-ci illər üçün iş planı:
Mövzu: Vibrasiya tezlikli sıxlıqölçənin tədqiqi və işlənməsi.

I. 2021- ci il- Suspenziyaların sıxlığının ölçmə üsulları və müqayisəli təhlili
II. 2022- ci il- Vibrasiya tezlikli sıxlıqölçəninin nəzəri tədqiqi
III. 2023- cü il-Vibrasiya tezlikli sıxliqölçəninin struktur sxeminin və statiki xarakteristikasının tədqiqi
IV. 2024-cü il-Vibrasiya tezlikli sıxliqölçəninin yüksək keyfiyyət əmsallı rezonatorunun sintezi
V. 2025-ci il-Vibrasiya tezlikli sıxliqölçəninin rezonatorunda müəyyən tezlikli rəqsləri yaradan qüvvənin təyini

"Vibrasiya tezlik sıxlıqölçənin tədqiqi və işlənməsi" movzunun I və II mərhələləri işlənmişdir.

Aparılan təhlilin nəticələrinə görə maye axın sıxlıqölçənlərinə qoyulan müasir təlabatlar sistemləşdırılmişdir. Boru şəkilli rezonatorlu vibrasiya-tezlik sıxlıqölçənlərinin perspektivləri göstərilmişdir. Vibrasiya-tezlik sıxlıqölçənlərinin işinin fiziki əsasları aparılan təhlil nəticəsində aydınlaşdırılmışdır ki, cihazın ölçmə dəqiqliyini təyin edən onun mexaniki rezonatorudur, onun əsas parametri isə keyfiyyət əmsalıdır.

Elektroenergetikanın problemləri elmi-tədqiqat laboratoriyası müasir tədqiqat cihazları və qurğuları ilə təchiz olunmuşdur:
Çox funksiyalı qida mənbələri – a) Dəyişən cərəyan ~ 0÷220 v, b) Sabit cərəyan
± 0÷220 v; Laborator qida mənbəyi ±0÷30 v; Standart tezlik generatoru; Yaddaşlı osilloqraf; Rəqəmsal Voltmetr, Ampermetr, Vattmetr, tezlik ölçən; Rəqəmsal İstilik nəzarət kontrollerləri; Sakn qurğusu; Vibrasiya amplitud sıxlıqölçəni; Müqavimətlər maqazini; Elektron sayğac.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### 7.1. Beynəlmiləlləşmə siyasəti

Beynəlmiləlləşmə strategiyası SDU-nun Ali Kollegial İdarəetmə orqanı olan Elmi Şuranın iclasında müzakirə olunmuş və müəssisə rəhbərinin imzası ilə təsdiqlənmiş və protokollaşdırılmışdır (№ ). Beynəlmiləlləşmə siyasəti sənədi Elmi Şuranın 24.01.2020-ci il tarixli (protokol №06) qərarı ilə təsdiq edilmiş 2020-2025-ci illəri əhatə edən 5 illik Strateji İnkişaf Planınına (SİP) uyğun olaraq hazırlanmışdır. SİP-nın qarşıya qoyduğu 7 strateji hədəfin biri (Strateji hədəf 0.5) universitetin beynəlmiləlləşmə siyasətini özündə əks etdirir.
Beynəlmilləşmə strategiyasının 1 və 3-cü fəaliyyət istiqaməti Beynəlxalq Mübadilə Proqramlarında iştirak edəcək tələbə, müəllim və inzibati heyətin sayını davamlı surətdə artırmağı nəzərdə tutur.

Beynəlmilləşmə strategiyasının (0.7 hədəfi) Universitetdə əcnəbi tələbələrin sayını artırmaq, xarici təhsil şirkətlərində SDU-nun təmsilçilik fəaliyyətinin qurulması, əcnəbi tələbələrdən ibarət Məzunlar Assosiasiyasının yaradılmasını nəzərdə tutur.

SDU öz fəaliyyətində xarici ölkə universitetlərindən akademik heyətin tədris prosesinə cəlb olunması istiqamətində davamlı olaraq, müvafiq tədbirlər görür.

SDU doktorant və magistrantların beynəlxalq konfrans və simpozumlara, elmi tədqiqat təcrübələrinə, habelə Beynəlxalq elmi tədqiqat şəbəkələrinə (COST) cəlb olunmasını təmin edir.

Təhsil sahəsində nüfuzlu beynəlxalq təşkilatlarla ( əməkdaşlıq, onların keçirdiyi vebinar və təlimlərdə iştirak universitetin fəaliyyət istiqamətlərindən biridir. Beynəlmilləşmə strategiyasının (Hədəf 0.2) beynəlxalq ikili diplom proqramlarının təsis olunmasını nəzərdə tutur.

Univesitetin beynəlmilləşmə strategiyası hər 5 ildən bir təhsil sahəsində innovasiyalara və prioritetlərə cavab vermək məqsədilə yenilənir.

### 7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu

Universitetin beynəlmiləlləşmə siyasəti əsasən, beynəlxalq əlaqələr üzrə prorektorluq, tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorluq,elm və innovasiya üzrə prorektorluq və beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi tərəfindən həyata keçirilir. SİP-a əsasən hazırlanmış SDU-nun Elmi Şurasının 18.03.2021-ci il tarixli iclasında (prot.№06) və 08.02.2022-ci il tarixli iclasında (prot.№06) təsdiqlənmiş illik fəaliyyət planında hər il üzrə icra müddəti və icraçılar göstərilmişdir. Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi hesabatlılıq prinsipinə əsaslanır. Hər 6 aydan bir görülən işlər barədə Elmi Şurada hesabat dinlənilir.

Universitetin Beynəlmilləşmə siyasəti sənədi Tədrisin təşkili və təlim texnologiyaları üzrə, Elm və İnnovasiyalar üzrə, Beynəlxalq əlaqələr üzrə prorektorluğun və Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsinin qarşısında hədəflər qoyur.

2007-2008-ci tədris ilindən etibarən Azərbaycan Avropa Ali Təhsil Məkanına inteqrasiya edərək, baloniya təhsil sisteminə qoşulmuşdur. Mübadilə proqramlarında iştirak edən təhsilalanların Kreditlərinin tanınması mexanizmi Avropa Kredit Transfer Sisteminə uyğun olaraq, bakalavr pilləsi üzrə təhsil 240-300 kredit (4 və ya 5 il olmasından asılı olaraq) , magistr üzrə 90 - 120 kredit qəbul olunur.

2016-2017 tədris ili. **Dana Donoho**–Filologiya fakültəsinə iniglis dili müəllimi köməkçisi
2017-2018 tədris ili. **Kayla Motor**–Filologiya fakültəsinə iniglis dili müəllimi köməkçisi
2018-2019 tədris ili. **Jack Morris**–07.09.2018-18.06.2019. Filologiya fakültəsinə ingilis dili müəllimi köməkçisi.

Fellowship proqramı çərçivəsində SDU Xarici dillər kafedrasının müəllimləri üçün 15 həftəlik "Akademik məqsədlər üçün ingilis dili" **(2021, 18 oktyabr**) təlimləri baş tutmuşdur. Təlimlərin II turu **(21 fevral, 2022**) digər ixtisas fənlərini tədris edən müəllim heyəti üçün keçirilmişdir. Təlimlər ABŞ-ın Azərbaycandakı Səfirliyi tərəfindən təqdim olunmuş ingilis dilinin tədrisi metodikası və TESOL üzrə mütəxəssis Maykl Moak tərəfindən aparılmışdır.

Türkiyə Respublikasının Qaziantep Universitetinin müəllimi Sadık Çetinin 2022-2023-cü tədris ilinin payız semestri üçün Sumqayıt Dövlət Universitetində Osmanlı tarixi fənni üzrə mühazirələrini tədris etmək üçün cəlb olunmuşdur.

Beynəlmilləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin montorinq edilməsi məqsədilə hər ilin sonunda beynəlxalq elmi fəaliyyətlə bağlı bütün universitet üzrə həyata keçirilən tədbirlər barədə hesabat Elmi Hissəyə təqdim olunur, Beynəlmilləşmə fəaliyyətinə məsul prorektorlar aidiyyatı məsələlərlə bağlı Elmi Şurada hesabatlar verirlər.

**2015-2016-ci tədris ilində**

Ceyhunə Hüseynova (Filologiya fakültəsi) 2 həftəlik Türkiyənin Aydın Adnan Menderes Universitetində mübadilə proqramında iştirak etmiş və sertifikata layiq görülmüşdür.

**2016-2017-ci tədris ilində**
Musayeva İlahə (Filologiya fakültəsi) – Aydın Adnan Menderes Universiteti 2 həftəlik mübadilə proqramında iştirak etmiş və sertifikata layiq görülmüşdür.
Dos.Samir Kərimli (Tarix və coğrafiya fakültəsi) – Aydın Adnan Menderes Universitetində 2 həftəlik mübadilə proqramında iştirak etmiş, sertifikata layiq görülmüşdür.
**2017-2018-tədris ilində**
B.m. Rövşən Məmmədov (Filologiya fakültəsi) – Zonquldak Bülent Ecevit Universitetində 2 həftəlik mübadilədə iştirak etmiş, sertifikata layiq görülmüşdür.
Səadət Hümbətəliyeva (İqtisadiyyat və idarəetmə fakültəsi) – Sakarya Universitetində 2 həftəlik mübadilə proqramında iştirak etmiş, sertifikata layiq görülmüşdür.

**2019-2020-ci tədris ilində**
Südabə Məmmədova – (Filologiya fakültəsi) Aydın Adnan Menderes Universitetində 2 həftəlik mübadilə proqramında iştirak etmiş, sertifikata layiq görülmüşdür.
Dilarə Əmiraslanova – (İqtisadiyyat və idarəetmə fakültəsi) Aydın Adnan Menderes Universitetinə mübadilə proqramına qəbul olunsa da, COVİD -19 pandemiyası səbəbindən iştirak edə bilməmişdir.
Lalə Vəliyeva – (İqtisadiyyat və idarəetmə fakültəsi) Aydın Adnan Menderes Universitetinə mübadilə proqramına qəbul olunsa da, COVİD-19 pandemiyası səbəbindən iştirak edə bilməmişdir.
Beynəlxalq mübadilə proqramlarında iştirak üçün imkanlar barədə universitet əməkdaşlarının məlumatlandırılması universitetin rəsmi saytı, rəsmi sosial media hesabları üzərindən, fakültələr üzrə elan lövhəsində elanlar vasitəsilə həyata keçirilir.
SDU-nun beynəlxalq nüfuzu, yerli və regional islahatlarda yaxından iştirakı onu qlobal reytinqlərdə iştirakına mühüm əsas verir. Belə ki, universitet 6 iyul 2022-ci il tarixində SDU BMT-nin Akademik Təsir Şəbəkəsinə üzv qəbul olunmuş və BMT-nin Qlobal Kommunikasiyalar Departamentinin rəhbəri Robert Skinnerin imzası ilə təsdiqlənmiş sertifikata layiq görülmüşdür. Sertifikat və üzvlük kitabçası elektron şəkildə təqdim olunmuşdur. Bundan əlavə, Universitetin Amerikanın AASHE Stars üzrə profili açılmışdır; THE Impact Ranking üzrə Giriş, Məqsəd 1, 2, 3, 4 hazırlanmaqdadır; UNESCO-UNFCCC COP27 yolunda UNESCO-UNFCCC vebinarlar seriyası - Sosial transformasiya üçün iqlim dəyişikliyi təhsili üzrə səkkiz aylıq tədbirinə iştirak etmək üçün qeydiyyatdan keçirilmişdir; THE Latin America Universities Forum 2022 tədbirinə iştrak etmək üçün qeydiyyatdan keçirilmişdir; GreenMetrics Ranking üzrə profilin açılması üçün müraciət edilmiş, reytinq metodologiyası üzrə məlumatlar daxil edilmiş; U-Multirank Reytinqi üçün hesab açılmışdır.

### 7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

Beynəlmiləlləşmə siyasətinin icra edilməsi ilə bağlı təbliğat işləri, mübadilə proqramları ilə bağlı elanlar və əcnəbi tələbələrin cəlbi istiqamətində görülən işlərlə bağlı məlumatlar universitetin rəsmi saytında və universitetin rəsmi sosial media hesablarında işıqlandırılır. Beynəlxalq akkreditasiya qurumları ilə əlaqələrin yaradılması və bu məqsədlə xaricə ezam olunmuş heyətin səfərlərinin təşkili, viza sənədlərinin hazırlanması,maliyyə arayışlarının hazırlanması uyğun olaraq, universitetin beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi və mühasibatlıq tərəfindən tərəfindən həyata keçirilir. Ezamiyyə xərcləri universitetin maliyyə resurları hesabına ödənilir.

Xarici ölkələrdə təşkil olunan beynəlxalq əhəmiyyətli tədbirlərdə universiteti təmsil etmək və təhsildə innovasiyaların və yeni praktikaların öyrənilməsi məqsədilə ezam olunan universitet əməkdaşlarının və tələbələrin səfərlərinin təşkilati işləri BƏƏTŞ-i tərəfindən həyata keçirilir və bütün maliyyə xərcləri universitet büdcəsindən ödənilir. SDU-nun beynəlxalq elmmetrik bazalarda göstəricilərinin artırılması məqsədilə professor-müəllim heyətinin elmi-sosial şəbəkələrdə şəxsi profillərinin yaradılması üçün hər fakultədən 1 nəfər əməkdaş cəlb olunmaqla işçi qrup tərəfindən həyata keçirilir. Universitet

üzrə GoogleScholar platformasında şəxsi hesabların statistikasının monitorinqinə nəzarət etmək üçün İnformasiya Texnologiyaları Mərkəzi tərəfindən **sdu.edu.az** domeni üzərindən ssu@sdu.edu.az elektron poçt ünvanı yaradılmışdır. Belə ki, bu elektron ünvan yalnız bir məqsədlə yaradıldığı üçün sistem tərəfindən göndərilən **"təsdiqlə"** bildirişi gündə hansı fakültə üzrə neçə hesab açıldığına nəzarət etməyə imkan verir.

### 7.4. Beynəlmiləlləşmə performansı

**29.04.2019 – 31.07.2019** - Filologiya fakültəsinin Xarici dillər kafedrasının böyük laborantı Əliyeva Əfsanə İngilis dili üzrə təhsil səviyyəsinin artırılması məqsədilə Böyük Britaniyanin LEDS şəhərinə ezam olunmuşdur.
**21.03.2022 – 27.03.2022** -Mühəndislik fakültəsinin dekan müavini, İnformasiya Texnologiyaları və Proqramlaşdırma kafedrasının müəllim Əhmədova Svetlana Ankara, Orta Şərq Texniki Universiteti "İnsan- Komputer interfeysləri sahəsində təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi layihəsi"də iştirak etmişdir.
**11.04.2022-17.04.2022** - Elm və innovasiyalar üzrə prorektor prof. Məmmədov Ramazan, İqtisadi məsələlər üzrə prorektor Hacıyev Naib, Proseslərin avtomatlaşdırılması kafedrasının müdiri prof. Məmmədov Cavanşir, Elmi hissənin müdiri dos. Orucov Samir, SDUTK Tədris işləri üzrə direktor müavini Qurbanov Əsəd – Texnopark İstanbul, Bilişim Vadisi, İstanbul Texniki Universiteti, Texnokent və Bursa Texniki Universiteti Texnoparklarına səfəri başa tutmuşdur.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 39 | | | | Uyğundur |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 15 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | 54 | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | Uyğundur |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 32 | | | | Uyğundur |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 11 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | 55 | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 11 | | | | Uyğundur |
| 3.2 Təhsil proqramları | 28 | | | | Uyğundur |
| 3.3 Tədrisin təşkili | 62 | | | | Uyğundur |
| 3.4 Tədris metodları və üsulları | 21 | | | Əsasən uyğundur | |
| 3.5 Təlim və tədris resursları | 49 | | | | Uyğundur |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 35 | | | | Uyğundur |
| 3.7 Professor-müəllim heyəti | 33 | | | | Uyğundur |
| 3.8 Tələbəyönümlü tədris | 32 | | | Əsasən uyğundur | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 12 | | | | Uyğundur |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 14 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | 297 | | | | |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 24 | | | | Uyğundur |
| 4.2 Tədqiqat resursları | 20 | | | | Uyğundur |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 58 | | | | Uyğundur |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 8 | | | Əsasən uyğundur | |
| **İstiqamət üzrə yekun bal** | 110 | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 27 | | | | Uyğundur |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 30 | | | | Uyğundur |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 44 | | | | Uyğundur |
| 5.4 İnformasiya idarəetmə sistemi | 21 | | | Əsasən uyğundur | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 18 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | 140 | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 40 | | | | Uyğundur |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | 46 | | | | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | Uyğundur |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 26 | | | Əsasən uyğundur | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 10 | | | Əsasən uyğundur | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | 66 | | | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | 768 | | | | Uyğundur |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

**1.** SDU-nun fəaliyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Mərkəzi İcra Hakimiyyəti Orqanları tərəfindən təsdiq edilmiş normativ-hüquqi sənədlərin və Universitetin Nizamnaməsinin tələblərinə uyğundur.

**2.** Təşkilat Komissiyasının üzvləri tərəfindən 271 indikator üzrə qiymətləndirilmə aparılmış, qiymətləndirilmənin nəticələrin Meyarlar və istiqamətlər üzrə uyğunluq dərəcələri aşağıdakı kimidir:

**a) Meyarlar üzrə - uyğundur.**
**b) İstiqamətlər üzrə - uyğundur.**

İndikatorlar üzrə toplanan real bal 768 təşkil etmişdir və uyğunluq dərəcəsi 94,5 % təşkil edir.

**Özünütəhlil komissiyası SDU-da növbəti 5 ildə təhsilin inkişafına xidmət edəcək aşağıdakı tədbirlərin həyata keçirilməsini tövsiyə edir:**

- ✧ Professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün tədbirlər planının, o cümlədən respublikanın, Avropanın və MDB-nin qabaqcıl ali məktəblərində ixtisasartırma kurslarında iştirak üzrə aparılan işlərin daha da genişləndirilməsi;
- ✧ SDU-nun beynəlxalq rəqabətliliyinin artırılması məqsədilə daim təhsilin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə xidmət edən tədbirlərin həyata keçirilməsi, əmək bazarının tələblərinə uyğun olaraq yeni ixtisaslar üzrə kadr hazırlığı üzrə aparılan işlərin davam etdirilməsi;
- ✧ Beynəlxalq əlaqələr sahəsində fəaliyyətinin genişləndirilməsi, qabaqcıl beynəlxalq təhsil layihələrində iştirakın təmin edilməsi, xarici tələbələrin təhsilə cəlb edilməsi, müəllim və tələbə mübadiləsinin artırılması;
- ✧ Təhsilalanların mübadilə proqramlarında iştirakının daha da genişləndirilməsini;
- ✧ SDU üçün kampusun tikintisinə nail olunmasını;
- ✧ Perspektiv hədəflər: SDU-nu dünyanın nüfuzlu universitetləri sırasına şıxarmaq.
- ✧ SDU-nun İnnovasiya Yaradıcılıq Mərkəzinin tikintisinin başa çatdırılması və fəaliyyətinin təmin edilməsi.
- ✧ Yeni yaradılmış Strateji İnkişaf Mərkəzinin fəaliyyətinin genişləndirilməsi .

## III Özünütəhlil Hesabatına əlavə olunan sənədlər

1.Təhsil müəssisəsinin Nizamnaməsi;
2.Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris illəri üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş tədris ili üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son 5 tədris ilində təhsil alanlar, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 7 tədris ilində elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
9.Təlim resursları və tələbələrə dəstək xidmətləri;
10.Təhsil müəssisəsinin maddi-texniki bazası;
11.Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
12.Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
13. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
14.Son 7 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
15.Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
16.Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
17.Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
18.Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
19.Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;